**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**

**İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2023-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Abizadə Azər Etibar oğlu - ADA Universitetinin dosenti, i.ü.f.d.;

**Üzvlər:**

2. Alməmmədova Səbinə Məmməd qızı - Azərbaycan Texniki Universiteti, Xarici dillər kafedrasının müdiri, fil.e.d., dos.;
3. Tarverdiyeva Səbinə Yelmar qızı- Bakı Slavyan Universiteti, Tədris və təlim prosesinin təşkili mərkəzinin müdiri, f.ü.f.d., dos.;
4. Qəni Tariyel Seyfəddin oğlu- Azərbaycan Universiteti, Tədris şöbəsinin müdiri, f.ü.f.d., dos.;
5. Bağırlı Sara Hikmət qızı- Azərbaycan Turizm və Menecment Universiteti, Keyfiyyət təminatı şöbəsinin Monitorinq və keyfiyyətə nəzarət bölməsinin rəhbəri, c.ü.f.d.;
6. Vernygora Vlad Alex - Xəzər Universiteti, Beynəlxalq əlaqələr üzrə prorektor (təhsil üzrə xarici mütəxəssis);
7. Mir Feyzullazadə Milana Adam qızı- ADA Universiteti, Qlobal Tərəfdaşlar və Mübadilə Proqramları Ofisinin meneceri;
8. Abdulla Bəyim Nadir qızı- Azərbaycan Dillər Universiteti, Regionşünaslıq kafedrasının baş müəllimi, Test Mərkəzinin rəhbəri;
9. İsgəndərov Bəhruz Həmidulla oğlu - Azərbaycan Turizm və Menecment Universiteti, Tədrisin elektron idarə edilməsi bölməsinin müdiri;
10. Babayeva Vüsalə Ağakərim qızı- 147 №-li Texniki-Humanitar Liseyin təlim- tərbiyə işləri üzrə direktor müavini, direktor vəzifəsini müvəqqəti icra edən;
11. Orucova Tərlan Əhməd qızı-Xəzər Universiteti, Humanitar, Təhsil və Sosial Elmlər fakültəsinin dekan müavini, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan doktorant (təhsilalan).

**Mündəricat**

**Giriş** ......................................................................................................... 4
**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar** ........................................... 4
**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri** ......................... 5
**Qiymətləndirmənin icmalı** ..................................................................................... 5
**1 STRATEJİ İNKİŞAF** ............................................................................................ 5
**2 KEYFİYYƏT TƏMİNATI** ........................................................................................ 10
**3 TƏLİM VƏ TƏDRİS** .............................................................................................. 16
**4 ELMİ TƏDQİQAT** ................................................................................................. 53
**5 İDARƏETMƏ SİSTEMİ** .......................................................................................... 70
**6 İNFRASTRUKTUR** ................................................................................................ 82
**7 BEYNƏLMİLƏLLƏŞMƏ** ......................................................................................... 85
**Komissiyanın istiqamətlər üzrə təhlili** ..................................................................... 97
**5. İdarəetmə sistemi** ............................................................................................. 108
**6. İnsfrastruktur** ................................................................................................... 110
**7. Beynəlmiləlləşmə** .............................................................................................. 113
**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri** ...................... 117
**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi** . 117

**Giriş**
**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar**

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyun 2016-cı il və 5 il müddətinə |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | Publik hüquqi şəxs statusuna malik dövlət ali təhsil müəssisəsi |
| Təhsil müəssisəsinin məsul şəxsi | Cəfərov Cəfər Məmməd oğlu |
| Fakültələrin sayı | 8 (səkkiz) |
| Kafedraların sayı | 33 (otuz üç) |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 22 (iyirmi iki) |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 22 (iyirmi iki) (26 (iyirmi altı)) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 35 (otuz beş) (10 (on)) |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı: 10.628<br>Bakalavriat: 9851 (filiallarsız)<br>Magistratura: 708<br>Doktorantura: 59<br>Elmlər doktorluğu proqramı üzrə:10 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 787 (yeddi yüz səksən yeddi) |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 119 (yüz on doqquz) nəfər əvəzçiliklə və<br>180 (yüz səksən) nəfər saathesabı |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | E-poçt: *office@adpu.edu.az*<br>Tel. (+994 12) 493 00 32 |
| Müəssisənin hüquqi ünvanı | Azərbaycan, Bakı, AZ1000, Ü.Hacıbəyli küç., 68 |
| Müəssisənin faktiki ünvanı | Azərbaycan, Bakı, AZ1000, Ü.Hacıbəyli küç., 68 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri
## Qiymətləndirmənin icmalı

Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) institusional akkreditasiya qiymətləndirilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 2022-ci il 14 noyabr tarixli, F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq aparılmışdır. Qiymətləndirmənin məqsədi təhsil müəssisəsinin davamlı olaraq təkmilləşdirilməsi və daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək, o cümlədən ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır.

ADPU-nun institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun olaraq seçilmişdir. 2022-ci il 14 noyabr tarixindən etibarən 3 ay müddətində ADPU tərəfindən Özünütəhlil Hesabatı hazırlanmış və 2023-cü il 3 – 7 aprel tarixlərində Akkreditasiya Komissiyası tərəfindən ali təhsil müəssisəsində (ATM) sahə baxışı həyata keçirilmişdir.

Yekun Hesabatda əks olunmuş bütün cədvəl və qrafiklər ADPU-nun Özünütəhlil Hesabatına əlavə olaraq ATM tərəfindən təqdim olunmuş məlumatlar əsasında tərtib edilmişdir. Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1 STRATEJİ İNKİŞAF

### *1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1. ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) təsdiqlənmiş Strateji İnkişaf Planı (SİP) 2018-2021-ci illəri əhatə edir. Sözügedən SİP ADPU-nun Elmi Şurasının 14 sentyabr 2018-ci il tarixli iclasının qərarı ilə (protokol No: 1) təsdiq edilmişdir. ADPU-nun bir öncəki SİP-i isə 2015-2020-ci illər üzrə hazırlanmış və Elmi Şuranın 12 fevral 2015-ci il tarixli iclasında qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, 2015-2020-ci illəri əhatə edən SİP-də görülən işlər və icra vəziyyəti, prioritet istiqamətlər, strateji məqsədlər, o cümlədən təlimin keyfiyyətinin təmin edilməsi sahəsində tədbirlər, elmi-tədqiqat fəaliyyətinin inkişafı və elmi-pedaqoji kadrların hazırlanması, tərbiyə işləri, gənclər siyasəti, beynəlxalq fəaliyyət, kadr potensialının inkişafı, Universitetin idarəetmə sisteminin inkişafı, resurslarla təminat və innovativ inkişafın təmini və bunlardan gözlənilən nəticələr öz əksini tapmışdır. Hərçənd ATM-in Özünütəhlil Hesabatından aydın olur ki, 2015-2020-ci illər üçün hazırlanmış SİP istifadə edilməyib. Eyni zamanda 2016-cı ilin II yarısında Təhsil Nazirliyinin (hazırki Elm və Təhsil Nazirliyinin) tapşırığı ilə ATM üçün "Transformasiya üçün Yol Xəritəsi" və ADPU-da "Tədrisin Keyfiyyətinin Yüksəldilməsinə dair 10 illik Strateji İnkişaf Planı" adlı rəsmiləşdirlməyən iki sənəd layihəsi hazırlanmışdır. Daha sonra ATM ölkə rəhbərliyinin müvafiq fərman və sərəncamlarını, Minilliyin İnkişaf Məqsədlərini, Davamlı İnkişaf üzrə Təhsil Məqsədlərini əsas götürmüş, yerli və beynəlxalq ekspertlərin apardığı tədqiqatların nəticələrində verdiyi təklifləri nəzərə almış və beləliklə, ADPU-nun 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planını hazırlamışdır. 5 bölmədən ibarət olan SİP cədvəl

formasında təsvir olunmaqla fəaliyyətlərin məzmunu, icra müddəti, məsul struktur bölmə kimi sütunları əhatə edir.

2021-ci ildə SİP-in icra müddəti başa çatsa da, Elmi Şuranın 29.12.2022-ci il tarixli qərarı ilə SİP-in icrası 2023-cü ilin sonuna qədər uzadılmışdır. Elmi Şuranın 14.09.2022-ci il tarixli qərarı ilə isə "ADPU 2023-2030" SİP-inin hazırlanması üzrə işçi qrupu yaradılmışdır.

Onu da əlavə etmək lzımdır ki, ATM-də yeni SİP-in hazırlanmasına dair hazırlıq prosesi müşahidə edilsə də, cari SİP-in müddəti bitdikdən sonrakı dövr ərzində (2021-ci ildən 2022-ci ilin 29 dekabr tarixinə qədərki dövr) icarsı ilə bağlı məlumatsızlıq var.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ADPU-nun 2018-2021-ci illər üzrə SİP-ində ATM-in missiya və hədəfləri qeyd edilmişdir. SİP-lə tanışlıqdan aydın olur ki, ATM-in əsas missiyası milli şüura malik, tədqiqatçı, məhsuldar, dərin düşüncəli, elmə, insan hüquqlarına hörmət edən, yaradıcı və innovativ, fərdlər-pedaqoqlar yetişdirmək və təhsil, tərbiyə, araşdırma və s. digər elmi tədbirlər vasitəsilə cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə verməkdir. ATM-in hədəfləri isə tələbələr üçün universitet məmnunluğunun gücləndirilməsi, tələbə nəticələrinin yüksəldilməsi, Universitetə yüksək bacarıqlara malik tələbələrin cəlb edilməsi və Universitetə yüksək balla qəbul olunan tələbələrin bacarıqlarının tədqiqat-innovasiya istiqamətində inkişafına nail olunmasıdır. Göründüyü kimi, ATM-in missiya və hədəfləri arasında uyğunluq gözlənilmişdir. Bunula belə qeyd etmək lazımdır ki, SİP-də ATM-in məqsədi qeyd edilməmişdir. Bu baxımdan ATM-in məqsədinin missiya və hədəflərlə uyğunluğunun dəyərləndirilməsi mümkün olmamışdır. Bu səbəbdən də ATM-in məqsədinin də göstərilməklə missiyaya uyğunlaşdırılması məqsədəuyğun hesab edilir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

ATM-in SİP-i Tədris və ümumi işlər, Elm və innovasiyalar sahəsi, Beynəlxalq əlaqələr və inkişaf, Sosial və humanitar məsələlər, İnzibati və iqtisadi məsələlər istiqamətlərini əhatə etməklə 5 bölmədən ibarətdir. ATM-in gələcəyə baxışı (vizyonu) beynəlxalq standartlara cavab verən tədqiqatçı-müəllim hazırlığını peşə təhsilinin əsasları, ixtisas və innovasiyalar istiqamətində həyata keçirməkdən ibarətdir. Bu baxımdan SİP-in istiqamətləri ilə ATM-in gələcəyə baxışı, əmək bazarı, cəmiyyət və xüsusilə iqtisadiyyatın inkişaf istiqamətləri ilə uyğundur.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

ATM-in əsas hədəfləri tələbələr üçün Universitet məmnunluğunu gücləndirmək, tələbə nəticələrini yüksəltmək və Universitetə yüksək bacarıqlara malik tələbələri cəlb etmək, onların

tədqiqat-innovasiya istiqamətində inkişafına nail olmaqdır. Bu hədəflər SİP-də əksini tapan prioritet istiqamətlərə uyğundur. Lakin müəssisənin qarşısında duran əsas məqsədi SİP-də öz əksini tapmadığından onların uyğunluğunu müyyən etmək mümkün olmamışdır. Müəssisənin məqsədinin də SİP-də əks olunması və prioritet istiqamətlərə uyğunlaşdırılması məqsədəuyğun hesab edilir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

ATM-in gələcəyə baxışda qoyulmuş strateji istiqaməti beynəlxalq standartlara cavab verən tədqiqatçı-müəllim hazırlığını peşə təhsilinin əsasları, ixtisas və innovasiyalar istiqamətində həyata keçirməkdən ibarətdir. Bu mənada strateji baxışa nail olunması üçün hədəflər müəyyən edilsə də, məqsəd müəyyənləşdirilməyib.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

2018-2020-ci illəri (3 il) əhatə edən SİP-in icrası üzrə strateji iş planı planı mövcud olsa da, ayrılıqda qısa və ortamüddətli dövr üzrə iş planı hazırlanmamışdır. Yeni SİP hazırlanarkən qısa və ortamüddətli dövr üçün tədbirlərin, eləcə də təqvim və ya tədris illəri üzrə iş planının hazırlanması tövsiyə olunur.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

ATM tərəfindən təqdim olunmuş SİP-in hazırlanması və icrası adlı sənədə (excel, 14.02.2023 tarixli) əsasən demək olar ki, SİP-i qiymətləndirməyə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri tərtib edilmişdir. Lakin bu göstəricilər əsas etibarilə görülən işlərin nəticələrini əks etdirir. Yeni SİP hazırlanarkən nəzərdə tutulan tədbirlərin mümkün nəticələrini də göstərməsi məqsədəuyğun hesab edilir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

SİP-də nəzərdə tutulan fəaliyyətləri icra etmək üçün resurslar yalnız “məsul struktur bölmə” şəklində əksini tapıb. Hazırlanan yeni SİP-də nəzərdə tutulan fəaliyyətləri icra etmək üçün insan, maliyyə və infrastruktur kimi resursların dəqiq sayla və ya təxmini rəqəmlə göstərməsi (proqnozlaşdırılması) tövsiyyə olunur.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

ATM-in cari il üzrə (19.01.2023-cü il tarixli) gəlir və xərclər smetası mövcuddur. Büdcədən müxtəlif məsələlər üçün ayrılan vəsait arasında SİP-də qeyd olunan bir sıra

məsələlər də öz əksini tapıb. Lakin müəssisənin büdcə planlaşmasında SİP-in işçi qrupunun təklifi əsasında onun icrası üçün maliyyə vəsaitinin ayrılıqda göstərilməsi məqsədəuyğundur.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

SİP-in Elm və innovasiyalar, Sosial və humanitar məsələlər üzrə fəaliyyət istiqamətlərində bu və bu kimi bir sıra məsələlər öz əksini tapmışdır. Belə ki, SİP-də Universitetdaxili elmi müsabiqələrin (tələbələr üçün olimpiadaların, ilin alimi (tədqiqatçısı), ilin kafedrası və s.) təşkili, tədqiqatçıların və ixtiraçıların müəlliflik hüququ və intellektual mülkiyyətinin müdafiəsi üçün şərait yaradılması, kafedra əməkdaşlarının elmi-tədqiqat işlərinin nəticələrinin beynəlxalq miqyaslı nüfuzlu jurnallarda dərc olunması işinin təşkili, tələbələr arasında dini və digər ayrı-seçkilik mövzularında işin aparılması, sağlam həyat tərzinin təbliğ edilməsi, təhsil sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşün təşkili, “Plagiat.pl” MMC ilə müqaviləyə əsasən dövrü nəşrlərin, buraxılış işi, magistr işi və dissertasiyaların antiplagiatdan keçirilməsi qaydalarının (təlimatın) təsdiqi kimi çoxsaylı məsələlər öz əksini tapıb.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

ATM-in 12 fevral 2015-ci il tarixində 2015-2020-ci illər üçün SİP-i qəbul edilmişdir. ADPU-da 2016-cı ildə keçirilən akkreditasiya qiymətləndirilməsindən sonra SİP-in yenilənməsi işləri görülsə də, həmin plan təsdiqini tapmayıb. Daha sonra 2018-ci ildə cari SİP Elmi Şura tərəfindən təsdiqlənərək qəbul edilmişdir. Bu baxımdan əvvəlki SİP-də göstərilən məsələlərin icra vəziyyəti aydın olmur. Cari SİP hazırlanarkən müəssisənin əvvəlki SİP-də icra edilməyən və ya qismən icra edilən məsələlərə dair məlumatın əks olunması və ehtiyac varsa həmin məsələlərin yeni SİP-də də öz əksini tapması məqsədəuyğunhesab edilir.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

ATM-in SİP-i hazırlanarkən GZİT (SWOT) təhlili aparılmış, təhlil nəticəsində aşkarlanmış zəif tərəflərin aradan qaldırılması SİP-də öz əksini tapmışdır. Bunula yanaşı, ATM-in GZİT təhlilinin nəticəsinə uyğun zəif tərəflərin aradan qaldırılması istiqamətində ayrı tədbirlər planının hazırlanması məqsədəuyğun hesab edilir.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Mövcud (2018-2021-ci illər üzrə) SİP-in hazırlanması mütəmadi Elmi Şura iclaslarında müzakirə edilməsinə baxmayaraq SİP-in hazırlanmasından məsul işçi qrupun yaradılmasına dair sənəd mövcud deyil. Bununla belə qeyd edilməlidir ki, yeni SİP-in hazırlanmasından məsul işçi qrup Elmi Şuranın14 sentyabr 2022-ci il tarixli №1 protokolu ilə formalaşdırılmış, SİP-ə dair müvafiq müzakirələr işçi qrupla yanaşı Elmi Şura iclaslarında da aparılmışdır. Bu baxımdan

prosesdə iştirak edən maraqlı tərəfin işçi qrupla yanaşı Elmi Şura üzvlərinin olması aydın olur. Digər tərəfdən qeyd olunmalıdır ki, kənar maraqlı tərəflər (ETN, əmək bazarı nümayyəndələri və s.) SİP-in hazırlanmasına cəlb edilməmiş, təhsilalanların cəlbi isə Elmi Şurada iştirak edən tələbələrlə (Elmi Şura üzvü kimi – TGT, THİK sədri) məhdudlaşmışdır.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

ATM-in Strateji İnkişaf Planının strukturunda əksini tapan sütunlardan biri "məsul struktur bölmə" adlanır. Buradan aydın olur ki, strategiyada nəzərdə tutulan məsələlərin icrası üzrə məsul strukturlar və ya şəxslər müəyyən edilmişdir (məs. ADPU-da təhsil keyfiyyətinin yüksəldilməsi üzrə reytinq qiymətləndirmə sisteminin yaradılmasına məsuliyyəti Keyfiyyətin Təminatı Şöbəsi və Elm və İnnovasiyalar Şöbəsi daşıyır, və yaxud ADPU-da mövcud olan tədris laboratoriyalarının işinin səmərəliliyinin artırılmasına Tədris Departamentinin Metodiki təminat və akkreditasiya bölməsi cavabdehdir). Bu baxımdan, bütün strateji plan üzrə məsələlər bu şəkildə məsul struktur və şəxslər üzrə bölünüb. Beləliklə, SİP-in məzmununda əksini tapan "məsul struktur bölməsi" sütunu bütünlüklə bu indikatoru əhatə edir.

## *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

ATM-in struktur bölmələrinin hesabatları mövcud olsa da, SİP-in icrasına dair ayrı hesabat mövcud deyildir. Bu məsələni sadəcə "SİP-in hazırlanması və icrası" sənədində "məsul struktur bölmə" sütunundan ayırd etmək olur. ATM-in SİP-in qısa və ortamüddətli dövr üzrə icrası planının hazırlanması və onun nəticəsində həmin dövrlər üzrə yarımillik və illik hesabatlarının tərtib olunması tövsiyə olunur.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

ATM-in strukturu bölmələrinin hesabatı Elmi Şura iclaslarında müzakirə edilir. SİP-in icrasına dair hesabat ayrılıqda deyil, struktur bölmələrin ümumi hesabatı əhatəsində müzakirə edilmişdir. Ümumiyyətlə, struktur bölmələrin illik hesabatlarından kənar, ayrılıqda "SİP-in icrasına dair hesabat"-ın hazırlanması daha məqsədəuyğundur.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

SİP-in icrası ilə bağlı ayrı-ayrı strukturların hesabatlarında məlumatlar vardır. SİP-in icrası ilə bağlı sistemli monitorinq həyata keçirilmir. Müəssisənin daxili monitorinq və ya audit

qaydalarını müəyyənləşdirməsi, onu ehtiyac olan digər sahələrlə yanaşı, SİP-in yoxlanılması prosesinə də tətbiq etməsi məqsədəuyğundur.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

ATM-in SİP-in icrası ilə bağlı məlumat ayrı-ayrı strukturların hesabatlarında əksini tapır. Lakin onun icrasına dair monitorinq və yaxud vahid hesabatlılıq aparılmır. Bu baxımdan 1.2.3 indikatorunda göstərilən təklifin nəzərə alınması, eləcə də, nəticələrin təhlili mexanizminin formalaşdırılması tövsiyə olunur.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

1.2.3. və 1.2.4 indikatorları ilə yanaşı, nəticələrinə görə tədbirlər planının hazırlanması və onun məsul işçi qrupa çatdırılması, həmçinin ümumi prosesin maraqlı tərəflərə ötürülməsi məqsədəuyğundur.

## 2 KEYFİYYƏT TƏMİNATI

### *2.1. Keyfiyyət təminatı siyasəti*

### 2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətinini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

ATM-in Keyfiyyət Təminatı Siyasəti sənədi mövcuddur, ADPU-nun Elmi Şurasının 29 dekabr 2022-ci il tarixli qərarı ilə təsdiqlənib və eynitarixli 3 saylı protokoldan çıxarışda əksini tapmışdır. Keyfiyyət siyasəti sənədi Universitetin akademik, tədqiqat və ictimai xidmət məqsədlərinə cavab verməsini təmin etmək üçün keyfiyyət təminatı prosedurları və təcrübələrinin işlənib hazırlanması, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi üçün çərçivə sənədini təmin etmək məqsədini daşıyır. Siyasət sənədi ATM-in bütün maraqlı tərəflərinə, o cümlədən professor-müəllim heyəti, işçi heyəti, tələbə, tədqiqatçı və xairici tərəfdaşlara şamil edilir. Keyfiyyət siyasəti sənədi ADPU Elmi Şurasında təsdiqləndiyindən prosesdə müəssisədaxili maraqlı tərəflər, bilavasitə Elmi Şura üzvləri iştirak edib. Keyfiyyət təminatı siyasəti sənədi hazırlanarkən digər maraqlı şəxslərin (əmək bazarı nümayəndələri, ETN nümayəndələri, xarici tərəfdaşları və s.) də prosesə cəlb edilməsi məqsədəuyğundur.

### 2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Keyfiyyət təminatı sənədi 12 səhifədən ibarətdir və məqsədi, əhatə dairəsi, əsas anlayışları göstərməklə, Keyfiyyət təminatı siyasətinin bəyannaməsini, çərçivə sənədini, keyfiyyət təminatı prosedurlarını, monitorinq və qiymətləndirmə, icra və nəzərdən keçirməni əhatə edir. Məzmun və məna baxımından anlaşılan və icrası mümkün sənəddir. Lakin sənədin tərtibində müəyyən çatışmazlıqlar mövcuddur. Sənədi əhatə edən məsələlərin ardıcıllığında təkrarlanmalara yol verilmişdir. Bəzi hallarda başlıqla məzmun uyğunsuzluğu mövcuddur

(Kurrikulumun hazırlanması və nəzərdən keçirilməsi başlığı fənn proqramlarının tərtib edilməsi prosedurundan bəhs edir – səh.7). Bu baxımdan sənədin məzmununun təkmilləşdirilməsinə və redaktə edilməsinə ehtiyac vardır. Keyfiyyət təminatına dair prosedurlar əks olunub, lakin həmin prosedurların mərhələli təsviri, məqsədi və gözlənilən nəticəsinin göstərilməsi məqsədəuyğundur. Ümumilikdə, ATM-də mövcud istənilən prosedurlarla bağlı onun ümumi müddəalarını, məqsədini, tərəflərin hüquq və vəzifələrini, gözlənilən nəticəni əks etdirən təlimatların hazırlanması keyfiyyət təminatı siyasətinin və sisteminin daha işlək olmasına xidmət edə bilər.

### 2.1.3. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

ATM-in rəsmi internet saytında və Universitetdaxili lövhələrdə "Azərbaycan Dövlət Pedaqoji Universitetinin Strateji bəyannaməsi və keyfiyyətlə bağlı siyasətimiz" adlı sənəd yerləşdirilib. Lakin bu şöbənin təqdim etdiyi, eləcə də, müəssisənin Özünütəhlil Hesabatında məlumat verilən Keyfiyyət Siyasəti sənədindən fərqlidir və daha çox strateji bəyannamə mahiyyətini daşıyır. Keyfiyyət təminatı siyasəti sənədi isə Keyfiyyət təminatı şöbəsi tərəfindən e-mail vasitəsilə ATM əməkdaşları, təhsilalanlar və filiallara çatdırılıb. Mövcud Keyfiyyət təminatı sənədinin (29 dekabr 2022-ci il tarixli) də təkmilləşdirilməklə ATM-in rəsmi internet saytında yerləşdirilməsi məqsədəuyğundur.

### 2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

Keyfiyyət təminatı siyasəti sənədinin əvvəlində əhatə dairəsinə müəssisənin bütün fəaliyyət və əməliyyatları, o cümlədən fənn proqramları, tədqiqat fəaliyyətləri, tələbələrə dəstək xidmətləri, ictimaiyyətlə əlaqə və inzibati funksiyaları daxil edilib. ATM-ə sahə səfəri çərçivəsində müvafiq şöbənin gördüyü işlərlə tanışlıq zamanı təhsilalanlar və təhsilverənlərin qiymətləndirilməsi və göstəricilərinə dair sorğuların nəticələrini əhatə edən göstəricilərlə tanış olundu. Digər tərəfdən təhsil proqramı, infrastruktur, idarəetmə kimi məsələlərin təhsilalanlar arasında keçirilən meqasorğu vasitəsilə qiymətləndirildiyi aydın olmuşdur. Keyfiyyət siyasəti sənədində bu qiymətləndirmə şəklində əksini tapmışdır. ATM-in akkreditasiyası dövründə yerində yoxlanış zamanı keçirilən görüşlərdən aydın olan təhsil proqramlarının təkmilləşdirilməsinə dair məlumatlar isə siyasət sənədində tam əhatə olunmamışdır.

## *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və Əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

ATM-də daxili keyfiyyət təminatı sistemini təsvir edən struktur sxem, onu idarə edən Keyfiyyət təminatı şöbəsi, şöbənin vasitəsilə tənzimlənən və fəaliyyət göstərən işçi qrup mövcuddur. Keyfiyyət təminatı üzrə ayrıca komissiya mövcud deyil. Keyfiyyət təminatı şöbəsi tərəfindən təqdim edilən ADPU Elmi Şurasının „2018/2019-cu tədris ilində Azərbaycan Dövlət

Pedaqoji Universitetinin fəaliyyətinin səmərəli təşkili barədə” adlı 03.12.2018-ci il tarixli qərarında “Azərbaycan Dövlət Pedaqoji Universitetində professor-müəllim heyətinin illik fəaliyyətinin Reytinq Qiymətləndirilməsi ilə bağlı müvəqqəti qaydalar”ın icrası və müvafiq işlərin yerinə yetirilməsi ilə əlaqədar yaradılan Komissiyanın üzvlərinin siyahısı verilib. Şöbə tərəfindən verilən məlumata görə keyfiyyət təminatı ilə bağlı məsələlərin həllində ehtiyac olduğu halda bu Komissiya fəaliyyət göstərir. Demək olar ki, bu, daimi və faktiki fəaliyyət göstərən Komissiya deyildir. ATM-in Keyfiyyət təminatı şöbəsindən ayrı, bütün struktur vahidlərdən nümayəndələri əhatə edən, eləcə də kənar maraqlı şəxslərin də cəlb edildiyi Komissiyanın yaradılması, onun Əsasnaməsinin, fəaliyyət planının formalaşdırılması məqsədəuyğun hesab edilir. Bu Komissiyanın mövcudluğu bütün ATM ilə yanaşı Keyfiyyət təminatı şöbəsinin də monitorinq və qiymətləndirilmə prosesinin həyata keçirilməsinə dəstək göstərə bilər.

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

Yuxarıda (2.2.1) sözügedən Komissiya ADPU əməkdaşlarından ibarətdir. Müəssisədə keyfiyyət təminatı üzrə məsul şöbənin nəzdində işçi qrup mövcuddur ki, bu qrupun tərkibinə maraqlı tərəflərdən yalnız ADPU-nun şöbə, fakültə, filial nümayəndələri daxil edilmişdir. Müəssisənin bütün maraqlı tərəflərinin cəlb edilməsi ilə keyfiyyət təminatı üzrə Komissiyasının yaradılması, həmçinin şöbə nəzdində fəaliyyət göstərən işçi qrupun tərkibinə də maraqlı tərəflərin cəlb edilməsi tövsiyə olunur.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

ADPU-da Keyfiyyət təminatına dair fəaliyyət göstərən şöbənin Əsasnaməsi, yaradılma əmri, fəaliyyət planı, onun nəzdində işçi qrup, keyfiyyət təminatı sistemi və bunu əks etdirən struktur sxem mövcuddur. Müəssisənin cari Strateji Planında əks edilən məsələlər arasında məhz şöbənin məsuliyyətinə düşən məsələlər şöbənin iş planında əksini tapır. Ümumilikdə, şöbənin iş planı SİP-də göstərilən hədəfə uyğundur. Lakin SİP-də göstərilən “ADPU-nun 2018/2021-ci illər üzrə Strateji İnkişaf Planının, eləcə də, hər tədris ili üzrə illik iş planının icrasına nəzarət və 2025-ci ilədək əsas hədəflərin, məqsədlərin müəyyən olunması” ilə bağlı şöbənin planında məlumat göstərilməyib. “Azərbaycan Dövlət Pedaqoji Universitetində professor-müəllim heyətinin illik fəaliyyətinin Reytinq Qiymətləndirilməsi ilə bağlı müvəqqəti qaydalar”ın icrası və müvafiq işlərin yerinə yetirilməsi ilə əlaqədar yaradılan Komissiyanın fəaliyyət planı mövcud deyil. Komissiyanın fəaliyyət planı hazırlanarkən SİP-də göstərilən məsələlərin nəzərə alınması, onların müəssisənin hədəflərinə uyğunlaşdırılması məqsədəuyğundur.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Keyfiyyət təminatı şöbəsinin illər üzrə iş planları mövcuddur (2021/2022, 2022/2023-cü tədris illərinin iş planları ilə tanış olundu). PİND (PDCA) modelinin işləkliyi tam əhatə olunmayıb. İstər iş planından, istərsə də müşahidədən məlum olur ki, planlaşdırma olsa da, onun icra mexanizmi, icrasına nəzarət, düzəlişlərin edilməsi mexanizmi əhatəli deyildir. Bu baxımdan vahid işlək sistem olmasa da, ayrı-ayrı bəzi məsələlərdə model işlək hesab edilə bilər. Məsələn, reytinq qiymətləndirilməsi ilə bağlı konkret sistem və nəticə mövcuddur. Həm iş planı, həm keyfiyyət siyasəti sənədində bu barədə qeyd olunub. Reytinq qiymətləndirilməsinə dair təlimat, meyarlar, reytinq cədvəli, qiymətləndirmədən sonra mükafatlandırma və s. kimi əksər məsələlər sistemli şəkildə aparılır. Şöbənin bütün fəaliyyətlərinin bu istiqamətdə təkmilləşdirilməsi məqsədəuyğundur.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

Daxili keyfiyyət təminatı üzrə əksər məsuliyyət Keyfiyyət təminatı şöbəsinin üzərindədir. Şöbə öz fəaliyyətində iş bölgüsünü işçi qrup vasitəsilə həyata keçirir. Sistemin sxem təsvirində də bu əks olunub. Bundan başqa, bütün məsələlərdə rəhbərlik məlumatlandırılır və ilkin sənədlə tanış edilir. Həmçinin iş planına istinadən, bəzi məsələlərin həllində digər şöbələrlə birgə fəaliyyət göstərilir. Şöbənin strukturunun dəyişdirilməsi ilə bağlı rəhbərliyə müraciət edilib. Ümumiyyətlə, şöbədaxili səlahiyyət bölgüsünün aparılması, texniki məsələlərin şöbə daxilində bölünməsi məqsədəuyğun olardı. Digər tərəfdən, müəssisə heyətinin (istər təhsilalan, istər təhsilverən, istərsə də tədris-köməkçi heyətin) sayının çox olması şöbənin fəaliyyətində əməkdaş sayından asılı olmayaraq istənilən halda işçi qrupa ehtiyac olduğunu göstərir. İşçi qrupa bilavasitə bütün strukturlardan nümayəndələrin cəlb edilməsi, işləkliklə yanaşı, strukturlararası kommunikasiyaya və məlumatların sürətli şəkildə ötürülməsinə dəstək ola bilər.

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Keyfiyyət təminatı şöbəsinin 2022/2023-cü tədris ilinə dair 12 sentyabr 2022-ci ildə təsdiqlənmiş iş planında cari il üzrə 22 məsələnin icrası nəzərdə tutulmuşdur. Akademik heyətin, fakültənin qiymətləndirilməsi, təhsilalanlar, təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində işlərin izlənilməsi məsələləri əhatə olunmuşdur. İş planında nəzərdə tutulan məsələlərin icrasının izlənilməsi mexanizminin də olması məqsədəuyğundur. Bunu ən sadə halda iş planına bir sütun əlavə etməklə “icra statusu” şəklində göstərmək olar. Bu həmçinin, PDCA modelinin ən sadə şəkildə izlənilməsinə də dəstək ola bilər.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

ATM-in ayrılıqda keyfiyyət təminatı sistemini əks etdirən sxem, Keyfiyyət təminatı siyasəti sənədi mövcuddur və bu sənəddə sistemin tənzimlədiyi bir sıra məsələlərin mərhələ və prosedurları əks olunub. Eyni zamanda təhsilalanlara çatdırılan orientasiya görüşünün təqdimatı mövcuddur (Riyaziyyat fakültəsi üzrə). Həmin təqdimatda Universitet haqqında ümumi məlumat, fakültənin strukturu, hədəfləri, təqaüd imkanları, üstünlüklər və s. bir sıra məsələlər barədə məlumatlar əks etdirilmişdir. Lakin bütün bunların daxil olduğu ümumi keyfiyyət təminatı bələdçisi (qaydalar toplusu) adlı sənəd mövcud deyildir. Müəssisənin keyfiyyət təminatı sistemi, mahiyyəti, prosedurları kimi məsələlərin əks olunduğu məlumat xarakterli keyfiyyət təminatı bələdçisi sənədinin hazırlanması məqsədəuyğundur.

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

Məmnuniyyətin ölçülməsi üzrə keçirilən sorğular, reytinq qiymətləndirmə sistemi mövcuddur. Ümumilikdə ATM-də reytinq qiymətləndirmə sistemi daha səmərəli və nəticəyönümlü təşkil edilmişdir. Şöbənin fəaliyyətini əsasən qeyd olunan istiqamətlərdə görülən işlər təşkil edir. Reytinq qiymətləndirilməsinə dair təlimat mövcuddur, lakin onun kargüzarlığa dair normativlərə uyğun yazılması məqsədəuyğun olardı. Reytinq qiymətləndirilməsinin nəticəsinə müvafiq olaraq akademik heyətin mükafatlandırılması təqdirəlayiq haldır, lakin məqsədəuyğundur ki, bu proses minimal nəticə göstərən akademik heyət üzvləri ilə bağlı görülən işləri (tənbeh, xitam verilmə və s. kimi) də əhatə etsin. Eyni zamanda, müəssisədə tələbə məmnuniyyətinin ölçülməsi məqsədilə meqasorğu keçirilir və nəticələri izlənilir. ATM-də keçirilən sorğuların nəticəsində müəyyən işlər görülmüşdür (məs. yeməkxananın təkmilləşdirilməsi kimi), Universitetdaxili bütün sorğuların təşkili ilə bağlı ümumi mexanizmin yaradılması, onların təhlilinin nəticəsinə uyğun tədbirlər planı hazırlanması, bu prosedurun vahid sistemdən idarə edilməsi məqsədəuyğundur.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

ATM-in Özünüqiymətləndirmə Hesabatları EQAC layihəsi çərçivəsində verilən hesabatlarla eynilik təşkil edir. 12 may 2021-ci il tarixli Keyfiyyət təminatı sisteminin Özünü qiymətləndirmə hesabatı 7 istiqamətdə (keyfiyyət təminatı siyasəti, ixtisas proqramlarının hazırlanması və təsdiqlənməsi, tələbə mərkəzli təlim, tədris və qiymətləndirmə, müəllim heyəti, informasiya idarə edilməsi, ictimai məlumat, proqramların davamlı monitorinqi və mütəmadi olaraq nəzərdən keçirilməsi) hazırlanıb və keyfiyyət təminatı ilə bağlı mövcud sənədlərin siyahısını əks etdirir. Ümumilikdə Keyfiyyət təminatı sistemi adıçəkilən layihə çərçivəsində yarandığından özünüqiymətləndirmə də ona müvafiq həyata keçirilmişdir. Sənəd ATM-də keyfiyyət təminatı məsələlərinə dair fikir formalaşdırmağa və qısa məlumat əldə etməyə imkan verir. ATM-in bu tipli qiymətləndirməni hər tədris və ya təqvim ili üzrə nəinki Keyfiyyət təminatı

sistemi, bütün müəssisə üzrə aparması, təhlilin nəticəsinə uyğun tədbirlər planı hazırlaması və icrasına nəzarət etməsi məqsədəuyğundur.

**2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti**

ATM-də əvvəlki akkreditasiyanın yekun hesabatında göstərilən tövsiyyə və göstərişlərin müzakirəsi ADPU-nun Elmi Şurasının 11 iyul 2016-cı il tarixli iclasında (protokol №16) aparılmışdır. Müzakirənin nəticəsində qərar qəbul edilərək görüləcək işlər müəyyənləşdirilmişdir. Daha sonra "ADPU-nun akkreditasiyası zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı görülən tədbirlər haqqında" adlı məlumat sənədi hazırlanmışdır (16.03.2017-ci il tarixli məlumat sənədi, AR Elm və Təhsil Nazirliyinin Akkreditasiya və nostrifikasiya idarəsinin məktubuna əsasən). Bu sənəddə akkreditasiyada göstərilən iradlar istiqamətində görülən və ya görüləcək tədbirlər əks edilsə də, konkret fəaliyyət planı formasında hazırlanmamışdır. ATM-in akkreditasiyanın yekunlarına dair məlumat xarakterli hesabatla yanaşı, görüləcək işlərə dair qısa və uzunmüddətli fəaliyyət planının da hazırlanması tövsiyə olunur.

**2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti**

ATM-də akademik heyət, təhsilalanlar arasında sorğu və reytinq qiymətləndirmə həyata keçirilir. Reytinq qiymətləndirmə istiqamətində proses daha sistemli tətbiq edilir. Sorğuların keçirilməsi ilə bağlı mərkəzləşdirilmiş prosedurun yaradılması, xüsusilə, meqasorğunun suallarının təkmilləşdirilməsi istiqamətində işlər görülməsi məqsədəuyğundur. Belə ki, meqasorğu da olsa, sualların sayının 60-dan ibarət olması respondetlərin cavablarının səmərəliliyi və təhlili nöqteyi-nəzərindən çətinliklər yarada bilər. Eyni zamanda, keçirilən sorğuların əhatə dairəsinin genişləndirilməsi, Universitetdaxili ilə yanaşı, digər bütün maraqlı tərəflərlə müvafiq sorğuların keçirilməsi tövsiyə olunur.

***2.3 Keyfiyyət təminatı mədəniyyəti***

**2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması**

ATM-də Daxili keyfiyyət təminatı şöbəsinə rəhbərliyi həyata keçirən şöbə rektor qarşısında hesabat verir (06 mart 2019-cu il tarixli Əsasnamə). Keyfiyyət təminatı şöbəsi nəzdində işçi qrup fəaliyyət göstərir (işçi qrupun yaradılması haqqında Elmi şuranın 07.10.2021-ci il tarixli iclasından çıxarış, protokol №1) və onun vasitəsilə şöbə ilə digər strukturlar arasında kommunikasiya yaradılır, sorğu və qiymətləndirilmələr aparılır. Həmçinin, maraqlı tərəflərə ötürüləcək məlumat da həmin işçi qrup vasitəsilə həyata keçirilir (Keyfiyyət təminatı siyasəti sənədinin təhsilalanlara göndərilməsi kimi). Bu mənada məlumatın əlçatanlığı

yaradılsa da, bəzi hallarda təhsilalanların bu barədə məlumatsızlığı görünür. ATM-də daxili kommunikasiyanın təkmilləşdirilməsi məqsədilə, korporativ e-maildən istifadənin təşviqi, xüsusilə təhsilalanların göndərilən məlumatların məzmunu ilə tanış olması istiqamətində maarifləndirici işlərin görülməsi tövsiyə olunur.

#### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Keyfiyyət təminatı sahəsində ATM-də əks-əlaqə şöbənin rəhbərliyi ilə işçi qrup vasitəsilə həyata keçirilir. Bu baxımdan lazımi informasiya ötürülür, lakin informasiyanın əlçatanlığının araşdırılması aydın olmur. Keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi, yeni baxışın Universitet kontingenti tərəfindən qəbul edilməsi, məqsədi barədə maraqlı tərəflərlə, xüsusilə ATM strukturları ilə maarifləndirici görüşlərin keçirilməsi, görüşlərdən sonra dəyişikliyin dinamikasının izlənilməsi, ona müvafiq olaraq alternativ kommunikasiya vasitələrinin müəyyənləşdirilməsi tövsiyə olunur.

#### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

ATM rəhbərliyi keyfiyyət təminatı sisteminin inkişafında birbaşa iştirak edir. Şöbənin təklifi əsasında işçi qrupun formalaşdırılması, reytinq qiymətləndirilməsinin keçirilməsi, mükafatlandırıcı tədbirlərin görülməsi, təkliflərin müzakirəsinin və sənədlərin təsdiqinin rəhbərlik səviyyəsində aparılması bunun təzahürüdür.

#### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti

Keyfiyyət təminatına məsul şöbə tədris, elm, beynəlxalq əlaqələr, informasiya-texniki təminat, təminat məsələləri üzrə aidiyyatı strukturlarla qarşılıqlı əməkdaşlıq edir. Şöbənin aidiyyatı strukturlardan məlumat əldə etmə imkanı mövcuddur. Digər tərəfdən, ATM-də strukturlararası əlaqə korporativ e-mail vasitəsilə həyata keçirilir. Eləcə də, ADPU-nun Elmi Şurasında qəbul edilən qərarlar struktur rəhbərləri ilə paylaşılır. Bununla yanaşı, məhz Keyfiyyət təminatına dair məsələlər şöbənin nəzdində fəaliyyət göstərən işçi qrup vasitəsilə koordinasiya edilməklə, onlar tərəfindən strukturlara və ya maraqlı tərəflərə ötürülür.

## 3 TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ATM-də 8 fakültədə bakalavriat səviyyəsi üzrə 22, magistratura səviyyəsində isə 22 ixtisas üzrə 26 ixtisaslaşmada tədris aparılır. Tədris aparılan səviyyələr, ixtisas istiqamətləri, qaydalar haqqında məlumatlar ADPU-nun rəsmi internet saytının “Qəbul” bölməsində yerləşdirilmişdir.

ATM-də təhsil proqramları üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarının və təhsil standartlarının tələbləri nəzərə alınmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il 45 saylı qərarı ilə təsdiq olunmuş "Ali təhsilin bakalavr (əsas, (baza ali) tibb təhsili) səviyyəsi üzrə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2011-ci il 95 saylı qərarı ilə təsdiq olunmuş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğundur.

Təhsil səviyyələri üzrə təhsilalanların qəbulunun illər üzrə artım dinamikası




| | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 2315 | 2200 | 2225 | 2440 | 2500 | 2475 | 2470 |
| Faktiki qəbul | 2167 | 2066 | 2167 | 2308 | 2381 | 2356 | 2437 |




| | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 501 | 415 | 330 | 339 | 361 | 372 | 399 |
| Faktiki qəbul | 408 | 385 | 289 | 313 | 351 | 330 | 373 |




| | 2016/17 | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 64 | 39 | 34 | 26 | 36 | 26 | 39 |
| Faktiki qəbul | 27 | 19 | 16 | 12 | 13 | 5 | 13 |

Qəbul planının dinamika cədvəlindən aydın olur ki, bakalavriat səviyyəsi üzrə qəbul dinamikası son tədris illərində maksimum həddə çatmış, magistratura pilləsi üzrə artım tempi 90 %-dən yuxarı olmuşdur. Doktorantura səviyyəsi üzrə son üç ildə faktiki qəbul tempi azalan şəkildə davam etdiyi üçün əvvəlki illərdə olan orta qəbul dinamikasına təsir etmiş, nəticədə son yeddi ildə qəbul olunanların sayı 24 %-ə qədər azalmışdır.

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

ATM-də tələbə qəbulu sifarişinin formalaşması zamanı müəyyən müzakirələr, görüşlər keçirilmişdir. Bu müzakirələrdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin müvafiq strukturları, məktəb müdirləri iştirak etmişdir. Buna baxmayaraq, bu istiqamətdə geniş və ətraflı təhlillərin, müzakirələrin, sorğu və araşdırılmaların aparılması daha məqsədəuyğundur. Müxtəlif ixtisaslar üzrə əmək bazarının real vəziyyətinin müəyyənləşməsi tələbə qəbulu proqnozunun faydalılığını artırır. ATM-də sahə səfəri zamanı sözügedən prosesin həyata keçirilməsi ilə bağlı təsdiqedici sənədlər təqdim olunmadığından bu səpkidə sorğuların keçirilməməsi məlum olmuşdur.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

ADPU-nun fəaliyyətinin əsas istiqaməti pedaqoji kadr hazırlığı olduğu üçün sifarişçi qismində çıxış edənin Elm və Təhsil Nazirliyi olduğu vurğulanır. Tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun olaraq optimal müəyyən edilməsi üçün maraqlı tərəflərlə görüşlər və müzakirələr aparılsa da, ATM tərəfindən rəsmiləşdirilmiş protokollar və ya təsdiqedici sənədlər təqdim olunmamışdır. Bu istiqamətdə daha geniş müzakirə auditoriyasına müraciət olunması məqsədəuyğundur.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

ATM-də qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20.05.2019-cu il tarixli, 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydaları və Universitet EŞ-nin 2022-ci il tarixli iclasının (protokol № 3) qərarı ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetində tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyasına dair Qaydalar"ı əsasında tənzimlənir. Lakin proses zamanı müvafiq sənədləşmə, əmrləşdirmələr aparılmamışdır. Kreditlərin sayını, fənlərin məzmununun uyğunluğunu və kreditlərin sayılmasını təsdiq edən rəsmi sənədləşmə həyata keçirilməmişdir. Yalnız akademik məsləhətçilərin iştirakı ilə tələbənin fərdi tədris planı tərtib olunarkən nəzərə alınmışdır. Aidiyyatı strukturlar (fakültə dekanlığı və Tədris departamenti) tərəfindən rəsmiləşdirilməmişdir.

## *3.2 Təhsil proqramları*

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

ATM-də müxtəlif təhsil səviyyələri üzrə pedaqoji kadr hazırlığının (bakalavriat, magistratura və doktorantura) aparılması nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatında və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarı ilə təsdiq edilmiş təsnifatda əksini tapmış ixtisaslar üzrə və 2020-ci ildə təsdiq olunmuş təhsil proqramlarına uyğun olaraq təşkil olunmuşdur.
Yalnız təkrar ali təhsil istiqamətində pedaqoji ixtisaslarda qəbul Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məktubuna əsasən dayandırılmışdır.

| **№-si** | **İxtisasın şrifti** | **İxtisasın adı** |
|---|---|---|
| 1 | 050101 | Azərbaycan dili və ədəbiyyat müəllimliyi |
| 2 | 050102 | Biologiya müəllimliyi |
| 3 | 050103 | Coğrafiya müəllimliyi |
| 4 | 050105 | Fizika müəllimliyi |
| 5 | 050106 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi |
| 6 | 050107 | İbtidai sinif müəllimliyi |
| 7 | 050108 | İnformatika müəllimliyi |
| 8 | 050109 | Kimya müəllimliyi |
| 9 | 050110 | Kimya və biologiya müəllimliyi |
| 10 | 050111 | Korreksiyaedici təlim |
| 11 | 050112 | Məktəbəqədər təhsil |
| 12 | 050113 | Musiqi müəllimliyi |

| | | |
|---|---|---|
| 13 | 050114 | Riyaziyyat müəllimliyi |
| 14 | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 15 | 050116 | Tarix müəllimliyi |
| 16 | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 17 | 050118 | Təhsildə sosial-psixoloji xidmət |
| 18 | 050119 | Təsviri incəsənət müəllimliyi |
| 19 | 050120 | Texnologiya müəllimliyi |
| 20 | 050121 | Xarici dil müəllimliyi (ingilis dili) |
| 21 | 050121 | Xarici dil müəllimliyi (fransız dili) |
| 22 | 050807 | Sosial iş |

Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarı ilə ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq Universitetdə magistratura səviyyəsində aşağıdakı 22 ixtisas (28 ixtisaslaşma) üzrə magistr hazırlığı aparılır:

| **№-si** | **İxtisasın şrifti** | **İxtisaslaşma və ixtisasın adı** |
|---|---|---|
| 1. | 120301 | **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi**<br>Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası |
| 2. | 060103 | **Xarici dil müəllimliyi (ingilis dili)**<br>Xarici dilin (ingilis dili) tədrisi metodikası və metodologiyası |
| 3. | 060104 | **Fizika müəllimliyi**<br>Fizika fənninin tədrisi metodikası və metodologiyası |
| 4. | 060105 | **Riyaziyyat müəllimliyi**<br>Riyaziyyatın tədrisi metodikası və metodologiyası |
| 5. | 060106 | **Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə)**<br>Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənninin tədrisi metodikası və metodologiyası |
| 6. | 060107 | **Texnologiya müəllimliyi**<br>Texnologiya fənninin tədrisi metodikası və metodologiyası |
| 7. | 060108 | **Musiqi müəllimliyi**<br>Musiqi fənninin tədrisi metodikası və metodologiyası |
| 8. | 060109 | **Biologiya müəllimliyi**<br>Biologiya fənninin tədrisi metodikası və metodologiyası |
| 9. | 060110 | **Kimya müəllimliyi**<br>Kimya fənninin tədrisi metodikası və metodologiyası |
| 10. | 060111 | **Tarix müəllimliyi**<br>Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| 11. | 060112 | **Coğrafiya müəllimliyi**<br>Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası |
| 12. | 060113 | **İnformatika müəllimliyi**<br>İnformatika fənninin tədrisi metodikası və metodologiyası |
| 13. | 060114 | **Təsviri incəsənət müəllimliyi**<br>Təsviri incəsənət fənninin tədrisi metodikası və metodologiyası |

| | | |
|---|---|---|
| 14. | 060115 | **İbtidai sinif müəllimliyi**<br>İbtidai sinifdə tədrisin metodikası və metodologiyası |
| 15. | 060116 | **Korreksiyaedici təlim**<br>Korreksiyaedici təlimin metodikası və metodologiyası |
| 16. | 060117 | **Məktəbəqədər təlim və tərbiyə**<br>Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası |
| 17. | 060118 | **Təhsildə sosial-psixoloji xidmət**<br>Təhsildə sosial-psixoloji xidmət |
| 18. | 060119 | **Pedaqogika**<br>Pedaqogika nəzəriyyəsi və tarixi<br>Sosial pedaqogika<br>Təhsildə qiymətləndirmə və monitorinq<br>Təlim və tədrisin təşkili və metodikası (SABAH) * |
| 19. | 060407 | **Menecment**<br>Menecment (təhsilin təşkili və idarə olunması)<br>Menecment (Ali təhsilin təşkili və idarə olunması)**<br>Menecment (təhsilin təşkili və idarə olunması)*** |
| 20. | 060805 | **Sosial iş**<br>Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş<br>Gənclərlə iş |
| | | **MBA proqramı üzrə** |
| 21. | 060409 | **Biznesin idarə edilməsi**<br>Biznesin təşkili və idarə edilməsi (Təhsilin təşkili və idarə olunması) |
| 22. | 060408 | **Marketinq**<br>Marketinq (Təhsil üzrə marketinqin təşkili və idarə olunması) |

"Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 2012-ci il tarixli, 65 nömrəli qərarına əsasən doktorantura səviyyəsində 33 ixtisas üzrə elmi dərəcəli kadrlar hazırlanır:

| **№-si** | **İxtisasın şrifti** | **İxtisasın adı** |
|---|---|---|
| 1. | 1203.01 | Kompüter elmləri |
| 2. | 1211.01 | Diferensial tənliklər |
| 3. | 2220.01 | Yarımkeçiricilər fizikası |
| 4. | 2301.01 | Analitik kimya |
| 5 | 2306.01 | Üzvi kimya |
| 6 | 2401.01 | Zoologiya |
| 7 | 2411.01 | İnsan və heyvan zoologiyası |
| 8 | 5401.01 | İqtisadi coğrafiya |
| 9 | 5502.01 | Ümumi tarix |
| 10 | 5503.02 | Vətən tarixi |
| 11 | 5505.02 | Arxeologiya |
| 12 | 5706.01 | Azərbaycan dili |

| | | |
|---|---|---|
| 13 | 5710.01 | Türk dilləri |
| 14 | 5716.01 | Azərbaycan ədəbiyyatı |
| 15 | 5718.01 | Dünya ədəbiyyatı |
| 16 | 5719.01 | Folklorşünaslıq |
| 17 | 5801.01 | Rus dilinin tədrisi metodikası |
| 18 | 5801.01 | Biologiyanın tədrisi metodikası |
| 19 | 5801.01 | İnformatikanın tədrisi metodikası |
| 20 | 5801.01 | Fizikanın tədrisi metodikası |
| 21 | 5801.01 | İngilis tədrisi metodikası |
| 22 | 5801.01 | Riyaziyyatın tədrisi metodikası |
| 23 | 5801.01 | Tarixin tədrisi metodikası |
| 24 | 5801.01 | Azərbaycan tədrisi metodikası |
| 25 | 5801.01 | Ədəbiyyatın tədrisi metodikası |
| 26 | 5801.01 | Kimyanın tədrisi metodikası |
| 27 | 5801.01 | Coğrafiyanın tədrisi metodikası |
| 28 | 5802.01 | Təhsilin təşkili və planlaşdırılması |
| 29 | 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti |
| 30 | 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| 31 | 5805.01 | Korreksiya pedaqogikası |
| 32 | 6104.01 | Pedaqoji psixologiya |
| 33 | 6107.01 | Ümumi psixologiya |

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

ATM-də tədris olunan ixtisasların təhsil proqramlarının əmək bazarına və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyətini müəyyənləşdirən mexanizm mövcud deyildir. Bu istiqamətdə müəyyən müzakirələr aparılmış, MİQ nəticələri araşdırılmışdır. Lakin bundan başqa hər hansı bir sorğu, geniş təhlillər, Universitet Elmi Şurasında müzakirələr aparılmamışdır. Gələcəkdə bu istiqamətdə daha ətraflı araşdırmaların aparılması məqsədəuygundur. Bu prosesdə həm əmək bazarının, həm də işəgötürənlərin iştirakı vacibdir. Əmək bazarının nümayəndələri ilə mütəmadi görüşlərin keçirilməsi, həmin görüşlərin protokollaşdırılması, protokolun nəticələrinin və bütün maraqlı tərəflərin təkliflərinin Elmi Şurada müzakirə olunması tövsiyə olunur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

ATM-də tədris olunan ixtisaslar peşə və kvalifikasiya standartlarına tam uyğundur.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

ATM-in təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli, 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil

üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin tələblərinə uyğundur. Təhsil proqramları AzMKÇ-in VI, VII, VIII səviyyələrinə müvafiq olaraq Avropa Kredit Transferi və Toplanması Sisteminə (AKTTS) uyğun olan kreditlərlə uzlaşdırılmışdır. Təlim nəticələri bilik, bacarıq və müstəqillik/məsuliyyət baxımından AzMKÇ-nin səviyyələri ilə əlaqələndirilərək təsvir edilmişdir.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli F-226 nömrəli əmrlə təsdiq edilmiş "Bakalavriat səviyyəsini (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramının çərçivə sənədi"nə əsasən ADPU-da tədrisi təşkil olunan ayrı-ayrı təhsil proqramlarının və hər fənn üzrə təlim nəticələri, onların əldə olunmasına dəstək verən matris məzmun standartlarına uyğun tərtib edilmişdir. ATM-in təhsil proqramları müxtəlif ixtisas və ixtisaslaşmalar üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğundur.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

ADPU-da təhsil proqramları üzrə Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTS) kreditləri  ixtisasdan asılı olaraq ümumi fənlər 30 kredit, ixtisas fənlərinə (o cümlədən Mülki müdafiə və ilkin tibbi yardım) 120 kredit,  Universitet tərəfindən müəyyən edilən fənlərə 60 kredit, pedaqoji internaturaya 30 kredit ayrılmışdır. Lakin auditor və auditoriyadankənar saatların planlamasında qeyri-auditor saatlar 60%-dən çox olduğu nəzərə çarpmışdır. Bir çox hallarda bu saatlar 66-70% təşkil edir. ATM-də təhsil proqramları üzrə dərs saatları bölgüsu AKTTS-nin prinsiplərinə əsasən uyğundur.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

ATM-də bütün ixtisaslar üzrə tədris planlarında humanitar fənlər və ixtisasın peşə hazırlığı fənlər bölmələri nəzərdə tutulmuşdur.

Humanitar fənn bölümü sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı, ixtisasın peşə hazırlığı fənləri ixtisasa dair standart və qeyri-standart məsələləri həll etmək üçün zəruri bilik, bacarıq və vərdişlərin öyrənilməsini təmin edir.

Bakalavriat səviyyəsində ARTN-i 22.08.2014-cü il tarixli 913 nömrəli əmri ilə təsdiq edilmiş Təhsil Proqramlarında humanitar fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dili və nitq mədəniyyəti" və "Xarici dil" fənləri daxil edilmişdir. ARTN-nin 21.08.2020-ci il tarixli 381 nömrəli əmri ilə təsdiq edilmiş ixtisas fənn bölümünə məcburi fənlər kimi "Azərbaycan tarixi", "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", "Xarici dildə  işgüzar  və akademik  kommunikasiya" fənləri daxil edilmişdir.

Magistratura səviyyəsində ARTN-nin 31.08.2012-ci il tarixli 1463 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramlarında humanitar fənlər bölümünə məcburi fənlər kimi "Xarici dil", "Ali məktəb pedaqogikası" və "Psixologiya" fənləri daxil edilmişdir. ARTN-nin 30.09.2016-cı il tarixli 640 nömrəli və 02.09.2022-ci il tarixli F534 nömrəli əmri ilə təsdiq edilmiş təhsil proqramlarında humanitar fənlər bölümü öz əksini tapmamışdır.

Bütün bunlardan başqa, ARTN-nin müvafiq məktublarına əsasən tədris planlarına 2015-ci ildə bakalavriat səviyyəsinin ixtisaslarına “Multikulturalizmə giriş”, magistratura səviyyəsinə “Azərbaycan multikulturalizmi”, 2016-cı ildə isə “Tədqiqat üsulları” adlı fənlər daxil edilmişdir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

ADPU-da təhsil proqramlarına müvafiq olaraq bakalavriat səviyyəsində auditoriya və auditoriyadankənar saatlar nəzərə alınmaqla həftəlik tədris yükü 45 saatdır. Bakalavriat səviyyəsində həftəlik auditoriya saatların həcmi ümumi həftəlik yükün 50 %-dən çox deyildir. Magistratura təhsil səviyyəsində həftəlik auditoriya saatları 16 saatdan çox deyil. Tədris planlarında məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramlarına uyğun öz əksini tapır.

Seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat həcminin 25-30 %-ni təşkil edir. Həmin fənlər Universitetin müvafiq kafedraları tərəfindən təklif olunur. Qeyd olunanları nəzərə alaraq hesab etmək olar ki, ATM-də həftəlik auditoriya və auditoriyadankənar saatların miqdarı təhsil proqramlarına uyğundur.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələri ictimaiyyət üçün əlçatandır. Müxtəlif istiqamətlər üzrə normativ sənədlər Universitet rəsmi internet saytında yerləşdirilmişdir.

https://adpu.edu.az/index.php/az/t%C9%99dris/telim-neticeleri

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsində işəgötürənlərin iştirakı tam olaraq təmin olunmamışdır. Belə ki, tələbə qəbulu proqnozu hazırlanarkən müəyyən müzakirələr aparılsa da, bu istiqamətdə hər hansı bir fəaliyyət haqqında Komissiyaya məlumat təqdim olunmamışdır.

## *3.3 Tədrisin təşkili*

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

ADPU-da tədris ARNK-nın 24 dekabr 2013-cü il tarixli 348 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb

təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın tələblərinə uyğun olaraq kredit sistemi əsasında təşkil olunur.

ADPU-da ixtisas və ixtisaslaşmalar üzrə tədris ali ixtisas təhsilinin dövlət standartlarına, ali baza təhsil proqramlarına və 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili” Qaydalarının və 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu və təşkili” Qaydalarının tələbləri gözlənilməklə tərtib edilmiş tədris planları əsasında həyata keçirilir.

Hazırda qüvvədə olan tədris planları ali ixtisas təhsilinin dövlət standartlarının tələbləri nəzərə alınmaqla, tədris işinin həcmi kredit vahidləri ilə müəyyən edilmişdir. Tədris planlarında fənlərin vacibliyi, məzmunun mənimsənilməsi ardıcıllığı, prekvezitlik və korekvizitlik gözlənilmişdir. Universitet tərəfindən müəyyən edilən fənlər müasirlik və əmək bazarının tələbləri nəzərə alınmaqla mütəmadi olaraq təkmilləşdirilir.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

ATM-in ixtisas və ixtisaslaşmanın tədris planında göstərilmiş fənlər tədris illəri və semestrlər üzrə bölgünü əks etdirən tədris qrafikləri (Forma 2) mövcuddur. Eyni zamanda müvafiq qrafik Universitetin rəsmi internet saytında yerləşdirilmişdir.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Bu proses ARNK-nın 24 dekabr 2013-cü il tarixli 348 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”, ali ixtisas təhsilinin dövlət standartları və digər təhsil qanunvericiliyi ilə tənzimlənir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 21.08.2020-ci il tarixli 381 saylı qərarı ilə təsdiq olunmuş təhsil proqramlarında əksini tapmış qaydalara əsasən məcburi və seçmə fənlərin bölgüsündə nöqsanlar mövcuddur. Təhsil proqramlarında seçmə fənn blokunun 60 kredit həcmində Universitet tərəfindən müəyyənləşməsi planlaşdırılır. Lakin təhsil proqramlarında seçimin olması xüsusi qeyd olaraq bildirilsə də, 15 tədris planında seçmə fənn blokunda yer alan fənlərdə seçim üçün variant verilməmişdir. Bu hal müxtəlif ixtisaslara aid seçmə fənn blokunda müşahidə olunmuşdur (bəzi hallarda bir, bəzi hallarda isə birdən çox fənnin variantları mövcud deyil). Eyni zamanda bir sıra ixtisasların tədris planlarında seçim variantı olmayan “STEAM” fənində prerekvizitlik də nəzərdə tutulmuşdur. Digər bir aspekt isə ondan ibarətdir ki, ikili ixtisaslarda (kimya – biologiya, tarix-coğrafiya və s.) bəzi hallarda seçmə blokda istiqamətlər arasında da balans pozulmuşdur. Belə ki, buradakı ikili ixtisaslardan birinə seçmə fənn sayında üstünlük (məsələn, kimya-biologiya ixtisasında biologiyaya) verilmişdir.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

ATM-də təhsil proqramları əsasında tərtib olunmuş tədris planlarında ümumi və ixtisas fənlər bloku arasında balans qorunmuşdur.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

ATM-də ümumilikdə fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizminin monitorinqi aparılmamışdır. Bu istiqamətdə hər hansı bir müzakirələrin aparılması barəsində məlumat mövcud deyil. Hər bir ixtisas üzrə proqramın təlim nəticələri yalnız elektron şəkildə (https://adpu.edu.az/index.php/az/t%C9%99dris/telim-neticeleri) göstərilmişdir və sillabuslarda öz əksini tapmamışdır. İxtisas proqramı ilə fənlərin bağlılığını göstərən matris mövcud deyildir.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

ADPU-da bakalavriat və magistratura səviyyələrində fənləri tədris edən müəllimlərin sillabuslarında fənnin təlim nəticələrinin öz əksini tapması Universitet üzrə tam təmin olunmamışdır. ATM-ə sahə səfəri zamanı sənədlərə yerində baxış nəticəsində yeni nəsil sillabuslarda mövcud meyarla bağlı tələblərin ödənilmədiyi müəyyənləşdirilmişdir. Belə ki, kafedraların əksəriyyətində fənn sillabuslarında təlim nəticələri ya ümümiyyətlə mövcud deyil, ya da kiçik qeydlər şəklindədir. Məsələn, Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası, Azərbaycan dilçiliyi kafedraları.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

ADPU-da mövcud ixtisaslar (ixtisaslaşmalar) üzrə tədris planlarında nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü həm bakalavr, həm magistrlara dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir. Belə ki, bakalavriat səviyyəsində tələbənin beş günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdan, magistratura səviyyəsində dörd günlük iş rejimində həftəlik auditoriya 16 saatdan çox deyildir. Bakalavriat və magistratura səviyyələrində mövcud tədris planlarında semestrlər üzrə nəzərdə tutulmuş fənlərin sayı yeddini keçmir. Semestr üzrə bakalavriat səviyyəsində auditoriya saatı 330 saat, həftəlik auditoriya saatı 22 saatdır. Magistratura səviyyəsində 225 saat, həftəlik auditoriya saatı 15 saatdır. Bu da tələbə və magistrantlara dərsdənkənar məşğələlərə vaxt ayırmasına şərait yaradır.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

ATM-də tələbələrin tədris ili ərzində təhsil alacağı fənlər, onların kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən Fərdi Tədris Planları (FTP) (Forma 4) aidiyyatı üzrə fakültələrdə mövcuddur. Lakin ATM-ə sahə səfəri zamanı sənədlərə baxış nəticəsində müəyyən çatışmazlıqlar nəzərə çarpmışdır. Belə ki, tədris ili üzrə semestrlərin qeydi səhv aparılmışdır. Bütün tədris illəri üzrə yalnız 1-2 semestr olaraq göstərilmişdir (3-4-5-6-7-8 əvəzinə). FTP-lərin sonunda "Şöbə müdiri" qeydi mövcuddur, lakin əksər hallarda müvafiq şəxs tərəfindən sənəd imzalanmamışdır. Bəzi hallarda fərdi tədris planlarında tələbənin imzası (MTT fakültəsi) yoxdur. Tələbələrin FTP-ində tədris illəri üzrə qovluqlarda yerləşdirilmə aparıldığından bir tələbənin təhsil aldığı normativ müddətdə hər bir tədris ili üzrə ardıcıl müşahidə olunmasında problem yaranır.

**3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

ATM-də ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planları (Forma 3) baxış keçirilən fakültələrdə mövcuddur, tədris planlarına müvafiq hazırlanmış və kredit sisteminin tələblərinə uyğundur.

**3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

ATM-də müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə, həmçinin laborator məşğələlərə ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisin, fənn üzrə tələbələrin sayını əks etdirən müəllimin illik işçi tədris planları mövcuddur.

**3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi qənaətbəxşdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 21.08.2020-ci il tarixli 381 saylı qərarı lə təsdiq olunmuş təhsil proqramlarında əksini tapmış fənlərə və onlara ayrılmış kreditlərə uyğun olaraq saatların bölgüsü aparılmış, tədris növləri üzrə xüsusiyyətlər nəzərə alınaraq tədris təşkil olunmuşdur. Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti tədris planlarına uyğun şəkildə təşkil edilir. Müəllimlərin dərslərinin vaxtaşırı monitorinqi (fakültə dekanı və kafedra müdirləri tərəfindən) həyata keçirilir və müzakirə olunur.

**3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti**

Məsləhət xidmətinin təşkili vəziyyəti dedikdə əsasən akademik məsləhətçilərin (tyutor) işinin təşkili nəzərdə tutulur. Bütün fakültələrdə (Riyaziyyat fakültəsi istisna olmaqla)

tyutorların iş planı mövcuddur. Onların tədrisin təşkili prosesində iştirakları müşahidə olunur. ATM-ə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər (tyutorlar) cəlb olunur. Tyutor xidmətinin səmərəliliyinin artırılması məqsədilə Universitetdə tyutor kursları təşkil edilir və kursları müvəffəqiyyətlə bitirənlər içərisindən müsabiqə yolu ilə tyutorlar seçilərək işə qəbul olunurlar.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

ADPU-da müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanması prosesi həyata keçirilir. Lakin bu proses bir qədər formal xarakter daşıyır. Belə ki, ATM-ə sahə səfəri zamanı baxış keçirilən kafedralarda sərbəst işlərin birbaşa internet resurslarından tam köçürülüb təhvil verilməsi müşahidə olunmuşdur.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ATM- də ixtisas spesifikası nəzərə alınmaqla iki istiqamətdə pedaqoji və istehsalat təcrübəsi təşkil olunur. Təcrübənin təşkili işini və bu istiqamətdə sənədləşməni qənaətbəxş hesab etmək olar. ATM-də ixtisas spesifikası nəzərə alınmaqla Tədris departamenti tərəfindən iki istiqamətdə pedaqoji və istehsalat təcrübəsi təşkil olunur. Tədris planlarına uyğun olaraq bakalavriatura səviyyəsində pedaqoji təcrübəyə 21 kredit ayrılmışdır və ümumilikdə 14 həftəni əhatə edir. Təcrübə müəssisələri olaraq ARETN-nin və Regional Təhsil İdarələrinin tabeliyində olan ümumtəhsil və məktəbəqədər, özəl təhsil müəssisələrində, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyində, Gənclər və İdman Nazirliyində, Sosial Xidmət Agentliyində, Qeyri-hökümət təşkilatları iştirak edir ki, bu müəssisələrlə ikitərəfli bağlanmış müqaviləyə əsasən istehsalat təcrübələri təşkil olunur. Həmçinin çöl təcrübələri Abşeron, Xızı və Şirvan Milli parklarında, Xıllı nərə balıq artırma zavodunda, Neftçala Yod – Bron və Sənaye məhəlləsinin zavodlarında təşkil edilir.

ATM-də magistratura səviyyəsində təhsil alanlar isə pedaqoji və elmi-tədqiqat təcrübələrini Universitetin müvafiq kafedralarında və struktur bölmələrində keçirirlər. Ümumilikdə, təhsilalanlar 150-dən çox müəssisələrdə təcrübə keçirlər. Beləliklə, təcrübənin təşkili işini, sənədləşməsini qənaətbəxş hesab etmək olar.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

ATM tərəfindən Komissiyaya stajkeçmə ilə əlaqədar yalnız Təlim-tədris mərkəzinin təlimləri haqqında hesabat təqdim olunmuşdur. Bu isə stajkeçmə deyil, təlimlərin təşkili indikatorunda qiymətləndirilmişdir.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

ATM-də ixtisas spesifikası və profili nəzərə alınmaqla kurs işi, kurs layihələrinin və referatların hazırlanması təhsil proqramlarında nəzərdə tutulmamışdır. 2019/2020-ci tədris ilində tədris planlarının məzmununda təkmilləşdirmə aparılması, əvvəlki illərdə yerinə yetirilmiş kurs işlərinin ekspertizası nəticəsində aşkar olunan kobud nöqsanlar, o cümlədən kurs işlərinin yerinə yetirilməsinə ciddi yanaşılmaması, habelə kurs işlərinə ayrılan saatlar hesabına kafedralarda yaranan tədris yüklərinin onların mövcud imkanlarından daha çox artırmasına səbəb olması və s. əlaqədar olaraq hazırda ADPU-da kurs layihəsinin (işi) hazırlanması məqsədəuyğun hesab edilməmişdir. Göstərilənləri nəzərə alaraq, bu bənddə qiymətləndirmə aparılması məqsədəuyğun deyildir.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ATM-də buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Yekun Dövlət Attestasiyanın (YDA) təşkili NK-nın 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın və ARTN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə”nin, Universitet EŞ-nin 30.10.2019-cu il tarixli iclasının Qərarı ilə (protokol № 2) təsdiq edilmiş “Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavriat səviyyəsində dövlət attestasiyası haqqında Qaydalar”ın tələbləri çərçivəsində həyata keçirilir. Tələbələrin dövlət attestasiyası istiqamət (ixtisas) üzrə fənlərin buraxılış (yazılı qaydada) yekun dövlət imtahanı və buraxılış işinin müdafiəsi formada təşkil ounur.

Buraxılış işi kafedralar tərəfindən müəyyənləşdirilmiş və müvafiq fakültə EŞ-də təsdiq edilmiş mövzular əsasında yerinə yetirilir. Tələbəyə mövzu seçmək, eləcə də işlənməsinin məqsədəuyğunluğu və əhəmiyyəti əsaslandırılmış mövzular təklif etmək hüququ verilir. Buraxılış işinin yerinə yetirilməsi üçün hər bir tələbəyə rəhbər və zəruri hallarda əlavə məsləhətçi təyin edilir. Buraxılış işlərində antiplagiat proqramı vasitəsi ilə plagiatlıq yoxlanılır.

Magistratura təhsil səviyyəsində NK-nın 20.04.1998-ci il tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”nin tələbləri nəzərə alınmaqla magistrlik dissertasiyasının müdafiəsi təşkil edilir.

Pandemiya dövrünün tələblərinə uyğun olaraq 2021-ci ildə YDA-sı “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” NK-nın 05 iyun 2021-ci il tarixli 158 №-li Qərarına və “2020/2021-ci tədris ilinin yaz semestrində ADPU-da imtahan sessiyasının və yekun dövlət attestasiyasının təşkilinə dair müvəqqəti Qaydalar”a əsasən bakalavriatura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunublar. Təhsil

müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) onlayn formada ADPU EŞ-nin 30 oktyabr 2019-cu il tarixli iclasının qərarı ilə (protokol № 2) təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydalar"a əsasən iştirak ediblər. Buraxılış işi yazmaq hüququ əldə etmiş tələbələr, arzu edərsə, buraxılış işini yazmaqdan buraxılış işinin müdafəsi keçiriləndək yazılı müraciət əsasında imtina edərək ÜOMG-yə əsasən məzun ola bilmişdirlər.

ATM-də müxtəlif ixtisas istiqamətlərində buraxılış işi və magistr dissertasiyaları yerinə yetirilmişdir. Həm buraxılış işlərinin, həm də magistr dissertasiyalarının mövzularının yenilənməsinə və elmi-tədqiqat işlərinin tərtibatı zamanı qaydalara diqqətli yanaşmaya ehtiyac vardır. Belə ki, bir sıra işlərdə tədqiqat işinin strukturu, fəsil və yarımfəsillərin tərtibatında, səhifələrdə, sətirlərin sayında, ədəbiyyat siyahısında problemlər nəzərə çarpmışdır.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

ATM-də imtahan sessiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq məktubunda göstərilmiş qaydalara uyğun olaraq təşkil olunmuşdur. Proseslə bağlı aidiyyatı sənədləşmə və təşkilati işlər aparılmışdır. Belə ki, imtahanların keçirilmə qaydaları və formaları normativ hüquqi aktların tələblərinə uyğun (ARTN-nin 11.09.2008-ci il tarixli 1060 saylı əmri təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi" haqqında Əsasnamə) və 25.12.2018-ci il tarixində təsdiq edilmiş "ADPU-da imtahan sessiyasının təşkili və keçirilməsi Qadaları"nın tələblərinə əsasən təşkil olunur. Təhsilalanların mənimsənilmə səviyyəsi və keyfiyyəti müvafiq qaydalar əsasında cari, aralıq və dövlət attestasiyası zamanı müəyyənləşdirilir və biliyinin qiymətləndirilməsi AKTTS-nə uyğun olaraq 100 ballı sistemlə həyata keçirilir. İmtahanlar əsasən test üsulu, yazılı və şifahi formada aparılır. Yarana biləcək narazılıqların həll edilməsi məqsədilə sessiya müddətində Apellyasiya Komissiyası və ADPU-nun rektorunun əmri ilə yaradılan İmtahan Qərargahı fəaliyyət göstərir. İmtahan prosesində şəfaflığın və ictimai etimadın gücləndirilməsi məqsədilə rektorun əmri əsasında ictimaiyyət nümayəndələrindən ibarət İctimai Şura yaradılıb.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

ATM-də yay semestri müvafiq qaydalara uyğun olaraq təşkil olunmuşdur. Proseslə bağlı aidiyyatı sənədləşmə və təşkilati işlər aparılmışdır. ARNK-nın 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" qaydalarının" 3.4. Yay semestrinin təşkili" bölməsinin tələblərinə uyğun olaraq hər tədris ilinin sonunda (bir qayda olaraq, iyul-avqust aylarında) 6 həftədən ibarət yay semestri təşkil edilir. Yay semestrində cari və əvvəlki semestrlərdən akademik kredit borcu olan və müvəffəqiyyət qazanılan fəndən qiymətini yüksəldilməsi məqsədilə tələbələr üçün könüllülük prinsipi və ödənişli əsaslarla müstəqil

qruplar yaradılır. Qeyd edək ki, yay semestrində tələbələrin akademik mobilliyi təmin olunaraq digər ali təhsil müəssisələrinin tələbələri də iştirak edirlər.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

ATM-in təqdim etdiyi hesabatda göründüyü kimi kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası stabildir.







### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası barədə təqdim olunmuş hesabatda 2020-2021-ci tədris ilində bu statistikada azalma müşahidə olunur. Ümumilikdə, dinamika stabildir.







### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənməsi və təkmilləşdirilməsi vəziyyətinin öyrənilməsi ilə əlaqədar ATM tərəfindən hər hansı bir monitorinq həyata keçirilməmişdir. Fəaliyyət yalnız açıq dərslərin müzakirəsi səviyyəsində aparılmışdır. Yeni hesabat dövrü ərzində yalnız bir dəfə tələbə məmnunluğu barədə sorğu keçirilmişdir.

## *3.4 Tədris metodları və üsulları*

### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ATM-ə sahə səfəri zamanı iştirak edilən dərslərin əksəriyyətində innovativ, yaradıcı və interaktiv metod (sorğu (sual-cavab) formasından istifadə, mövzular üzrə təqdimatların hazırlandığı, həm müəllim, həm də tələbələrin təlim prosesində iştirakı, qruplarla iş və.s.) və texnologiyalardan istifadə edilir. Məşğələlərdə yazılı tapşırıqlar, sorğular, açıq mühazirə metodlarının tətbiq edildiyi müşahidə edilmişdi. ATM-in bəzi auditoriyalarında texnoloji

avadanlıqların olmamasına baxmayaraq, müəllimlər şəxsi kompüterləri vasitəsi ilə dərsləri daha interaktiv etməyə çalışırlar.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Tələbələrin innovativ və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirmək, mövzuların analiz və sintez edilməsi ilə müstəqil fikir bildirmə bacarıqlarını inkişaf etdirmək məqsədi ilə düzgün tədris metodlarının seçilməsi olduqca vacib amillərdəndir. ATM-də sahə səfəri zamanı müşahidə edilən, baxış keçirilən bəzi dərslərdə tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyətini qənaətbəxş hesab etmək olar. Məsələn, ingilis dili dərslərində müəllimlər tələbələrin dinləmə bacarığını inkişaf etdirmək məqsədi ilə ATM-in texniki avadanlıqları ilə yanaşı, fərdi səs gücləndiricilərdən də istifadə edirlər.

Buna baxmayaraq, sahə səfəri zamanı Psixologiya ixtisası üzrə təhsil alan bir qrup tələbələr ixtisayönümlü dərslərin daha çox praktiki keçilməsinin tərəfdarı olduqlarını və dərslərin bu istiqamətdə təşkil edilməsini istədiklərini bildirdilər.

ATM-in tədris prosesində bu istiqamətdə müəllimlərə dəstəyinin artırılması və rəqəmsal texnologiyaların tədris və təlim üçün potensial faydalarından tam istifadə edilməsinə şərait yaradılması tövsiyə olunur.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında da qeyd etdiyi kimi tədris metodlarının təhsil formalarıının (formal, qeyri-formal, informal) hər birindən eyni intensivliklə istifadə edilməsinin səmərəli olduğu düşünülmür. Müəllimlərlə müsahibə zamanı məlum oldu ki, bəzən sərbəst işləri distant formada qəbul edirlər.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Öyrənmə, maraqlanma, motivasiya olunma təlim prosesinin məhsuldarlığını müəyyən edən amillər arasında aparıcı yer tutur. Motivasiya olunma təlim prosesinin başlıca hərəkətverici qüvvəsidir. ATM-də bu vəziyyəti qənaətbəxş hesab etmək olar. Buna baxmayaraq tədris zamanı butün Universitet üzrə bu meyarı eyni qiymətləndirmək olmaz. Belə ki, Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi buna ATM-də tədris olunan bütün fənlərdə tətbiq edilməsinə tam nail olunmamışdır. Bu istiqamətdə müəllimlər arasında dərslərin təşkilinə dair praktik seminarların təşkil olunması, daha təcrübəli müəllimlər “Ustad dərsləri” təşkil edilməsi, bu istiqamətdə “Tədris prosesində təlim metodlarının tətbiqinə dair metodiki tövsiyələr”in hazırlanması tövsiyə olunur.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

ATM-də sahə səfəri zamanı müşahidə edilən, baxış keçirilən bəzi dərslərdə müəllimlər tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodları və üsulları tətbiq edirdi. Müəllimlər diskussiya, qrup işləri, sual-cavab metodlarından istifadə edirdilər. Bu baxımından tədris metod və üsullarının tətbiqi vəziyyətini qənaətbaxş hesab etmək olar.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Aktiv öyrənməni təşviq edən texnoloji imkanların vəziyyətini kafi hesab etmək olar. Belə ki, ATM-də texnoloji imkanlar zəifdir, bəzi auditoriyalar texnoloji avadanlıqlarla təchiz olunmamış və ya təchiz olunan otaqlarda işıqlandırılma zəifdir. Bu da təlim-tədris prosesinin müasir metodlarla təşkilinə təsirini göstərir.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

ATM-ə sahə səfəri zamanı iştirak edilən dərslərin bəzilərində yeni təlim və tədris metodlarından istifadə olunaraq dərslərin interaktiv keçirildiyi müşahidə edildi. Müəllimlərin interaktiv öyrənməyə təşviq etməsinə baxmayaraq, bəzi tələbələrin dərslərdə fəallıq göstəriciləri zəifdir.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monotinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

ADPU-nun Özünütəhlil Hesabatında qeyd edildiyi kimi tədris metod və üsullarınının qiymətləndirilməsi və monitorinqi üçün sorğular aparılır qeyd olunsa da, lakin ATM-də sahə səfəri zamanı bu sorğuları təsdiq edəcək sənəd təqdim edilməmişdir. Buna baxmayaraq, müəllimlər (İnklüziv təhsil kafedrası, Ümumi Psixologiya və s. ) tədris metod və üsullarını təkmilləşdirmək üçün öz təşəbbüsləri və ATM-in təşkil etdiyi təlimlərdə mütəmadi olaraq iştirak edir, tədris metod və üsullarını təkmilləşdirirlər.

## *3.5 Təlim və tədris resursları*

### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi tətbiq olunmamışdır. ATM tədrisin elektron idarə edilməsi sistemi kimi "Moodle" platformasından istifadə edir, ancaq istifadə miqyası müəllim kabinetlərinin yaradılması, tədris materiallarının kabinetlərə yerləşdirilməsi və tələbələrin bu sistemə əlçatanlığının təmin olunması ilə məhdudlaşır.

### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

ATM-də müasir təlim prosesini aparmaq üçün proyektor, interaktiv lövhə, kompüterlə təmin olunmuş tədris otaqları mövcud olsa da, təlimlərin keçirilməsi üçün xüsusi auditoriyalar ayrılmayıb. Texnikalar quraşdırılmış auditoriyalar təlimlərlə birlikdə tədris prosesi üçün də istifadə olunur. ATM-də müasir təlim prosesini aparmaq üçün internetə çıxışı olan ümumi 120 kompüterlə təchiz olunmuş 10 kompüter laboratoriyası, 42 interaktiv lövhə və 62 proyektorla təchiz olunmuş auditoriya fondu mövcuddur.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

ATM-də tələbələrin təlim prosesində iştirakını və aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və elektron jurnal mövcud deyil.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərdən "Moodle" tədrisin elektron idarəetmə sistemi tətbiq olunub, ancaq sistemin bütün imkanlarından istifadə olunmur, texniki təminatın təhsil proqramlarına uyğunluğuna gəldikdə isə bütün auditoriyaların interaktiv lövhələrlə, proyektorlarla təmin edilməsi hədəf kimi göstərilsə də, avadanlıqlarla təmin olunmuş auditoriya sayı ümumi auditoriya sayına nisbətdə çox aşağıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazasına, axtarış sistemlərinə çıxışı təmin edilsə də, elektron kitabxanalara çıxışı təmin edilməyib.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də internetə çıxışı olan 573 kompüter və ümumi 120 kompüterdən ibarət 10 kompüter laboratoriyası istifadəyə yararlı vəziyyətdədir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

ATM-in beş tədris korpusunda 87 mühazirə, 131 məşğələ, 50 tədris laboratoriyaları olmaqla, cəmi 268 auditoriya mövcuddur. Auditoriyalar tədris istiqamətinə görə 55-75 nəfərlik (mühazirə auditoriyaları), 25-30 nəfərlik (məşğələ auditoriyaları), 13-15 nəfərlik (laboratoriya otaqları) auditoriyalar mövcuddur. ATM-in ümumi auditoriya fondu 13647.9 kv.m., ümumi tələbə sayı 11049 nəfərdir. Bakalavriat səviyyəsi, əyani təhsilalma forması üzrə dərslər 2 növbədə təşkil edilir. Magistratura səviyyəsi üzrə isə dərslər axşam saatlarında aparılır. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu təmin edilir.

**3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası**

ATM-də akademik heyətin fəaliyyəti üçün 1.733,45 kv.m. sahəsi olan 48 otaq, inzibati heyətin fəaliyyəti üçün 5580.12 kv.m. sahəsi olan 148 otaqla təmin edilmişdir.

**3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası**

ATM-də hal-hazırda kitabxana bazasının genişləndirilməsi və elektron kitabxananın təkmilləşdirilməsi ilə əlaqədar işlər aparılmaqdadır. Kitabxananın bir hissəsi təmir olunmuş, oxu zalı genişləndirilərək və təmir olunaraq tələbələrin istifadəsinə verilmiş, müasir elektron avadanlıqla təchiz olunmuşdur. Kitabların çiplənməsi, oğurluq əleyhinə sistemin qurulması ilə əlaqədar avadanlıqlar alınsa da, hələ istifadəyə hazır vəziyyətə gətirilməsi üzrə işlər aparılmaqdadır. https://e-library.adpu.edu.az/

| Tədris korpusunun adı | Kitabxana otaqlarının sayı | Ölçüsü ($m^2$) | İşçi heyətin sayı | Oxu zalında yerlərin sayı | Funksionallığı |
|---|---|---|---|---|---|
| 1.Səbail (əsas) tədris korpusu | 21 | 2441.1 | 18 | 218 | Tam yararlı |
| 2.Gənclik tədris korpusu | 3 | 211 | 2 | 46 | Tam yararlı |
| 3.Nəsimi tədris korpusu | 3 | 74 | 1 | 0 | Tam yararlı |
| 4.Təbriz tədris korpusu | 2 | 71.4 | 1 | 24 | Tam yararlı |
| 5. ARTİ-nin Təhsil Texnologiyaları Mərkəzi | 1 | 170 | 1 | 27 | Tam yararlı |
| **CƏMİ** | **30** | **2967.5** | **23** | **315** | |

**3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası**

ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin artım dinamikası müşahidə olunsa da, göstəricilər ümumi kitab fonduna nisbətən aşağı olması ilə görünür.




### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Tədris dillərinə uyğun ingilis, türk, rus və digər xarici dillərdə kitab fondu təhsilalanların istifadəsinə verilmişdir. Baxmayaraq ki, 2021-ci ildə müxtəlif xarici dillərdə böyük həcmdə dərs vəsaiti kitabxanaya daxil olmuşdur, tədris dillərinə uyğun kitab fondunun illər üzrə artım dinamikasının davamlılığı müşahidə olunmamışdır.




| | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| ingilis dilində | 90 | 435 | 5 | 2759 | 23 |
| türk dilində | 1 | 46 | 0 | 4 | 140 |
| rus dilində | 397 | 518 | 13 | 107 | 184 |
| digər dillərdə | 44 | 18 | 4 | 65 | 3 |

**3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası**

Universitet təhsil və elmi-tədqiqat sahəsində dünyanın nüfuzlu elmi jurnal və konfrans materialları ilə tanış olmaq məqsədi ilə “Tomson Reuters”, “Clarivate Analytics” şirkətləri ilə əməkdaşlıq edir. ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində artım dinamikası müşahidə olunmuşdur (2020-ci il istisna olmaqla). 2018-ci il 60000 azn, 2019-cu il 200000 azn, 2020-ci il 0 azn, 2021-ci il 150000 azn, 2022-ci il 160000 azn.




**3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti**

Tərtib edilmiş tədris vəsaitləri kafedra iclaslarında, fakültə TMŞ-də, fakültə EŞ-də, Universitet TMŞ-də və EŞ-də müzakirə edilir. Təhsil proqramlarında müəyyən edimiş fənlərin

proqramlarına və dərsliklərinə nəşr hüququ (qrif) əldə etmək üçün ARETN-ə məktubla müraciət olunur. Fənn proqramlarının və fənn sillabuslarının təsviri, təlim nəticələri müasir dövrün tələblərinə, təhsilalanların ümumi və peşə kompetensiyalarına yiyələnmələrinə imkan yaradır. ATM-in Özünütəhlil Hesabatında qeyd edildiyi kimi Universitet TMŞ və fakültə TMŞ-lərinin iclaslarında təlim və tədris resurslarının mövcudluğu və yenilənməsi ilə bağlı məsələlər mütəmadi olaraq müzakirə olunur. Kafedralarda fənn komissiyalarının yaradılmasını, təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin həmin komissiyaların əsas istiqaməti olması məqsədəuyğun hesab edilir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Fənn üzrə sillabusların təhlili təlim və tədris resurslarının keyfiyyət baxımından əsasən uyğunluğunu, təlim və tədris resurslarının kitabxanalarda həm nəşr, həm də elektron formada yerləşdirilməsi, eləcə də təhsilverənlər tərəfindən tələbələrin korporativ emaillərinə göndərilməsi onların təhsilalanlar üçün əlçatan olduğunu deməyə əsas verir. Təlim və tədris resurslarının əlçatanlığını təmin etmək məqsədi ilə “Moodle” sisteminə tədris materialları yerləşdirilir. Bundan başqa təhsilalanlar elektron resursları əldə etmək üçün Universitetin veb səhifəsinə daxil olub e-kitabxananın xidmətlərindən istifadə edərək dərsliklər, metodik nəşrlər, tezis və dissertasiyalar, elmi jurnallardan məqalələr, konfrans materialları, Universitetin tarixinə dair məruzələr və digər materiallar əldə edə bilirlər. https://e-library.adpu.edu.az/

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

ATM-də Regional İnkişaf İctimai Birliyinin maliyyələşdirdiyi İnklüziv təhsil mərkəzi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud şəxslər təhsil almır və sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resursları mövcud deyil.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Kitabxananın yenilənməsi, fakültə və kafedralardan daxil olan sorğular əsasında yeni vəsaitlərin alınması, tədris resurslarının artımı, eləcə də təlim və tədris resurslarınn kafedralarda məzmunlarının müzakirə olunaraq təkmilləşdirilməsi həyata keçirilir. Davamlı olaraq təlim və tədris resurslarının məzmun baxımından müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verməsi, məzmununda əsaslı dəyişiklik tələb olunan təlim və tədris resurslarının yenidən işlənib hazırlanması üçün, Universitet TMŞ-də müzakirələr aparılır. Kitabxanada yenilənmiş tədris resursları artırılmışdır, auditoriyaların bir hissəsi müasir tələblərə cavab verən kompüterlər, ağıllı lövhələr, proyektorlar və s. müvafiq avadanlıqlarla təmin edilmişdir.

### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

ADPU-da tələbələrin asudə vaxtının səmərəli təşkili, tələbələr arasında maarifləndirmə işinin aparılması, təhsilə marağın artırılması, tələbələrin hüquqlarının təmin edilməsi, ölkə daxilində və xaricində keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi, Universitet daxilində tələbələrin könüllülük fəaliyyətini genişləndirmək məqsədilə Tələbə Gənclər Təşkilatı (TGT), Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), Təhsil Könüllüləri Tələbə Birliyi (TKTB), ADPU Könüllüləri Təşkilatı (ADPU KT), Meh Ədəbi Dərnəyi (MƏD), ADPU Türk Öğrenci Yönetim Konseyi və idman klubları mövcuddur. Universitetdə bu qurumların fəaliyyəti üçün bütün zəruri avadanlıqlarla təchiz edilmiş otaqlar ayrılmışdır.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

Universitetin dörd tədris korpusunda təhsilalanların psixoloji vəziyyətini, təhsil fəaliyyətini, sosial-mənəvi problemlərini öyrənmək və onlara psixoloji dəstəyin göstərilməsi, onların proqressiv psixi inkişafını, meyil, maraq və potensialının reallaşdırılması, habelə mümkün psixi pozuntuların profilaktikasını təmin etmək məqsədilə psixoloji məsləhət xidmətləri təşkil edilmişdir. Hər tədris binası üzrə əvvəlcədən müəyyənləşdirilmiş və tələbələrlə paylaşılan iş qrafikinə əsasən psixoloji məsləhətçilər fəaliyyət göstərir.

## *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

ATM-də bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar mövcuddur. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi ARTN-nin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmrlə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"nin tələblərinə, "ADPU-da bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında Qaydaları"na uyğun prosedur qaydalarla tənzimlənir. Bu qiymətləndirilmə qaydaları və prosedurların həyata keçirilməsi proseslərinə dair hazırlıq məsələləri Universitet Elmi Şuralarında müzakirə olunmuş və müvafiq sənədləşmə aparılmışdır. Bu müzakirələr proseslərdən əvvəl və nəticələr əldə olunduqdan sonra da aparılır.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ATM-də qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olmasının müəyyənləşməsi istiqamətində heç bir mexanizm nəzərdə tutulmamış və bu istiqamətdə hər hansı bir monitorinq aparılmamışdır. Qeyd olunan məsələ ilə bağlı müvafiq təsdiqedici sənəd təqdim olunmamışdır. Yalnız keçirilmiş yaz və payız sessiyalarının hazırlıq və nəticələrinin müzakirəsi fakültə və Universitet Elmi Şura iclaslarında aparılmışdır.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalardan, (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

Qiymətləndirmənin müxtəlif formalarından, metod və vasitələrdən istifadədə çox cüzi fərqlilik nəzərə çarpır. Yalnız spesifik fənlərin (dil spektri olan fənlərdə) qiymətləndirilməsi prosesinin təşkili üz-üzə aparılmışdır. Tədris departamentinin rəhbəri tərəfindən sifahi olaraq bildirildi ki, bu istiqamətdə sənədləşmə aparılmamışdır. ATM-də digər bütün hallarda ənənəvi metodlarla qiymətləndirilmə aparılır.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Qiymətləndirmənin ədalətliliyinin, obyektivliliyinin dəyərləndirilməsi, şəffaflığının təmin olunması üçün və qiymətin əsaslandırılması istiqamətində aparılan iş haqqında məlumat və sənəd təqdim olunmadı. Həmçinin, bu istiqamətdə prosesləri tənzimləyən monitorinq yaxud müzakirələr haqqında məlumat verilməmişdir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmaq amillərinin nəzərə alınması istiqamətində işi qənaətbəxş hesab etmək olar. Dərslərdə təqdim olunan materialların və tapşırıqların yerinə yetirilməsi prosesində, elmi-metodiki işin qurulmasında sərbəst öyrənməyə təşviq olunmasına diqqət ayrılmışdır.

Tələbələrdə özünüqiymətləndirmə bacarığının formalaşdırılması məqsədilə, xüsusilə seminar məşğələlərində dərs boyu tələbənin öz fəaliyyətini müşahidəsi əsasında dərsin sonunda özünü qiymətləndirilməsinə (özünüqiymətləndirmə meyarlarına əsasən hazırlanmış sorğu) müəyyən vaxtın ayrılması və sorğunu cavablandırmaqla bu bacarığın formalaşdırılmasının təmin edilməsi tövsiyə olunur.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyətinin yaxşılaşdırmasına ciddi ehtiyac vardır. Belə ki, yeni təlim metodlarının tətbiqinə, tədrisin keyfiyyətinin artırılmasına və nəticəyönümlü tədrisin təşkilinə nail olmaq üçün İKT-nin nailiyyətlərinin inteqrasiyası müsbət nəticə verə bilər.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Sağlamlıq imkanları məhdud şəxslər üçün xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyətində də sənədləşməyə ehtiyac vardır. Belə ki, Tədris departamentinin rəhbəri tərəfindən şifahi olaraq bildirildi ki, belə hallara çox az təsadüf olunmuşdur, lakin müvafiq sənədləşmə aparılmamışdır. Məsələ ilə əlaqədar heç bir sənəd təqdim olunmamışdır

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Fənlərin xüsusiyyətlərini nəzərə alınmaqla cari və aralıq qiymətləndirilmələrin şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipi ilə təşkili işində nöqsanlar nəzərə çarpmışdır. Məsələn, bir çox hallarda kollokviumlar dərsdən əlavə vaxtda keçirilmişdir. Yaxud dərsdən əlavə vaxtda keçirilmiş kollokvium və kollokviumla eyni tarixdə keçirilmiş məşğələdə tələbə biliyi qiymətləndirilmişdir ki, bu da bir tarix üzrə ikili qiymətləndirmə aparılması və 10 baldan artıq qiymətləndirmə olması deməkdir. Kimya-biologiya fakültəsində isə bir sıra fənlərin tədrisi zamanı kollokvium ümumiyyətlə keçirilməmişdir. Əksər hallarda cari qiymətləndirmə zamanı qiymətləndirmə cədvəllərinin son variantında müəllim imzaları yoxdur. İmtahanda tələbələrin qiymətləndirmə ilə bağlı şikayətlərin sənədləşməsi zamanı, fakültələrdə təqdim olunmuş protokolların nüsxələrində münaqişə komissiya üzvlərinin təsdiqedici imzası yoxdur.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

Yekun Dövlət Qiymətləndirilməsinin təşkili üzrə tənzimləyici hüquqi sənədlər qaydasındadır. Belə ki, "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş qaydalar əsasında təşkil olunur. Bakalavriat və magistratura səviyyəsində yekun dövlət imtahanı, buraxılış işi, dissertasiya işlərinin müdafiəsinin təşkili "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında Əsasnamə" və "Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə" lərin qaydalarına uyğun təşkil olunur.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ATM-də bilik və bacarıqların qiymətləndirilməsi sistemi qurulmuşdur. Proseslərin təşkili, izlənməsi və nəticələrdən sonrakı vəziyyətinin müzakirəsi Universitetin Elmi Şura iclaslarında keçirilmişdir. Fakültələr və ümumuniversitet olaraq nəticələr təhlil olunmuş, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim olunan hesabatlarda əksini tapmışdır.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

ATM-də təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada tələbələrə izah edildiyi müşahidə olundu. Bunlar ATM-in daxili qaydalarına əsasən nizamlanır və tələbələr üçün informasiya bazasının əlçatanlılığı təmin edilir. Universitetin rəsmi internet saytında ixtisaslar üzrə normativ sənədlər yerləşdirilmişdir ki, bu da müsbət haldır.

https://adpu.edu.az/index.php/az/universitet/normativ-aktlar

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

ADPU-da təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədlərinin verilməsi işi ARNK-nın 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"na əsasən həyata keçirilir. Buraxılış yekun dövlət attestasiyası və magistrlik işinin müdafiəsi keçirildikdən sonra dövlət attestasiya komissiyaları və ixtisaslaşmış Elmi Şuraların qərarları əsasında məzunlar barədə zəruri məlumatlar ARETN-nin dövlət təhsil sənədləri elektron sisteminə (www.dts.edu.az portalı) daxil edilir. Nazirlikdən təhvil alınan diplom və əlavələri müvafiq qaydalara uyğun hazırlanır və məzunlara təqdim edilir. ATM-ə səfər zamanı təqdim olunan arayış nümunələrinə və sənədlərlə tanışlıq zamanı fəaliyyətin qanunvericiliyin tələblərinə uyğun aparılması müşahidə olunmuşdur.

## *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

ADPU-da akademik və inzibati heyətlə əmək müqavilələrinin bağlanılması və xitam verilməsi mövcud qanunvericiliyə, AR Əmək Məcəlləsinin tələblərinə, ARTN-nin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na, 1996-cı il 7 avqust tarixli 401 nömrəli əmrinə Əlavə 1 – "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə və ADPU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir.

ADPU-da yüksək ixtisaslı kadr potensialının təmin edilməsi, ixtisaslı mütəxəssislərin cəlb edilməsi, o cümlədən vakant vəzifələr üzrə müsabiqələrin təşkili və keçirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədilə komissiya fəaliyyət göstərir (ADPU rektorunun 16.05.2022-ci il tarixində 05/97-k nömrəli əmri ilə "ADPU-da idarəetmə strukturunun optimallaşdırılması və insan resurslarının idarə olunmasında obyektivliyin və şəffaflığın təmin edilməsi üçün komissiyanın yaradılması" barədə müvafiq əmri). Belə nəticəyə gəlmək olar ki, akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifələrə təyinat mexanizmi mövcuddur. Burada işin şəffaf

və qaydalara uyğun aparılması məqsədilə müvafiq fəaliyyət aparılmışdır. Eyni zamanda bu qaydaların akademik heyət üçün əlçatan olması təmin olunmuşdur.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

ATM-də təlim-tədris mərkəzi tərəfindən istiqamətin müəyyənləşməsi məqsədilə müxtəlif sorğular keçirilmiş, sorğu nəticəsində təlim mövzuları müəyyənləşmişdir. Akademik heyətin bir qismi təşkil olunan bu sorğu və təlimlərdə iştirak etmişdir. Lakin təqdim olunmuş sənədlərdən göründüyü kimi, təlimlərdə iştirak edən əməkdaşlar say olaraq azlıq təşkil edir. Filologiya fakültəsi istisna olmaqla, digər fakültələrin təlimdə iştirak edən əməkdaşlarının sayı azdır.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Akademik heyətə interaktiv və aktiv tədris metodlarları, distant tədris proseslərinin tətbiqi bacarıqlarını aşılayan sistemli təlimlər 2021-2022-ci illərdə təşkil olunmuşdur. Bütün ATM-lərdə olduğu kimi distant tədris prosesi yalnız pandemiya dövründə tədrisin təşkili zamanı tətbiq olunmuşdur. Daha sonrakı dövrlərdə Təlim-tədris mərkəzi tərəfindən təlimlər aparılmışdır. Burada da  təqdim olunmuş statistika üzrə iştirak edənlərin say azlığı nəzərə çarpır.

### 3.7.4 Akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

Akademik heyətin öz ixtisas sahələri üzrə ixtisasartırma təlimlərində iştirakını özündə əks etdirən məlumat təqdim olunmamışdır. Yalnız Təlim-tədris mərkəzinin hesabatı mövcuddur ki, bu hesabat da digər aidiyyatı istiqamətlərdə nəzərə alınmışdır.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmişdirlər. Ancaq burada da iştirak azlığı müşahidə olunur. Təqdim olunmuş məlumatlarda 53 nəfərin iştirak etdiyi qeyd olunur ki, bu da ümumi kontingentin 7%-ni təşkil edir. Yeni təlim təhsil proqramlarının və metodlarının tətbiqi bu istiqamətdə işlərin genişlənməsini və əhatəliliyinin artırılmasını tələb edir.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

ATM-də akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının vəziyyətininin qiymətləndirilməsi sistemi mövcud deyildir. Ümumiyyətlə ATM-də proseslərin monitorinqinin aparılması, nəticələrin təhlil olunması və daha sonra iradların aradan qaldırılması istiqamətində çatışmazlıqlar vardır.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

ATM-də pedaqoji işçilərin dərs yükü normaları ARNK-nın 24 noyabr 2010-cu il tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında Qərar"ına əsasən icra edilir. Auditor və auditoriyadan kənar saatların nisbəti qorunur. Kafedralar üzrə dərs yükü ixtisas və fənlərin spesifikası nəzərə alınmaqla aparılır.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Universitet üzrə professor və müəllim heyətinin tələbə sayına nisbəti normativlərə uyğun olaraq 13% təşkil edir.

| Tədris illəri | Bakalavriat səviyyəsi | | Magistratura səviyyəsi | | Cəmi | Akademik heyət | Nisbət |
|---|---|---|---|---|---|---|---|
| | Əyani | Qiyabi | Əyani | Qiyabi | | | |
| 2016/2017 | 9117 | 689 | 794 | 20 | 10620 | 747 | 14 |
| 2017/2018 | 9344 | 430 | 859 | 3 | 10636 | 741 | 14 |
| 2018/2019 | 9612 | 224 | 707 | - | 10543 | 783 | 13 |
| 2019/2020 | 9534 | 57 | 637 | - | 10228 | 792 | 13 |
| 2020/2021 | 9746 | 18 | 695 | - | 10459 | 828 | 13 |
| 2021/2022 | 9869 | 6 | 700 | - | 10575 | 785 | 13 |
| 2022/2023 | 10077 | 4 | 708 | - | 10789 | 794 | 14 |

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

ADPU-da 2016-2017-ci illərdə akademik heyətlə inzibati və tədris-köməkçi heyətinin nisbəti 721/258, bu nisbət 2017-2018-ci illərdə 724/212, 2018-2019-cu illərdə 752/219, 2019-2020-ci illərdə 779/215, 2020-2021-ci illərdə 739/229, 2021-2022-ci illərdə 742/223 nisbətə dəyişmişdir.Tədris prosesində iştirak edən professor və müəllim heyətinin 70 %-dən çoxunun əsas iş yeri ATM-dir.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

ATM-ə sahə səfəri zamanı baxış aparılan kafedralarda dərs saatı bölgüsü zamanı artıq qalan saatlar yarandıqda, yaxud ATM üzrə yeni ixtisas və fənlərin tədrisi məqsədilə müvafiq mütəxəssislərin cəlb edilməsi müşahidə olunmuşdur.

Eyni zamanda ATM-də tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətə nisbətinə nəzər salsaq, əcnəbi mütəxəssislərin cəlb edilməsi faiz etibari ilə aşağıdır.

| İllər | Tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|
| 2016-2017 | 0,00% |
| 2017-2018 | 0,008% |
| 2018-2019 | 0,008% |
| 2019-2020 | 0,002% |
| 2020-2021 | 0,002% |
| 2021-2022 | 0,002% |

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşmış əməkhaqqı sistemi tətbiq olunmur. ATM tərəfindən yalnız əmək haqqının akademik və inzibati heyətinin faizlə artımı barəsində əmr təqdim olundu. Əmrdə  differensial olaraq qeyd olsa da, artımın faizlə qaldırılması bu meyarları özündə əks etdirmir. ATM-də yalnız reytinqə və uğurlu fəaliyyətə görə mükafatlandırma mövcuddur.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim heyətinin (əldə etdikləri sənədləri nostrifikasiya etmiş) ümumi akademik heyətdə payını (faizlə) ölçdükdə aşağı faizlər görünür. ATM son dövrlərdə bu istiqamətlərdə işin təşkili proseslərinə başlamışdır, lakin hesabatlılıq dövrü ümumilikdə nəzərə alınarsa bu çox məhdud sayda əməkdaşı əhatə edir.



### *3.8 Tələbəyönümlü tədris*

#### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Həm ATM-in Özünütəhlil Hesabatında qeyd etdiyi məlumatlara, həm də yerində səfər zamanı fakültələrin təqdim etdiyi tələbənin fərdi tədris planlarına əsasən təhsilalanın fərdi tədris planlarının tərtib edilməsində iştirak etdiyi qənaəti yaranır. Lakin fakültələr üzrə tələbə sayı, tyutor sayı və ATM-in elektron qeydiyyat sisteminin mövcud olmamasını nəzərə aldıqda hər tələbənin fiziki olaraq bu prosesdə iştirakını təmin etmək çətindir. Elektron qeydiyyat sisteminin yaradılması tövsiyə olunur.

#### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

ATM-ə sahə səfəri çərçivəsində tələbələr və eləcə də müəllimlərlə aparılan müsahibələr zamanı aydın oldu ki, tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər tələbələrə seçim üçün təqdim olunmur. Yalnız dərslərdə müəllimlər tələbələrə seçmə fənn haqqında ümumi məlumat verirlər. Seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyi təmin olunmur, bunu həyata keçirəcək bir mexanizm də mövcud deyil. ATM-ə seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyini təmin etmək üçün bir qayda, mexanizm, seçmə fənlər haqqında dərsdən kənar tələbələrə daha geniş məlumatların verilməsi mexanizmini işləyib hazırlamaq tövsiyə olunur.

#### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

ATM-də təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyi təmin edilmir. Hər kurs üçün öncədən akademik məsləhətçi (tyutor) təqdim olunur. Akademik məsləhətçilərin təhsilalanlar tərəfindən təyin olunmamasına baxmayaraq, tələbələrin əksəriyyəti akademik məsləhətçilərindən razıdırlar. Təhsilverənlərin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən seçim sərbəstliyinin Bolonya prinsipinə uyğun olaraq təmin olunması tövsiyə edilir.

#### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Təqdim olunmuş sənədlər və görüşlər zamanı əldə edilmiş məlumatlara əsasən tələbələr və məzunlar arasında sorğuların keçirildiyi müəyyən olunmuşdur. Keçirilən sorğular əsasən tələbə və məzun məmnunluq xarakteri daşıyır. Buna baxmayaraq, sorğuların müntəzəm olaraq keçirilməsinə və sistemləşdirilməsinə ehtiyac vardır.

#### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM-də tələbələr arasında 2021-ci ildən etibarən keçirilən sorğular nəticəsində kitabxana və yeməkxana ilə bağlı dəyişikliklər edilmişdir. Ancaq inkişaf dinamikası ilə bağlı sənəd təqdim edilməmişdir. Həmçinin məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərlə bağlı məlumat verilməmişdir. ATM-də bu istiqamətdə tətbiq olunan yeniliklərin inkişaf dinamikası ilə bağlı sorğuların artırılması, təhlillərin aparılması, nəticələrə dair rəy və təkliflər hazırlanaraq icra edilməsi məqsədəuyğundur.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti

ATM-də müxtəlif istiqamətlər üzrə sorğular həyata keçirilir, ancaq sistemli şəkildə toplanma və qərarvermə prosesində istifadə vəziyyəti qənətbəxş deyildir. ATM-də ümumən qeyd olunan istiqamət üzrə müəyyən işlər aparılsa da, sistemsizlik nəzərə çarpır.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

ATM-də təhsilalanların irad, rəy və təklifləri üçün müxtəlif mexanizmlər mövcuddur. Tələbələr təklif və iradları üçün ya fiziki olaraq fakültələrə yaxınlaşırlar və ya rektorluqda, eləcə də fakültələrdə qoyulan müraciətlər və şikayətlər qutusuna şikayət, təkliflərini yazılı olaraq atırlar. Müraciət olunan məsələlər barədə fakültələrdə, eləcə də problemin miqyasından asılı olaraq Elmi Şurada müzakirələr aparılır.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Fakültələrə tələbələrin inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilər cəlb olunmuşdur. Akademik məsləhətçilərin (tyutor) müvafiq kvalifikasiyalar qazanması üçün 2019-cu ildən etibarən Təlim-tədris Mərkəzi tərəfindən təlimlər keçirilir. İlk təlimlər Universitet tərəfindən maliyyələşdirilsə də, sonradan iştirakçılar tərəfindən maliyyələşdirilmişdir.

| № | Fakültələr | Köməkçi heyət | Tələbə sayı |
|---|---|---|---|
| 1 | Filologiya | 19 | 1054 |
| 2 | Məktəbəqədər təhsil | 10 | 1486 |
| 3 | Riyaziyyat | 14 | 1421 |
| 4 | Fizika | 27 | 636 |
| 5 | Kimya və Biologiya | 12 | 1328 |
| 6 | Tarix və coğrafiya | 8 | 1621 |
| 7 | İbtidai təhsil | 12 | 1338 |
| 8 | İncəsənət və fiziki tərbiyə | 10 | 935 |

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

ADPU-da tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiya fiziki olaraq tələbənin dekanlığa yaxınlaşması (üzbəüz) və korporativ email (onlayn) vasitəsilə həyata keçirilir. Tələbələr fənnin sillabusunda qeyd olunan qrafik əsasında təhsilverənlərlə görüşüb məsləhət ala bilirlər. Özünütəhlil Hesabatında qeyd olunan "Moodle TİS" platformasından istifadənin miqyası kifayət qədər geniş deyildir.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququ təhsilin bütün səviyyələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi və onların təhsili üçün tədris prosesində əlverişli mühit yaradılması qeyd olunsa da, Universitetə sahə səfəri zamanı belə bir halın şahidi olunmamışdır. Bununla belə bəzi korpuslarda liftin olması, gözdən əlil tələbəyə imtahanı şifahi vermək imkanının yaradılması kimi bəzi müsbət nümunələr var. Sağlamlıq imkanları məhdud şəxslərin tədris prosesində nəzərə alınması ilə bağlı konkret mexanizmlərin müəyyənləşdirilməsi tövsiyə olunur.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

ATM-də sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti müvafiq sənədlərdə öz əksini tapmışdır. ADPU-nun Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, Azərbaycan Gənclər Fondu, Maarifçi Tələbə Kredit Fondu, Tələbə Təhsil Kredit Fondu tərəfindən təhsilalanların təhsil xərclərinin qarşılanmasına şərait yaradılır. Pandemiya dövründə bir çox təhsilalanlar Sosial Həssas qrupundan da yararlanmışlar. Eləcə də, ADPU Nizamnaməsinin 5.14-cü bəndinə əsasən ödənişli əsaslarla təhsil alan şəhid ailəsi üzvləri normativ təhsil müddətində təhsil haqqını ödəməkdən azad edilərək, onların təhsil haqları ADPU-nun hesabına ödənilməsi təmin edilir. Bundan əlavə ADPU-nun EŞ-nin müvafiq qərarı əsasında Vətən müharibəsində iştirak etmiş tələbələr alt qrup ödənişlərindən azad edilmişdirlər.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Təhsilalanlara ADPU tərəfindən təqaüd imkanının yaradılması ADPU-nun EŞ-nin 24 oktyabr 2018-ci il tarixli iclasının qərarı ilə (protokol № 2) təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetinin Adlı təqaüdləri haqqında Əsasnamə"-nə uyğun olaraq tənzimlənir. ADPU-nun Özünütəhlil Hesabatında qeyd etdiyi aşağıdakı cədvəldə ÜOMG-sı yüksək olan tələbələrə 2018 və 2022-ci ildə təqaüd imkanı yaradıldığı müşahidə olunur.

**ADPU-da təyin edilən adlı təqaüdlər haqqında məlumat**

| № | Adlı təqaüdün adı | Təsis olunma tarixi | Tələbələrin sayı | Təqaüdün məbləği (AZN) |
|---|---|---|---|---|
| 1. | Heydər Əliyev | 24.10.2018 | 1 | 250 |
| 2. | Nizami Gəncəvi | 24.10.2018 | 1 | 204 |
| 3. | Abbasqulu Ağa Bakıxanov | 24.10.2018 | 1 | 204 |
| 4. | Qafur Rəşad Mirzə-zadə | 24.10.2018 | 1 | 204 |
| 5. | Üzeyir Hacıbəyov | 24.10.2018 | 1 | 204 |
| 6. | Abdulla Şaiq | 24.10.2018 | 1 | 204 |
| 7. | Akademik Həsən Abdullayev | 24.10.2018 | 1 | 204 |
| 8. | Akademik Zahid Xəlilov | 24.10.2018 | 1 | 204 |
| 9. | Akademik Yusif Məmmədəliyev | 24.10.2018 | 1 | 204 |
| 10. | Mehdi Mehdizadə | 24.10.2018 | 1 | 204 |
| 11. | Firudin bəy Köçərli | 02.03.2022 | 1 | 225 |
| 12. | Bəxtiyar Vahabzadə | 29.12.2022 | 1 | 204 |
| 13. | Xəlil Rza Ulutürk | 29.12.2022 | 1 | 204 |

## *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

ATM-də təhsil proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı mövcud olmasa da, Tədris Departamentinin Tədris texnologiyaları şöbəsi bu istiqamətdə işlər görür. Fəaliyyətin daha səmərəli təşkil olunması üçün Təhsil proqramlarının monitorinqi strategiyası və iş planı hazırlanması tövsiyə olunur.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

ADPU-da kafedralar və fakültələr səviyyəsində təhsil proqramları üzrə təlim nəticələrinin fənnin təlim nəticələrinin təsvir olunduğu fənn sillabuslarında öz əksini tapmasına nəzarət edilir. Fənn proqramları, sillabuslar (Ümumi pedaqogika fənni), EŞ iclaslarının protokolları (24 aprel 2019-cu il) təhlil edərək bu qənaətə gəlinmişdir ki, ADPU-nun Özünütəhli Hesabatında qeyd edildiyi kimi, ixtisaslar üzrə təlim nəticələrinin fənnin təsvirinə uyğun yazılması, hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları, istifadə olunan qiymətləndirmə üsullarının düzgün seçilməsinə diqqət yetirilir, monitorinqlər aparılır, hesabatlar hazırlanıb

TMŞ-də müzakirə və təhlil olunur. Fənnin təlim nəticələrinin fənn proqramlarında və sillabuslarda öz əksini tapmasına diqqət yetirilir.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Ümumilikdə ADPU-da 8 fakültə üzrə olan ixtisaslarda Təhsil Proqramlarının özünüqiymətləndirmə hesabatları hazırlanmışdır. Bu özünütəhlilin aparılması müsbət hal olsa da, hesabatların təhlil olunması, SWOT analizi aparılması, ixtisasların üzə çıxarılan zəif cəhətlərinə istiqamətlənən mümkün tədbirlərin görülməsi ilə bağlı Keyfiyyət Təminatı Mərkəzindən hər hansı sənəd təqdim olunmadığı üçün təhsil proqramlarının monitorinqinin ADPU-nun daxili keyfiyyət təminatı sisteminə verdiyi töhfəni qiymətləndirmək mümkün olmamışdır.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ADPU-da Filologiya, İbtidai Təhsil, Fizika, İncəsənət və fiziki tərbiyə, Məktəbəqədər təhsil, Kimya və biologiya fakültəsi, Riyaziyyat, Tarix və coğrafiya fakültələrində olan Təhsil Proqramlarının Özünütəhlil Hesabatlarında aşağıda qeyd olunan meyarlar və bu meyarların indikatorları əsasında təhlillər aparılmışdır;

1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu,
2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması,
3. Təhsil proqramı üzrə tədrisin təşkili,
4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları,
5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları,
6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza,
7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi,
8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti,
9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris,
10. Təhsil proqramının monitorinqi,
11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi,
12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Tədris proqramlarında Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər blokunda ixtisasın xüsusiyyətlərindən asılı olaraq İnklüziv təhsil və fərdiləşdirilmiş təlim, STEAM - 1, STEAM - 2, Sinfin idarəolunması, Virtual təlim sistemi (VTS) texnologiyası və s. kimi əmək bazarının və cəmiyyətin tələblərinə uyğun fənlər öz əksini tapmışdır.

### *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

#### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ATM-də mövcud olan Məzun Koordinasiya və Karyera şöbəsi tərəfindən hər tədris ili üzrə fəaliyyət planı əsasında məzunlar və tələbələrlə işlər aparılır. Karyera mərkəzinin işini daha çoxşaxəli qura bilməsi üçün karyera mərkəzinin əməkdaşlarının xarici ali məktəblərlə mübadilə proqramında iştirakı, karyera mərkəzləri ilə əlaqələr qurması tövsiyə olunur.

#### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

ATM-də MİQ imtahanlarına hazırlıq məqsədilə sınaqlar təşkil edilir, tanınmış təhsil işçiləri, müxtəlif elm xadimləri və s. ilə görüşlər keçirilir. Tələbə və məzunlara göstərilən karyera xidmətlərinin daha da genişləndirmək - CV yazılması, yumşaq bacarıqların formalaşdırılması, idarəetmə bacarıqları, sosial vərdiş və bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı təlimlər və bu istiqamətdə işlərin aparılması tövsiyə olunur.

#### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Məzun Koordinasiya və Karyera şöbəsi tərəfindən 2018-2022-ci illəri əhatə edən MİQ-in nəticələri əsasında məlumat bazası və məzun FİN kodları əsasında digər məlumat bazası yaradılmışdır. Bu da məzunlarla işin təşkil edilməsi vəziyyətini öyrənmək üçün daha operativ mənbədir. Məzunlar barədə lazımi məlumatları özündə əks etdirən elektron məlumat bazası yaradılmışdır. Tələbələrin məzun olduqları ildə əmək fəaliyyətinə başlama göstəricisi dəyişmə dinamikası məzunların kompetensiyalarına və ixtisaslarına uyğun əmək fəaliyyətinə başlama göstəricisi və dəyişmə dinamikası mərkəz tərəfindən izlənilir. Eyni zamanda işəgötürənlərdən məzunlarla bağlı geridönüşlərin alınması və bu təkliflər əsasında çatışmazlıqların aradan qaldırılması, məzunlarda idarəetmə bacarıqlarını inkişaf və təkmilləşdirmə üçün birinci kursdan etibarən təlimlərin təşkili tövsiyə olunur. Mütəmadi olaraq əmək bazarının tələb və təkliflərini dəyərləndirmək, bu istiqamətdə sistematik iş aparmaq, xarici universitetlərin təcrübəsindən yararlanmaq daha faydalı olar.

#### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

ADPU-da bu istiqamətdə bir neçə sorğu keçirilmişdir. Keçirilən sorğular məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi üçün kifayət deyildir. Bu istiqamətdə əhatəli və sistemli işlərin aparılması tövsiyə olunur.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

ATM-də məzunlar haqqında elektron məlumat bazasının mövcudluğu onlarla əlaqələr qurmağa və əməkdaşlıq etməyə imkan verir. ADPU-nun son illərdə bakalavr proqramlarında məzunların məşğulluğu haqqında məlumat bazasının mövcudluğu bu sahədə görülmüş işlərdən ən uğurlusu hesab etmək olar. Həmçinin məlumat bazasından aydın olur ki, məzunların hansı istiqamətdə problemləri var. Bu problemləri aradan qaldırmaq üçün məzunlarda sosial vərdiş və bacarıqları kifayət qədər inkişaf etdirməyə ehtiyac vardır. Bu sahədə görülmüş işlər mövcud vəziyyəti qiymətləndirməyə imkan versə də, əmək yarmarkaları, əmək bazarı və işəgötürən qurumlarla daha operativ işi təşkil etmək üçün daha səmərəli işlər aparmaq vacibdir.

# 4 ELMİ TƏDQİQAT

## *4.1 Elmi tədqiqat strategiyası*

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ATM-in rəsmiləşdirilmiş strategiya sənədi mövcud olmadığı üçün qeyd olunan indikatoru ölçmək mümkün deyildir.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

Elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığı üçün onun ADPU-nun missiya və hədəflərinə uyğunluğu vəziyyətini qiymətləndirmə imkanı yoxdur. Bununla belə ADPU-nun 2018-2021-ci illər üzrə Strateji inkişaf planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə nəzərdə tutulan bəzi tədbirlər (Universitetdaxili elmi müsabiqələrin (tələbələr üçün olimpiadaların, ilin alimi (tədqiqatçısı), ilin kafedrası və s.) təşkili, ADPU-nun beynəlxalq, respublika və Universitet səviyyəsində elmi konfrans, simpozium, konqres və seminarların təşkili, Təhsildə innovasiyalar müsabiqələrinin təşkil edilməsi, Tələbələrin beynəlxalq elmi konfranslarda aktiv iştirakının təmin edilməsi və s.) onun missiyasını özündə əks etdirir. Universitetin qarşısına qoyduğu hədəflərdə tələbələrin bacarıqlarının tədqiqat-innovasiya istiqamətində inkişafına nail olunması nəzərdə tutulmuş, elmi-tədqiqatla bağlı əhatəli strategiya öz əksini tapmamışdır.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

Elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığı üçün ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin

və tədqiqat fəaliyyətinin idarə olunmasının tələb olunan sənəddə nəzərə alınması vəziyyətini təhlil edə bilmirik.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2018-2021-ci illər üzrə Strateji inkişaf planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə elmi-tədqiqatla bağlı müəyyən işlərin görülməsi nəzərdə tutulmuşdur. Lakin ATM-in elmi-tədqiqat məqsədlərini özündə ehtiva edən sənəd olmadığı üçün qeyd olunan indikatoru tam olaraq ölçmək mümkün olmamışdır.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığı üçün tələb olunan sənəddə elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyətini ölçə bilmirik. Bununla belə, 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə tədris prosesində elmi, elmi-pedaqoji və təhsil fəaliyyətinin inteqrasiyasının təmini, ADPU-nun tələbələrinin və magistrantlarının elmi fəaliyyətə cəlb edilməsinin, doktorantların və gənc tədqiqatçıların elmi fəaliyyətinin gücləndirilməsinə yönəlmiş tədbirlərin hazırlanıb həyata keçirilməsi, tələbələrin elmi tədqiqatçılıq qabiliyyətlərinin gücləndirilməsinə təkan verən tədqiqatçılıq qabiliyyətinin (məqalə, tezis, refarat və s. yazılışı) formalaşdırılması istiqamətində işin təşkili (təlimlər və seminarlar) nəzərdə tutulmuşdur. Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasını daha da səmərəli həyata keçirilməsi üçün tələbələrin müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü start-up layihələrinə cəlb edilməsi, magistrant və doktorantların Universitetdə aparılan elmi tədqiqat işləri və qrant layihələrinə cəlb edilməsi, xarici ölkələrin nüfuzlu Universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına cəlb edilməsi tövsiyə olunur.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığı üçün tələb olunan sənəddə professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyətini təhlil etmə imkanımız yoxdur. Buna baxmayaraq, 2018-2021-ci illər üzrə Strateji inkişaf planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə tədqiqatçıların və ixtiraçıların müəlliflik hüququ və intellektual mülkiyyətinin müdafiəsi üçün şərait yaradılması, Kafedranın əməkdaşlarının elmi-tədqiqat işlərinin nəticələrinin beynəlxalq miqyaslı nüfuzlu jurnallarda dərc olunması işinin təşkili kimi tədbirlər nəzərdə tutulmuşdur.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığı üçün tələb olunan sənəddə müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyətini ölçmək mümkün deyildir.

#### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Elmi-tədqiqatla bağlı strategiya sənədi olmadığı üçün tələb olunan sənədin hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyətini ölçmək mümkün deyildir.

### *4.2 Tədqiqat resursları*

#### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

ATM-in elmi-tədqiqatla bağlı rəsmiləşdirilmiş strategiyası, eləcə də elmi-tədqiqat məqsədlərini özündə əks etdirən xüsusi bir sənədi olmadığı üçün bu indikatoru ölçmək mümkün olmamışdı. Lakin 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə elmi-tədqiqatla bağlı müəyyən işlərin görülməsi ADPU-nun tədqiqat Universiteti statusunu alması üçün sistemli iş aparılması, ADPU-nu ölkənin təhsil tədqiqatları mərkəzinə çevrilməsi nəzərdə tutulsa da, bu məqsədə nail olunduğunu göstərən vəziyyət müşahidə edilməmişdir. Bununla belə, elmi-tədqiqat üçün büdcədə müəyyən vəsait nəzərdə tutulur. Aşağıda qeyd olunan cədvəldə ADPU-nun elmi-tədqiqata illər üzrə ayrılan büdcə vəsaitinin həcmi öz əksini tapmışdır;

| **İllər** | **Elmi tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı (min manatla)** |
|---|---|
| 2016 | 107,7 |
| 2017 | 109,5 |
| 2018 | 97,4 |
| 2019 | 80,7 |
| 2020 | 125,1 |
| 2021 | 142,8 |
| 2022 | 148,8 |

#### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Elmi-tədqiqat işləri illər üzrə normativə uyğun olaraq hazırlanmış və hesabatlarda öz əksini tapmış və protokollaşdırılmışdır. Universitetdə illər üzrə hər bir fakültə və kafedralar üzrə

elmi - tədqiqat işlərinin mühüm nəticələri kafedra və fakültələrdə müzakirə olunaraq qəbul edilir. 5-illik tamamlandıqda AMEA-nın müəyyən İnstitut bölmələrinə göndərilir. ATM-in Özünütəhlil Hesabatında qeyd etdiyi kimi professor-müəllim heyətinin Google Scholar bazasında şəxsi profilləri yaradılmış və ORCID identifikasiya nömrəsi alınmışdır. 2022-ci ildə xarici ölkə dövri nəşrlərində 442 (17-i impakt faktor göstəricili jurnallarda) olmaqla, 852 elmi məqalə, 359 tezis (xaricdə - 209), 38 monoqrafiya, 33 dərslik, 59 dərs vəsaiti, 177 proqram və metodik vəsait və s. nəşr olunmuşdur. Universitetin Özünütəhlil hesabatında aşağıda təsvir olunan cədvəldə 2016-2022-ci illərdə nəşr olunmuş elmi əsərlər haqqında məlumat, ixtiraçılıq və patent-lisenziya fəaliyyəti üzrə inkişaf dinamikası öz əksini tapmışdır.

| № | **Monoqrafiya** | **Dərslik** | **Dərs vəsaiti** | **Proqramlar, metodik vəsaitlər** | **İmpakt faktoru olan jurnallarda** | **Tezislər Respublikada** | **Tezislər xaricdə** | **Beynəlxalq konfranslar və simpoziumlar** | **Respublikada konfranslar və simpoziumlar** | **İxtiraçılıq və patent lisenziya fəaliyyəti** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2016** | 24 | 34 | 10 0 | 280 | 41 | 193 | 51 | 1 | 7 | 2 |
| **2017** | 18 | 28 | 83 | 181 | 37 | 295 | 50 | 4 | 7 | 2 |
| **2018** | 32 | 32 | 83 | 233 | 30 | 220 | 144 | 4 | 10 | 3 |
| **2019** | 37 | 17 | 94 | 256 | 33 | 237 | 99 | 1 | 6 | 1 |
| **2020** | 12 | 16 | 45 | 178 | 23 | 85 | 122 | 1 | 2 | 2 |
| **2021** | 33 | 20 | 70 | 197 | 32 | 113 | 57 | 3 | 9 | 1 |
| **2022** | 38 | 33 | 59 | 177 | 17 | 150 | 209 | 6 | 6 | 1 |

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

ATM-də yaradılmış Gənc Alim və Tədqiqatçılar Şurası gənc alimlərin təşkilatlanması, koordinasiyası, stimullaşdırılması, tədqiqat bacarıqlarının inkişaf etdirilməsi üçün seminarların, konfransların, tədbirlərin təşkili istiqamətində fəaliyyət göstərir. Özünütəhlil hesabatında da qeyd olunduğu kimi Gənc Alimlər və Tədqiqatçılar Şurasının 2022-ci ildə gördüyü işlərdən bəzi nümunələr aşağıda verilmişdir;

1. ADPU-nun Gənc Alimlər və Tədqiqatçılar Şurasının təşkilatçılığı ilə gənc tədqiqatçıların akademik yazı bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə “İmpakt faktor göstəricili beynəlxalq elmi jurnallara məqalə hazırlanması” mövzusunda seminar keçirilməsi;
2. ADPU-da Gənc Alimlər və Tədqiqatçılar Şurasının təşkilatçılığı ilə “Elm Günü” münasibətilə elan olunmuş “İlin gənc alimi və tədqiqatçısı” müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasiminin keçirilməsi;

3. “Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2022-ci il üzrə Yol Xəritəsi”nin 14-cü bəndinin icrasının yerinə yetirilməsi və tədqiqatçıların rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi məqsədilə Ekvita şirkətinin dəstəyi ilə İqtisadi Elmi Tədqiqat İnstitutunda “Tədqiqat üsulları” və “Beynəlxalq elmmetrik bazalarla tanışlıq və profillərin yaradılması” mövzularında təşkil edilmiş təlimlərdə iştirak edilməsi və s.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

ATM-in hazırda hər hansı beynəlxalq elmi məlumat bazasına çıxışı mövcud deyil. Universitetin beynəlxalq elmi bazalara girişin təmin edilməsi üçün memorandumlar imzalaması və müxtəlif nəşriyyatlarla üzvlük ilə bağlı razılıqlar əldə etməsi məqsədəuyğundur.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Elmi-tədqiqat işlərinin davamılılığını təmin etmək üçün akademik heyətin reytinq qiymətləndirilməsi və balların hesablanması haqqında təlimat mövcuddur. Reytinq ballarına uyğun olaraq professor-müəllim heyətinin əmək haqlarına əlavələr olunur. Mexanizmin əhatəlilik və hamı üçün əlçatanlıq baxımından daha da təkmilləşdirilməsi təklif olunur. Eləcə də, tədqiqatçıların uzunmüddətli beynəlxalq tədqiqat proqramlarında iştirakına dəstək, tədqiqat məqsədli səfərlərə maddi dəstəyin verilməsi məqsədəuyğundur.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

ADPU-da elmi-tədqiqat üçün büdcədə müəyyən vəsait nəzərdə tutulsa da, elmi-tədqiqat fəaliyyəti nəticəsində ATM-ə gəlir daxil olmur. ATM-ə yalnız antiplagiat xidməti üzrə gəlir daxil olur. Qeyd etmək lazımdır ki, antiplagiat bir xidmətdir, elmi-tədqiqat kimi qiymətləndirilmir.

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında qeyd etdiyi kimi, elmi tədqiqatların aparılması məqsədi ilə AMEA-nın elmi təşkilatları və İnstitutları (Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Folklor İnstitutu, A.Bakıxanov adına Tarix İnstitutu, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutu, akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu), Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi tədqiqat institutları ilə (Riyaziyyat və Mexanika İnstitutu, Akademik C.M.Abdullayev adına Fizika İnstitutu, Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, akademik H.Əliyev adına *Coğrafiya* İnstitutu, Topraqşünaslıq və Aqrokimya İnstitutu, İqtisadiyyat İnstitutu, Memarlıq və İncəsənət İnstitutu), РГГУ, Latviya Universiteti, Ukrayna MEA Mexanika İnstitutu, Ukraynanın Təhsil menecmenti Universiteti, Yıldız Texniki Universiteti, Ege Universiteti

(Türkiyə), V.Q.Korolenko adına Qlazov Dövlət Pedaqoji İnstitutu (Rusiya), Bartın Universiteti (Türkiyə), Kayseri Universiteti (Türkiyə), Bolu Abant İzzət Baysal Universiteti (Türkiyə), TED Universiteti (Türkiyə),Yozqat Bozok Universiteti, Qazi Universiteti, Hacettepe Universiteti (Türkiyə), EYUDER, Ankara Universiteti (Türkiyə), Başkent Universiteti (Türkiyə), Burdur Mehmet Akif Ersoy Universiteti, Türkiyənin İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutu ilə əməkdaşlıq edilir. Aşağıdakı cədvəldə ATM-in tədqiqat sahəsində əməkdaşlıq etdiyi elmi müəssisə və təşkilatların illər üzrə sayı təsvir edilmişdir;

| **İllər** | **Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların sayı** |
|---|---|
| 2016 | 13 |
| 2017 | 17 |
| 2018 | 12 |
| 2019 | 16 |
| 2020 | 16 |
| 2021 | 18 |
| 2022 | 20 |

## *4.3 Elmi tədqiqat fəaliyyəti*

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

ATM-də elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üçün bir neçə struktur vahidi - Elm və innovasiyalar üzrə prorektorluq, Elmi-təşkilati şöbə, Elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. Struktur vahidlərinin illik fəaliyət planları mövcud olsa da, elmi-tədqiqat üzrə strategiya sənədi olmadığı üçün indikatoru tam olaraq qiymətləndirmək mümkün deyil.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

ATM-də çoxsaylı tədbirlər, o cümlədən elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş, təlim və s. keçirilmişdir. Belə ki, 2016-cı ildə 6 beynəlxalq, 6 respublika səviyyəli, 2017-ci ildə 4 beynəlxalq, 9 respublika səviyyəli, 4 universitet səviyyəli, 2018-ci ildə 4 beynəlxalq, 7 respublika səviyyəli, 2019-cu ildə 1 beynəlxalq, 4 respublika, 2020-ci ildə 1 beynəlxalq, 2 respublika səviyyəli, 2021-ci ildə 3 beynəlxalq, 10 respublika səviyyəli, 2022-ci ildə 4 beynəlxalq, 6 respublika səviyyəli konfranslar təşkil olunmuşdur. Özünütəhlil hesabatında da aşağıda təsvir olunan diaqramda beynəlxalq və respublika səviyyəli konfransların illər üzrə dinamikası öz əksini tapmışdır.




Eləcə də, aşağıdakı cədvəldə elmi-tədqiqat xarakterli keçirilmiş konfransların, seminarların, görüşlərin illər üzrə say dinamikasını izləmək olar.

| **İllər** | **Elmi-tədqiqat xarakterli keçirilmiş konfransların, seminarların, görüşlərin və s. sayı** |
|---|---|
| 2016 | 25 |
| 2017 | 27 |
| 2018 | 30 |
| 2019 | 37 |
| 2020 | 8 |
| 2021 | 29 |
| 2022 | 52 |

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

ATM-də keçirilən elmi-tədqiqat xarakterli tədbirlərdə həm Türkiyə, Rusiya kimi ölkələlər daxil olmaqla müxtəlif xarici ölkələrdən, eləcə də Azərbaycanın digər elm və ali təhsil müəssisələrindən tədqiqatçılar iştirak etmişdir və müştərək konfrans materialları nəşr olunmuşdur. Aşağıda qeyd olunan cədvəldə elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrdən iştirak etmiş tədqiqatçıların illər üzrə say dinamikası öz əksini tapmışdır.

| İllər | Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrdən iştirak etmiş tədqiqatçıların sayı |
|---|---|
| 2016 | 0 |
| 2017 | 39 |
| 2018 | 43 |
| 2019 | 15 |
| 2020 | 6 |
| 2021 | 50 |
| 2022 | 337 |

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

2016-2022-ci illərdə 3000-ə qədər tələbə və gənc tədqiqatçı konfrans,seminar və s. elmi-tədqiqat xarakterli tədbirlərdə iştirak etmişdir.ATM-in Özünütəhlil Hesabatında da gənc tələbə-tədqiqatçıların elmi-tədqiqat xarakterli tədbirlərdə illər üzrə iştirak dinamikası öz əksini tapmışdır.




### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Hesabat dövründə (2017-2023) aşağıda qeyd olunan 4 beynəlxalq qrant layihəsində iştirak edilmişdir;

1. Azərbaycan Universitetlərində öyrənmə və təlimin təkmilləşdirilməsi. Promoting Excellence in Teaching and Learning in Azerbaijani Universities (PETRA)
2. “Azərbaycan universitetlərində Keyfiyyət Təminatı mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” Establishment and Development of Quality Assurance Centres in Azerbaijan(EQAC)
3. “Rektorlar Konfransının yaradılması”Establishment of Rectors Conference in Azerbaijan (ECAR)
4. “Azərbaycan və Rusiya ali təhsil müəssisələrində tədris, təlim və qiymətləndirmə prosesinin daxili keyfiyyət təminatının təkmilləşdirilməsi.”Enhancement of internal quality assurance of education in teaching, learning and assessment in HEIs of Azerbaijan and Russia (IQAinAR)

Aşağıda qeyd olunan cədvəldə ATM-in Elm və təhsil sahəsində iştirak edilən beynəlxalq qrant layihələrin illər üzrə sayı öz əksini tapmışdır.

| **İllər** | **Elm və təhsil sahəsində iştirak edilən beynəlxalq qrant layihələrin sayı** |
|---|---|
| 2016 | 0 |
| 2017 | 2 |
| 2018 | 2 |
| 2019 | 2 |
| 2020 | 2 |
| 2021 | 3 |
| 2022 | 2 |

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

ATM-in 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə innovasiya və ixtiraların patentləşdirilməsi ilə əlaqədar müəlliflərə məsləhətlərin, metodiki göstərişlərin verilməsi, lazım olan hüquqi sənədlərin və innovasiya materiallarının müəlliflərlə birlikdə hazırlanması və patent ekspertizası mərkəzinə təqdim olunması, innovasiya və ixtiralar üzrə müəlliflik hüququnun üçüncü tərəfə verilməsi ilə əlaqədar lisenziya müqavilələrinin hazırlanması kimi tədbirlər öz əksini tapmışdır.Universitet 2021-ci ildə 1, 2022-ci ildə 4 patent əldə etmişdir. Universitetin əldə etdiyi patentlər dəqiq elmlər sahəsində olduğu üçün kommersiyalaşdırma mexanizmi yoxdur. Bu istiqamət üzrə qaydalar hazırlanması tövsiyə olunur.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

ATM-in 2018-2021-ci illər üzrə Strateji inkişaf planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə institutsional əməkdaşlığı, birgə təşəbbüsləri təşviq edən aşağıda qeyd olunan tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur;

1.AMEA-nın elmi-tədqiqat institutları ilə müvafiq əməkdaşlığın həyata keçirilməsi;

2.İnkişaf etmiş Qərb universitetləri və MDB məkanı Universitet və elmi mərkəzləri ilə elmi-pedaqoji əlaqələrin yaradılması və dinamikaların müqayisə edilməsi;

3.Təhsil, elm və innovasiya mərkəzləri ilə qarşılıqlı əməkdaşlıq haqqında sazişlərin bağlanmasına hazırlıq işlərinin yerinə yetirilməsi, bağlanmış sazişlər çərçivəsində ADPU-nun öz üzərinə götürdüyü öhdəliklərin müvafiq struktur bölmələri tərəfindən vaxtında yerinə yetirilməsinə nəzarət edilməsi;

4.Respublikanın və xarici ölkələrin təhsil, elm və innovasiya mərkəzləri ilə birgə elmi-tədqiqat və innovasiya işlərinin aparılması proqramlarında, qrant və layihələrində iştirak etmək üçün təkliflərin toplanması və müzakirəyə çıxarılması.

Qeyd olunan tədbirlər institutsional əməkdaşlığı, birgə təşəbbüsləri müəyyən qədər təşviq etsə də, bu sahədə daha səmərəli fəaliyyətin həyata keçirilməsi üçün konkret mexanizmlərin yaradılması tövsiyə olunur.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

ATM-lə müxtəlif elmi müəssisə və təşkilatlar arasında tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcud olsa da, hər hansı birgə tədqiqat proqramı həyata keçirilməyib. Qeyd olunan məqam ADPU-nun təqdim etdiyi excel cədvəldə də öz əksini tapmışdır;

| **İllər** | **Birgə tədqiqat proqramlarının sayı** |
|---|---|
| 2016 | 0 |
| 2017 | 0 |
| 2018 | 0 |
| 2019 | 0 |
| 2020 | 0 |
| 2021 | 0 |
| 2022 | 0 |

### 4.3.9 Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

ADPU-nun tədqiqatçılarının müxtəlif elmi-tədqiqat şəbəkələrində iştirakına dair Komissiya heyətinə təqdim etdiyi sənəddə professor-müəllim heyətinin xaricdə nəşr olunan aşağıda adları qeyd olunan jurnallarda redaksiya heyətində təmsil olunduğu öz əksini tapıb;

1. Prof. Cəfər Cəfərov - RSUH/RGGU BULLETIN. “Eurasian Studies. History. Political Science. International Relations” Series. Academic Journal. ISSN 2686-7648

2. Prof. Asəf Zamanov - Mechanics of Composite Materials (1.285 (2021) Impact factor) və s.

ADPU professor-müəllim heyətinin ölkə hüdudlarından kənarda nəşr olunan müxtəli nüfuzlu jurnallarda redaksiya heyətində təmsil olunması təqdirəlayiq hal olsa da, bu ölçməli olduğumuz indikatorun əhatə dairəsi ilə tam örtüşmür. Belə ki, beynəlxalq elmi-tədqiqat şəbəkələri dedikdə müxtəlif elm və tədqiqat sahələri üzrə dünya elm ictimaiyyətini birləşdirən cəmiyyətlər, institutlar və s. nəzərdə tutulur. Məs, International Union of Geological Sciences, International Association of Hydrological Sciences, Association of Applied Geochemists və s.

ATM-in təqdim etdiyi excel cədvəldə tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak etmədiyi əks olunmuşdur.

| **İllər** | **Beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak etmiş tədqiqatçıların sayı** |
|---|---|
| 2016 | 0 |
| 2017 | 0 |
| 2018 | 0 |
| 2019 | 0 |
| 2020 | 0 |
| 2021 | 0 |
| 2022 | 0 |

### 4.3.10 Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

ATM-in 2018-2021-ci illər üzrə Strateji inkişaf planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə Elmi-tədqiqat və innovasiya işlərinin mühüm nəticələrindən istehsalatda və tədris prosesində istifadə edilməsi üzrə müvafiq təkliflərin hazırlanması və yayılması tədbiri nəzərdə tutulmuşdur. Lakin incələdəyimiz fənn silabuslarında qeyd olunan ədəbiyyat siyahısında daha çox kitablar öz əksini tapmışdır. Tədqiqat işlərinin nəticələrindən mühazirə və seminarlarda istifadə olunması, mövzu ilə əlaqəli məqalələr, tədqiqat işlərinin və s. əlavə tədris materialı kimi tələbələrə yönləndirilməsi tövsiyə olunur.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

Universitetdə tədqiqat materiallarının dərc etdirilməsi üçün Riyaziyyat və təbiət elmləri seriyası, Pedoqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedoqoji-psixoloji elmləri seriyası, Linqvistika problemləri, Tarix, insan və cəmiyyət, Fizika, riyaziyyat və informatika tədrisi, Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, Magistrant kimi dövri-elmi nəşrləri var. Akademik heyətin reytinq qiymətləndirilməsində müəllimlərin elmi fəaliyyəti üçün

çap olunan jurnaldan asılı olaraq müəyyən balların hesablanması və reytinqin nəticəsi kimi onlara aylıq 100 manatın verilməsi nəzərdə tutulur. Belə olan halda reytinqdə ilk sıralamada olan əməkdaşlar bu mexanizmdən yararlana bilir, digər akademik heyət üçün əlçatanlıq təmin olunmur. Nüfüzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması üçün həmin jurnalın impakt-faktoru səviyyəsindən asılı olaraq, Universitet tərəfindən birdədəfəlik maddi mükafatın verilməsi məqsədəuyğundur.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, ADPU-da fəaliyyət göstərən 62 professor-müəllim heyətinin Google Scholar  bazasında elmi məqalələrinə istinad etmə sayı (illər üzrə) cəmi 3045-dır. ATM-in təqdim etdiyi aşağıda qeyd olunan cədvəldə professor-müəllim heyətinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrinə istinadetmə indeksinin illər üzrə dinamikası verilmişdir. Cədvəldəki məlumatların təhlilinə əsasən artım dinamikası müşahidə olunmur.

| **İllər** | **Beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası** |
|---|---|
| 2016 | 240 |
| 2017 | 350 |
| 2018 | 292 |
| 2019 | 276 |
| 2020 | 203 |
| 2021 | 105 |
| 2022 | 102 |

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

ADPU-da magistratura səviyyəsində təhsil alan tələbələrə ixtisaslarından asılı olaraq aşağıda adları qeyd olunan tədqiqat yönümlü fənlər tədris olunur; Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası, Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənninin tədrisi metodikası və metodologiyası, Biologiya fənninin tədrisi metodikası və metodologiyası, İbtidai sinifdə tədrisin metodika və metodologiyası, Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası, Menecment (təhsilin təşkili və idarə olunması, Pedaqogika nəzəriyyəsi və tarixi, Təhsildə qiymətləndirmə və monitorinq, Biznesin təşkili və idarə edilməsi (təhsilin təşkili və idarə olunması, Sosial pedoqogika ixtisasları üzrə “Elmi-tədqiqat işlərinin metod və metodologiyası”, Təsviri incəsənət fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə “Elmi tədqiqat fəaliyyətinin əsasları”, Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş ixtisası üzrə “Elmi-tədqiqatın təşkili və qiymətləndirilməsi”,  Fizika fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə “Fizikanın tədrisi metodikası üzrə elmi

araşdırma texnologiyaları”, Musiqi fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə “Musiqi sahəsində tədqiqatların metod və metodologiyası, Kimya fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə “KTM üzrə nəzəri və eksperiment tədqiqatların texnologiyası”, Tarix fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə “Pedoqoji tədqiqat metodları”, Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə “Coğrafiyanın tədrisi metodikasının tədqiqat metdodları”, Təlim və tədrisin təşkili və metodikası (SABAH) ixtisası üzrə “Sosial elmlərdə statistika və data analizi”, “Tədqiqat metodları və akademik etika”, Menecment (təhsilin təşkili və idarə olunması) ixtisası üzrə “Keyfiyyət tədqiqat metodları”, Biznesin təşkili və idarə edilməsi (təhsil üzrə marketinqin təşkili və idarə olunması) ixtisası üzrə “Tədqiqat metodları”, Gənclərlə iş ixtisası üzrə “Gənclərlə sosial işdə tədqiqat metodları və texnologiyaları”, “Elmi tədqiqat metodları və akademik yazı” kimi tədqiqat yönümlü fənlərin tədrisi aparılır.

Riyaziyyatın tədrisi metodikası və metodologiyası, Texnologiya fənninin tədrisi metodikası və metodologiyası, İnformatika fənninin tədrisi metodikası və metodologiyası, Korreksiyaedici təlimin metodika və metodologiyası, Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili), Təhsildə sosial- psixoloji xidmət ixtisaslarının tədris planlarında tədqiqat yönümlü fənlər nəzərə alınmayıb. Magistartura səviyyəsindəki bütün ixtisaslarda dissertasiya işinin yazıldığı üçün bütün ixtisaslarda tədqiqat yönümlü fənlərin tədris olunması məqsədəuyğundur.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

ADPU-da akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlər, seminarlar və müxtəlif sistematik tədbirlər həyata keçirilir. Təlimlər haqqında nəticə əldə etmək üçün anket sorğular, müsahibələr, müşahidələr təşkil edilir. Bu prosesə mütəxəssislər, təlimçilər və təlimlərdə iştirak edən müdavimlər cəlb olunur. Məlumatlar təhlil edilir və nəticələr qrafiklərdə, diaqramlarda, cədvəllərdə göstərilir. Anket sorğusu 12 təhsil müəssisəsi - ADPU, ADPU-nun Şamaxı filialı, ADPU-nun Cəlilabad filialı, ADPU-nun Ağcabədi filialı, ADPU-nun Quba Filialı,ADPK, Azərbaycan Turizm və Menecment Universiteti, Üzəl kurs, 198 saylı tam orta məktəb, BDU arasında keçirilmişdir. İl ərzində ümumilikdə təşkil olunan 71 təlimin 7-si beynəlxalq, 64-ü respublika səviyyəli olmuşdur.. Beynəlxalq təlimlərdən 3 canlı, 4 onlayn formada təşkil edilmişdir. Təlimlər Avstriya, Danimarka, Ukrayna, Belarusiya, Honkonq, Almaniya və Amerikadan olan mütəxəssislər ilə təşkil olunmuşdur.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

ATM-in Özünütəhlil Hesabatında və 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planında doktorantura proqramlarının təşviq edilməsi ilə bağlı hər hansı bir mexanizmin olması müşahidə olunmasa da, ADPU məzun olmuş və ya təhsil alan doktorant və dissertantların daimi ştatda pedaqoji və elmi tədqiqat fəaliyyətinə cəlb olunmasına xüsusi diqqət ayırır. Aşağdakı cədvəldə

ADPU-da 2016-2022-ci illər ərzində işə cəlb olunmuş doktorant və dissertantların sayı ilə bağlı məlumatlar öz əksini tapmışdır.

| **İllər** | **ATM-də işə cəlb edilmiş doktorantların və dissertanların sayı** |
|---|---|
| 2016 | 59 |
| 2017 | 35 |
| 2018 | 38 |
| 2019 | 29 |
| 2020 | 29 |
| 2021 | 32 |
| 2022 | 33 |

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının illər üzrə dəyişmə dinamikası aşağıdakı cədvəldə verilmişdir. Cədvəldəki məlumatların təhlilinə əsasən artım dinamikasının olmadığı qənaətinə gəlinir.

| **İllər** | **Elmlər doktoru** | **Professor** |
|---|---|---|
| 2016-2017 | 72 | 64 |
| 2017-2018 | 74 | 59 |
| 2018-2019 | 72 | 58 |
| 2019-2020 | 67 | 53 |
| 2020-2021 | 72 | 61 |
| 2021-2022 | 60 | 49 |
| 2022-2023 | 53 | 44 |

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

2016-2021-ci illər üzrə elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə olan nisbətinin dəyişmə vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır. Cədvəldəki məlumatların təhlilinə əsasən, elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyətini qənaətbəxş hesab etmək olar.

| İllər | Elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı (faizlə) |
|---|---|
| 2016 | 76,33% |
| 2017 | 82,33% |
| 2018 | 80,60% |
| 2019 | 74,51% |
| 2020 | 68,15% |
| 2021 | 76,25% |

**4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu**

ADPU-da fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura və dissertanturada kadr hazırlığı aparılan ixtisaslar aşağıda qeyd olunmuşdur;

1202.01 – Analiz və funksional analiz
1203.01 – Komputer elmləri
1211.01 – Diferensial tənliklər
2220.01 – Yarımkeçiricilər fizikası
2301.01 – Analitik kimya
2303.01 – Qeyri-üzvi kimya
2306.01 – Üzvi kimya
2401.01 – Zoologiya
2411.01 – İnsan və heyvan fiziologiyası
2417.01 – Botanika
5401.01 – İqtisadi coğrafiya
5502.01 – Ümumi tarix
5503.02 – Vətən tarixi
5706.01 – Azərbaycan dili
5710.01 – Türk dilləri
5716.01 – Azərbaycan ədəbiyyatı
5717.01 – Türk xalqları ədəbiyyatı
5718.01 – Dünya ədəbiyyatı
5719.01 – Folklorşünaslıq
5801.01 – Rus dilinin tədrisi metodikası
5801.01 – Biologiyanın tədrisi metodikası
5801.01 – İnformatikanın tədrisi metodikası
5801.01 – Fizikanın tədrisi metodikası
5801.01 – İngilis dilinin tədrisi metodikası
5801.01 – Riyaziyyatın tədrisi metodikası
5801.01 – Tarixin tədrisi metodikası
5801.01 – Texnologiyanın tədrisi metodikası
5801.01 – Həyat bilgisinin tədrisi metodikası

5801.01 –  Azərbaycan dilinin tədrisi metodikası
5801.01 –  Kimyanın tədrisi metodikası
5801.01 – Coğrafiyanın tədrisi metodikası
5802.01 – Təhsilin təşkili və planlaşdırılması
5803.01 – Müəllim hazırlığı və fəaliyyəti
5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
5805.01 – Korreksiya pedaqogikası
6104.01 – Pedaqoji psixologiya
6107.01 – Ümumi psixologiya

Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyası müəssisənin elmi-tədqiqat hədəflərinə uyğundur və Azərbaycan Respulikası prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuş proqramlar əsasında həyata keçirilir. (05 iyun 2020 protokol  01 /09-6/185) Eləcə də, ATM-də qeyd olunan fəlsəfə və elmlər doktoru proqramları üzrə dissertasiya şuraları fəaliyyət göstərir.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi “Reytinq qiymətləndirilməsi haqqında” müvəqqəti qaydalara əsasən aparılır. Qiymətləndirmə nəticələrinin daha çox əməkdaşı əhatə edə bilməsi üçün qiymətləndirmə mexanizminin təkmilləşdirilməsinə ehtiyac var.

### 4.3.20  Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

ATM-in 2018-2021-ci illər üzrə Strateji İnkişaf Planında Elm və innovasiyalar sahəsi üzrə istiqamətdə Dissertasiya Şurasının səmərəli fəaliyyətinin təşkili, həmçinin yeni dissertasiya şuralarının yaradılması istiqamətində işlərin aparılması kimi tədbirlər öz əksini tapmışdır. Doktorantura dissertasiyalarının hazırlanması və müdafiəsi "Elmi dərəcələr verilməsi qaydası haqqında  Əsasnamə "nin və "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı əsasında həyata kecirilir. (Azərbaycan Respublikası Prezidentinin  2003-cü il 21 fevral tarixli №857 fərman)

## *4.4 Elmi tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

Publik hüquqi şəxs statusuna malik Azərbaycan Dövlət Pedoqoji Universitetinin Antiplagiat Proqramının qaydaları haqqında sənəd mövcuddur. Sənəddə hüquqi əsaslar, işlərin yüklənməsi proseduru, elmi işlərin plagiata dair qiymətləndirmə meyarları, magistr işlərinin plagiata dair qiymətləndirmə meyarları və apellyasiya proseduru haqqında qaydalar öz əksini

tapmışdır. Universitetlə antiplagiat sistemi "Plagiat.pl" MMC ilə 3 illik müqavilələr bağlanmışdır. Hər il müqaviləyə tənzimləmələrlə bağlı əlavələr olunur.

### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

Antiplagiat Proqramının qaydaları haqqında sənəddə "Elmi işlərin plagiata dair qiymətləndirmə meyarları" və "Magistr işlərinin plagiata dair qiymətləndirmə meyarları" əsasında tədqiqat prosesində köçürmə hallarının qarşısını almağa istiqamətlənmiş tədbirlər həyata keçirilir. “Azərbaycan Dövlət Pedaqoji Universitetində imtahan sessiyasının təşkili və keçirilməsi qaydaları” sənədində isə tədris prosesində köçürmə hallarının qarşısını almaqla bağlı mexanizmlər müəyyənləşdirilmişdir.

### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Universitetdə mövcud olan StrikePlagiarism.com antiplagiat sistemindən həm tələbələr, həm də professor-müəllim heyəti yararlana bilir. Bakalavr və magistr səviyyələrində tədqiqat işləri, məqalələr, dərs vəsaitləri, kitablar, fəlsəfə doktoru dissertasiyaları və elmlər doktoru dissertasiyaları, həmçinin digər təhsil və elmi-tədqiqat müəssisələrinin də mütəxəssislərinin elmi-tədqiqat işləri plagiat sistemində yoxlanılır və müvafiq arayışları təqdim edilir. Özünütəhlil Hesabatında qeyd olunan aşağıdakı cədvəldə illər üzrə plagiat yoxlanılması aparılmış sənədlər barədə statistika öz əksini tapmışdır.

| **№** | **Göstərici** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **CƏMİ** |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Elmlər doktoru dissertasiyası | 10 | 32 | 7 | 20 | 55 | 74 | 2 | **200** |
| 2 | Fəlsəfə doktoru dissertasiyası | 5 | 18 | 26 | 116 | 387 | 301 | 12 | **865** |
| 3 | Dərslik, dərs vəsaiti, kitab | 0 | 5 | 28 | 48 | 75 | 109 | 8 | **273** |
| 4 | Magistr dissertasiyası | 395 | 364 | 421 | 523 | 735 | 776 | 2 | **3216** |
| 5 | Diplom işi | 0 | 6 | 0 | 1 | 0 | 646 | 0 | **653** |
| 6 | Məqalələr | 1 | 37 | 39 | 126 | 63 | 52 | 3 | **321** |
| 7 | Digərləri | 2 | 15 | 724 | 15 | 78 | 102 | 4 | **940** |
| | **CƏMİ** | **413** | **477** | **1245** | **849** | **1393** | **2060** | **31** | **6468** |

# 5 İDARƏETMƏ SİSTEMİ

## *5.1 İdarəetmə orqanları*

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti

ATM-nin Yeni Nizamnaməsi "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin nümunəvi Nizamnaməsi"nə uyğun tərtib edilmiş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 302 nömrəli Qərarı ilə təsdiq edilmişdir. EŞ-də Tədris-Metodiki, Daxili fəaliyyət qaydalarına riayət olunmasını təmin etmək üçün intizam işlərinə baxan İntizam Komissiyası, tədris-yardımçı heyətin işə qəbulunu həyata keçirən Müsabiqə Komissiyası, tədris prosesində, o cümlədən imtahan sessiyası zamanı Universitetdən kənar ictimai nəzarəti həyata keçən İctimai Nəzarət Şurası, elmi adların verilməsi, xarici elmi konfranslara ezam olunma və digər elmi məsələlərlə bağlı Elm Komissiyası, işçilərin attestasiyasına məsul olan Attestasiya Komissiyası, satınalmalarla bağlı məsələləri müzakirə edən Tender Komissiyası fəaliyyət göstərir.

Nizamnamənin 4.7. bəndinə əsasən Universitetdə tədris-metodiki işlərin həyata keçirilməsi üçün Himayəçilər Şurası tərəfindən Elmi-metodiki Şura yaradılmalı və bu Şuranın yaradılması qaydası və səlahiyyətləri Himayəçilər Şurasının təsdiq etdiyi Əsasnamə ilə müəyyən olunmalı olsa da, Himayəçilər Şurası hələ də formalaşdırılmamışdır. Himayəçilər Şurasının formalaşdırılmamasının əsas səbəbi Elm və Təhsil Nazirliyi ilə müzakirə mərhələsində olmasıdır.

EŞ-də fəaliyyət göstərən Tədris-Metodiki Şura yaradılacaq Elmi-Metodiki Şuranın fəaliyyətini də icra edir. Tədris-Metodiki Şuranın elmi-metodiki fəaliyyət istiqaməti 2016-cı ildə təsdiqlənmiş Əsasnaməsinin 2.6. bəndi ilə nizamlanır.

Tədris-Metodiki Şura və EŞ-nin nəzdində fəaliyyət göstərən Elm komissiyasının təsdiqlənmiş Əsasnaməsi (29 dekabr 2022), fəaliyyət planı, protokolları və digər müvafiq sənədləri vardır.

İntizam Komissiyasının 2016-ci il 18 iyul tarixi ilə təsdiqlənmiş Əsasnaməsi mövcuddur. Buna baxmayaarq, İntizam Komissiyasının intizamla bağlı məsələlər yarandıqda fəaliyyət göstərdiyi üçün illik iş planları və digər sənədlərinin mövcud olmadığı bildirildi.

Tender Komissiyası və Maliyyə Komissiyası AR-nin müvafiq qanunvericiliyinə uyğun formada tənzimlənir.

Şəffaflığı və kollegiallığı təmin etmək üçün ictimai əsaslarla Ağsaqqallar Şurası fəaliyyət göstərir. Bu Şuranın fəaliyyəti ictimai əsaslarla olduğu üçün müvafiq Əsasnaməsi və digər müvafiq sənədlərinin olmadığı bildirildi.

Tələbə Həmkarlar İttifaqı Komitəsi və Tələbə Gənclər Təşkilatının sədrləri təhsilalanlar qismində təmsil olunurlar. Bu strukturlar Həmkarlar İttifaqı Komitəsi və Tələbə Gənclər Təşkilatının müvafiq sənədləri ilə öz fəaliyyətlərini tənzimləyirlər.

İctimai Nəzarət Şurası pandemiyaya qədər fəaliyyət göstərsə də, hazırda bu Şuranın heç bir fəaliyyəti yoxdur.

https://e-qanun.az/framework/51178

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

ATM-in idarəetmə orqanlarında əsasən maraqlı tərəflərdən yalnız Tələbə Həmkarlar İttifaqı Komitəsi və Tələbə Gənclər Təşkilatının nümayəndələri təmsil olunur. Tələbə Həmkarlar İttifaqı Komitəsinin fərdi Əsasnaməsi və fəaliyyət planı yoxdur. Bu struktur Həmkarlar İttifaqına bağlı olduğu üçün Həmkarlar İttifaqının Nizamanaməsinə uyğun fəaliyyət göstərir. Eyni vəziyyət Tələbə Gənclər Təşkilatına da aiddir. Hər iki struktur ATM-də tələblərə istiqamətlənmiş bir çox tədbirlər təşkil edir, onların sosial vəziyyəti ilə bağlı addımlar atır. Yeni təsdiq olunmuş Elmi Şuranın tərkibində də digər maraqlı tərəflərin - işəgötürən və ictimaiyyət nümayəndələrinin iştirakı nəzərdə tutulmamışdır. Növbəti Elmi Şura tərkibi təsdiq olunarkən maraqlı tərəflərin işəgötürən və ictimaiyyət nümayəndələrinin iştirakının nəzər alınması tövsiyyə olunur.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Elmi Şuranın Əsasnaməsində Elmi Şura iclaslarının ayda bir dəfədən az olmayaraq keçirilməsi öz əksini tapmışdır. Lakin sənədlərə baxış zamanı məlum olmuşdur ki, bəzən 2 ay ərzində Elmi Şuranın iclası təşkil olunmamışdır. Məsələn, 28.04.2022-ci il tarixində keçirilən Elmi Şura iclasından sonra may, iyun aylarında Elmi Şura iclası keçirilməmişdir. Həmin ilin oktyabr, 2023-cü ilin yanvar aylarında da Elmi Şura iclası təxirə salınmışdır. Halbuki, təqdim olunan iş planında oktyabr ayında Elmi Şura iclası nəzərdə tutulmuşdur. Hal-hazırda EŞ iclasları təşkil edilmir, EŞ yeni tərkibinin Təhsil Naziriliyinin təsdiqinə verildiyi üçün sonuncu iclas 24 fevral 2023-cü il tarixində keçirilmişdir.

Elmi Şuranın tərkibndə fəaliyyət göstərən Tədris-Metodiki Şura, Elm komissiyası təsdiqlənmiş fəaliyyət planlarına uyğun olaraq iclasları təşkil edir və tədbirləri təsdiq edilmiş fəaliyyət planına uyğun icra olunur.

Elmi Şuranın fəaliyyətinin Əsasnamədə qeyd edildiyi kimi fövqəladə vəziyyət olmazsa mütəmadi olaraq vaxtında keçirilməsi və təsdiqlənmiş fəaliyyət planına uyğun təşkil edilməsi məqsədəuyğun olardı. Əgər həmin iclasda müəyyən səbəblərdən müzakirəyə təqdim olunmayan məsələləri Elmi Şuranın növbəti iclasında müzakirə etmələri tövsiyə olunur.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

ATM-də idarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsini nəzərdə tutulmuş formada qeydiyyatı aparılır. İdarəetmə orqanlarının strukturu, ştat cədvəli və heyət üzvlərinin təyinatına dair əmrlər, qərarlar qənaətbəxşdir. İclaslarda iştirak edən şəxslərin qeydiyyatı, iclasların protokolları, çıxarış və qərarları mövcudur. Buna baxmayaraq, Elmi Şurada müzakirə olunan məsələlər bəzi

məqamlarda mövcud illik iş planı və protokollarda öz əksini tapmamışdır. Elmi Şura iclaslarının qeydiyyatı 2021-ci ilin oktyabrında sistemli halda qeydiyyat kitabında aparılır. Ondan öncəki iclasların protokollarının qeydiyyatı aparılmamışdır.

**5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti**

İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu təqdim olunmuş sənədlərdə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət idarə, müəssisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a qismən uyğun təşkil olunmuşdur. Buna baxmyaraq, bəzən sənədlərdə qərarların icrasına nəzarətin təşkilinin vəziyyətini müəyyənləşdirmək və davamlı şəkildə izləmək tam mümkün olmamışdır.

**5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti**

ATM-də aparılmış struktur dəyişikliklər idarəetmə orqanlarının fəaliyyətində şəffaflığı cavabdehliyi səmərəliliyi təmin etsə də idarəetmə orqanlar arasında əlaqə və kommunikasiya nisbətən zəif təşkil edilmişdir. Qeyd olunan məsələ ATM-ə sahə səfəri zamanı struktur orqanların iş prinsipləri və qərarların icrası mexanizmi ilə tanış olarkən nəzərə çarpırdı.

**5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti**

ADPU-da son illərdə aparılmış struktur dəyişikliklər orqanlar daxilində səlahiyyət və vəzifə bölgüsünün həyata keçirilməsini daha operativ həyata keçirilməsini təmin etmişdir. Əsasnaməyə əsasən səlahiyyət və vəzifə bölğüsü müəyyən edilmişdir.

**5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti**

Elmi Şuranın Elmi katibliyi idarəetmə orqanlarının fəaliyyətini, qərarların yerinə yetirilməsini idarəetmə orqanlarının təqdim etdiyi illik hesabatlarla yoxlayır və tənzimləyir, lakin ATM-də müvafiq fəaliyyətlərin qiymətləndirilməsinin mexanizmi mövcud deyildir.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

ATM-də 2017-ci ildən fərqli olaraq, 2019-cu ildə idarəetmə orqanlarında bir sıra dəyişikliklər edilmişdir. 2019-cu ildə aparılan struktur dəyişikliyində Rektoryanı Şura yaradılmışdır. ADPU-nun Rektoryanı Şurası haqqında Əsasnaməsi 2019-cu il 30 yanvar tarixində Elmi Şura iclasında təsdiq edilmişdir. Buna baxmayaraq, Rektoryanı Şuranın fəaliyyət planı yoxdur, burada əsasən həftəlik və günlük məsələlərin müzakirəsi aparılır.

### *5.2 İnsan resurslarının idarə edilməsi*

#### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

ADPU-da 16.05.2022-ci il, 05-97-K əmri əsasında işə qəbul, vakant vəzifələr üzrə müsabiqənin təşkili və keçirilməsində şəffaflığı və obyektivliyi təmin etmək məqsədi ilə işə qəbul komissiyası formalaşdırılmışdır. Seçkili vəzifələrin tutulması müvafiq prosedura uyğun təşkil olunur. Seçkili vəzifələrin müvafiq qəzetlərdə elanlar vasitəsi ilə müsabiqə təşkil olunur.

14 Sentyabr 2022-ci il Elmi Şuranın qərarı ilə ADPU-nun intizam qaydaları təsdiq olunmuşdur. Həmin sənədin II bəndində "İşə qəbuletmə, köçürmə və işdənazatetmə qaydaları" müəyyən olunmuşdur. Həmçinin ADPU professor-müəllim heyətinin də seçim meyarları təsdiq edilmişdir.

#### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

Özünütəhlil Hesabatının strateji inkişaf bölməsində akademik heyət ilə bağlı müəyyən edilmiş hədəflər olsa da, inzibati heyət ilə bağlı bu bölmədə heç bir məlumata rast gəlinmir. “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları”a əsasən bu nisbət 3:1 olmalıdır. Lakin, ATM-də akademik heyətlə inzibati və tədris-köməkçi heyətin nisbəti gözlənilməmişdir. Onu da qeyd etmək lazımdır ki, ATM-in Özünütəhlil Hesabatında qeyd olunan akademik və inzibati heyətinin sayı ilə təqdim olunan ATM struktur işçilərinin sayında uyğunsuzluq vardır.

#### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

ATM-də Universitetin Nizamnaməsi və Elmi Şuranın 30 oktyabr 2019-cu il tarixli qərarı ilə Universitetin professor-müəllim heyətinin əmək haqqı 18% və inzibati heyətin əmək haqqı isə 15 % artırılmışdır. Bu qərara uyğun olaraq sturuktur işçilərinin əmək haqqı sistemi formalaşdırılmışdır. Lakin differensiallaşdırılmanın hansı meyarlara uyğun tətbiq edilməsi qaydaları Komissiyaya təqdim olunmamışdır.

#### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sistemi mövcuddur. Bu sistem ATM-in Nizamnaməsinə uyğun olaraq tənzimlənir. Belə ki, ADPU-da işçilərin motivasiyası və mükafatlandırılması xüsusi struktur rəhbərlərinin təqdimatı əsasında müəyyənləşdirilir. Məsələn, 2022-ci ildə Elm günü münasibəti ilə "İlin gənc alimi və tədqiqatçısı" nominasiyası, "Dünya Azərbaycanlıların Həmrəylik Günü və Yeni il" (29.12.2022), "Müəllimlər Günü"

(03.10.2022) münasibəti ilə, Fəxri Fərman, "100" illik yubileyi ilə, habelə ildə 4 dəfə bütün işçilərə bayram münasibəti ilə əlaqədar pul mükafatı verilir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması sistemi mövcud deyil, yalnız 2022-2023-cü ildə məmnunluq sorğusu təşkil edilmişdir. Bu fəaliyyətin təşkil edilməsi sistematik və müntəzəm xarakter daşımır. ATM-də işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün xüsusi meyarlara əsaslanan mexanizmin hazırlanması tövsiyə olunur.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

Universitet heyəti üçün 2021-2023-cü illərdə 71 təlim (7 beynəlxalq, 64 yerli olmaqla) təşkil edilmişdir. Həmin təlimlərdən 31 təlim ödənişli, 40 təlim isə ödənişsiz əsaslarla həyata keçirilmişdir. Akademik heyəti əhatə edən təlimlər məzmunu əsasən, tədqiqat bacarıqlarının inkişafına (11), texnoloji (6) və pedaqoji (20) səriştələrin artırılmasına yönəlmişdir. Komissiyaya təqdim olunan hesabatda təlimlər daha çox akademik heyəti əhatə etdiyi görünür. Avropa İttifaqı layihələri çərçivəsində ATM-in inzibati struktur nümayəndələri (Beynəlxalq Şöbənin əməkdaşları, prorektor, yuxarı idarəetmə qurumlarının əməkdaşları) müxtəlif təlimlərə cəlb edilmişdir. Bundan başqa, ATM-də mütəmadi olaraq ödənişli əsaslarla “Tyutor (akademik məsləhətçi) hazırlıq” təlimləri təşkil edilir.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

ADPU-da işçilərə münasibətdə sosial və mədəni tədbirlər təşkil edilsə də , bu tədbirlərin təşkili İnsan Resursları şöbəsi tərəfindən icra olunmur. Əsasən, bu fəaliyyətlə Sosial və humanitar işlər üzrə prorektorluq və Həmkarlar İttifaqı məşğul olur.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

ATM-də qeyri-akademik heyətin işə qəbulu haqqında müvafiq Əmr (05-97-K) (16.05.2022) qəbul edilmişdir. İşçilərin işə qəbulu zamanı müvafiq prosedur qaydaları gözlənilir, işə qəbul zamanı şəhid ailələri və qazilərə, Universiteti yüksək göstərici ilə bitirmiş məzunlarına üstünlük verilir. Həmçinin ADPU-da təşkil olunan “Tyutor (akademik məsləhətçi) hazırlıq” təlimlərini uğurla başa vuran müdavimlər müvafiq işlə də təmin olunur.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

ATM-də qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sistemi nizamalayacaq hər hansı bir sənəd yoxdur. Universitetin qeyri-akademik heyətinin fəaliyyətinin qiymətləndirməsi

üzrə sorğular təşkil edilmir. ATM-də insan resurslarının idarə edilməsinin səmərəliyininin artırılması məqsədi ilə işçilərin fəaliyyətinin qiymətləndirməsi sisteminin hazırlanması tövsiyə olunur.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla Universitetdə əmək münasibətləri və mülki münasibətlərin bağlanması və xitam verilməsi həyata keçirilir. ATM-də sahə səfəri çərçivəsində əmək kitabçalarının xüsusi ilə son dövrlər (2019-2023) qaydasında olması müşahidə edilsə də, əmək müqavilələrinə baxış zamanı əməkhaqqının xalis və ya vergi daxil yazıldığı tam məlum olmamışdır. Təqdim olunan ştat cədvəli ilə əmək müqaviləsindəki məbləğ üst-üstə düşmür. Müqavilələrin əmək haqqı hissəsində əməkdaşların əmək haqqı xalis və ya vergi daxil yazılmaqla qeyd olunması məqsədəuyğundur.

## *5.3 Maliyyə resurslarının idarə edilməsi*

### 5.3.1 ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

ATM-in maliyyə resursları mənbələri onun Nizamnaməsinə uyğundur. ADPU-nun gəlirləri müxtəlif istiqamətlərdən formalaşır. ADPU-nun maliyyələşməsinin əsasını dövlət büdcəsi vəsaiti, ödənişli təhsildən gələn gəlirlər və büdcədənkənar daxilolmalar formalaşdırır. Maliyyə mənbələrinin təyinatı üzrə aparılmış planlamadakı müddəalar Universitetin inkişaf istiqaməti  və perspektivləri nöqteyi-nəzərindən Nizamnaməyə uyğundur.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşması aparılmış və illər üzrə təqdim olunmuş illik smetalarda əksini tapmışdır. Maliyyə resursları qısamüddətli dövr üçün planlaşdırılır. Hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilir və Nazirliyə təqdim olunur. Xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur, xərclər proqnozlaşdırılır. Cari il üçün hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir.  Maliyyə resursları ADPU-nun Nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş xərclər smetasına əsasən təyinatı üzrə istifadə olunur.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Maliyyə resursları planlaşdırılarkən Strateji İnkişaf Planına (SİP) olan uyğunluq nəzərə alınır. SİP-də göstərildiyi kimi, ADPU-da əməkdaşlarının maddi motivasiyasının yaxşılaşdırılması məqsədilə səriştə və nəticə əsaslı differensiallaşdırılmış rəqabətqabiliyyətli əməkhaqqı və müxtəlif stimullaşdırıcı paketlər sisteminin yaradılması üçün əməkdaşların və professor-müəllim heyətinin illik fəaliyyətinin Reytinq Qiymətləndirilməsi ilə bağlı qaydalara əsasən, əməkhaqqına əlavələrin, maddi yardım və mükafatların verilməsi mümkündür. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə iş SİP-ə uyğundur. Lakin burada da monitorinqlə əlaqəli natamamlıq nəzərə çarpır.

### 5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti

Əlavə maliyyə resursları əldə etmək imkanları ATM-də azdır. Bu əsasən antiplaqiat proqramı, yataqxana və kiçik həcmli qrantlarladır. Bu isə belə böyük dövriyyəsi olan Universitet üçün çox kiçik məbləğdir.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

ATM-də əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsini müəyyənləşməsini təmin edəcək hər hansı bir mexanizm yaxud monitorinq nəticəsi mövcud deyildir.ATM-ə sahə səfəri zamanı yalnız maliyyə komissiyasının iclas protokolları və rektorun müşavirinin hesabatı təqdim olunmuşdur ki, bu da yalnız ümumi məlumat xarakteri daşıyır.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarından istifadə ATM-in Nizamnaməsinə uyğundur. Universitetin inkişaf istiqaməti üzrə, stimullaşdırıcı tədbirlər çərçivəsində və qəbul olunmuş qərarlara əsasən bölgüsü planlaşdırılır və həyata keçirilir.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması ADPU-nun Nizamnaməsinə uyğun olaraq həyata keçirilir. Nizamnamənin 4.11.5-ci yarımbəndinə əsasən ATM-in illik xərclər smetası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla rektor tərəfindən təsdiq edilir. Nizamnamənin tələblərinə əsasən maliyyə resurslarından təyinatı üzrə səmərəli istifadənin təmin edilməsi ATM-in əsas vəzifələrindən biri olaraq müəyyən edilmişdir. Verifikasiya zamanı təqdim olunan maliyyə sənədlərində büdcə- gəlir və xərc smetalarında qeyd olunan istiqamətlər üzrə bu prinsiplərin qorunduğu aydın olmuşdur.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Sözügedən indikatorun təhlili üzrə ATM tərəfindən yazılı qeydlər və təsdiqedici sənədlər təqdim edilmədiyinə görə sahə səfəri çərçivəsində maliyyə resurslarının təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsinin müəyyənləşdirilməsi mümkün olmamışdır. Bu məsələdə də yalnız rektorun müşavirinin hesabatı əsas olaraq göstərildi ki, bu da vəziyyətin tam mənzərəsini yaratmır.

**5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

ATM-də malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə prosedur "Satınalma Proseduru" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

**5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti**

ADPU-da "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır. ATM-ə sahə səfəri zamanı müvafiq istiqamətdə tərtib olunmuş hesabatlar və təhlil arayışlarına baxış keçirilmişdir.

**5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti**

ADPU-da maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunduğunu və aidiyyəti orqanlarla işin qurulmasının qənaətbəxş vəziyyətdə olduğu müşahidə edildi.

**5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti**

ADPU Nizamnaməsinin 7.1-ci bəndinə əsasən Universitet "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir. Verifikasiya zamanı aydın olmuşdur ki, maliyyə hesabatlarının dərc olunması həyata keçirilmir.

**5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu**

ADPU-da Daxili audit bölməsi yeni yaradılmışdır. Lakin ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit aparılmamışdır.

**5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu**

ATM-də maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit aparılmamışdır və bu səbəbdən də nəzarət tədbirləri görülməmişdir.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

Maliyyə ressurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyət ATM–də nəzərdə tutulur. Bu barədə prorektorlar görüşdə qeyd etmişlər. Lakin daxili və kənar auditin, hesabatlılıq və bunlara əsaslanan təhlillərin, şəffaflığı, dürüstlüyü təmin edən mexanizmlərin olmaması bu istiqamətdə işin aparılmasına mənfi təsir edir.

## *5.4 İnformasiya idarəetmə sistemi*

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ATM-də İnformasiya və kommunikasiya texnologiyaları mərkəzi, tabeçiliyində isə “İstifadəçilərə dəstək”, “Sistem və şəbəkə inzibatçılığı” və “Elektron təhsil” şöbələri fəaliyyət göstərir. Bundan əlavə Kitabxana informasiya mərkəzi də mövcuddur. ATM-də Elm və Təhsil Nazirliyinin ATİS, DİM-in Tələbə və Məzun Məlumat Sistemi, o cümlədən Microsoft 365, Moodle kimi sistemlərdən istifadə edilir. Microsoft 365-də inzibati və akademik heyət həmçinin tələbələr üçün hesab yaradılır. Moodle platformasına, elektron kitabxana portalına və s. xidmətlərə giriş Microsoft 365 hesabları vasitəsilə əlçatan olur.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı , məlumatların yenilənməsi vəziyyəti

ATM-də İnformasiya və kommunikasiya texnologiyaları mərkəzi, tabeçilində isə “İstifadəçilərə dəstək”, “Sistem və şəbəkə inzibatçılığı” və “Elektron təhsil” şöbələri fəaliyyət göstərir. 2019/2020-ci tədris ilindən başlayaraq Moodle platforması tətbiq olunmağa başlanılmış, ilk mərhələdə platformanın texniki olaraq quraşdırılması və sazlanması prosesi həyata keçirilmiş, sonra isə platformadan istifadə qaydaları və mövcud funksionallığın istifadəçilərə çatdırılması üçün silsilə təlimlər təşkil edilmişdir. Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi İKT Mərkəzi tərəfindən 09.01.2021 tarixindən etibarən Moodle LMS təlimləri keçirilməyə başlanmışdır. Təlimlər həftədə üç dəfə olmaqla bir saat müddətində keçirilmişdir. Müəllimlər üçün ümumilikdə filiallar da daxil olmaqla 239 kurs yaradılmışdır. Elektron təhsil şöbəsi davamlı olaraq tədris ilinin sonunda platformadakı məlumatların yenilənməsini həyata keçirir.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

ATM-də bütün səlahiyyət bölgüsü İnformasiya və kommunikasiya texnologiyaları mərkəzi daxilində aparılmışdır, belə ki, "İstifadəçilərə dəstək", "Sistem və şəbəkə inzibatçılığı" və "Elektron təhsil" şöbələri İnformasiya idarəetmə sistemindəki idarəetmə orqanlarıdır.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

ADPU-da Moodle platforması üzərindən müəllim kabinetləri yaradılaraq mühazirə materialları, müxtəlif tapşırıqlar yerləşdirilməsi və tələbələrin qiymətləndirilməsi həyata keçirilsə də, Elektron jurnal modulu istifadəyə verilmədiyindən tələbələrin davamiyyətinin qeydiyyatının aparılması, kollokvium və seminar qiymətlərinin qeydiyyatının həyata keçirilməsi prosesi reallaşdırılmamışdır.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

ATM-də informasiya idarəetmə sisteminin əlçatanlığı tələbə və müəllimlər üçün yaradılmış kabinetlər vasitəsilə təmin olunmuşdur. Mövcud İnformasiya idarəetmə sisteminin tələbələr üçün əlçatanlığı təmin olunsa da, istifadə səviyyəsi qənaətbəxş deyil. Belə ki, yerində baxış zamanı son iki həftə ərzində sistemə girən tələbə sayı 311 nəfər olaraq görünmüşdür.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

Mövcud informasiyaların paylaşılması üsulları və vasitələri daxili və xarici keyfiyyət təminatı mexanizmləri üzrə tədbirlərin idarə olunması və maraqlı tərəflərə çatdırılması prosesi məlumatların Universitetin elektron səhifəsində yerləşdirilməklə yekunlaşır.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

Elm və Təhsil nazirliyinin sistemləri ilə Universitetin tətbiq etdiyi Moodle platforması bir-birindən əlaqəsiz şəkildə fəaliyyət göstərir. Elm və Təhsil Nazirliyinin "ATİS, Dövlət İmtahan Mərkəzinin "Tələbə və Məzun Məlumat Sistemi" bütün ali təhsil müəssisələrində olduğu kimi ADPU-da da tətbiq olunmuşdur. Tədrisin tam elekton və funksional idarəetmə sistemini tətbiqinin strateji hədəflərdə öz əksini tapması məqsədəuyğun olardı.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

ATM-in İnformasiya və kommunikasiya texnologiyaları mərkəzi "FortiGate 200F" avadanlığı və "Cloudflare" şirkəti ilə birgə əməkdaşlıq edərək informasiya təhlükəsizliyini təmin

edir. "Cloudflare" şirkəti ATM-in informasiya texnologiyaları şəbəkəsinə ola biləcək kənar hücumların qarşısını almaq məqsədi ilə müraciətləri filtrdən keçirir, "FortiGate 200F" avadanlığı isə serverdən öncə quraşdırılaraq serverə ola biləcək hər hansı bir kənar müdaxilənin qarşısını almaq funksiyasını yerinə yetirir.

### *5.5 İctimaiyyətlə əlaqələr*

#### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

Universitetin rəsmi (www.adpu.edu.az) saytının yenilənmiş versiyası 2022-ci ildə istifadəyə verilmişdir. Sayt Azərbaycan və ingilis dilində fəaliyyət göstərir. ATM-in rəsmi saytı bütün struktur bölmələri haqqında məlumatları əhatə edir. Rəsmi saytın əsas səhifəsində Çat bölməsi var, onun vasitəsi ilə Universitetlə bağlı suallara operativ cavab tapmaq mümkündür.

ATM-də fəaliyyət göstərən 8 fakültənin ayrı-ayrılıqda səhifəsi (https://adpu.edu.az/index.php/az/t%C9%99dris/fakulteler) və onlar haqqında, fakültələrin mövcud kafedraları, faktiki dərs cədvəlləri və digər məlumatlar yerləşdirilmişdir.

ATM-də İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi 2022-ci ildən fəaliyyət göstərir. İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi yaradılmadıqdan öncə ATM-də kütləvi informasiya vasitələri əlqələrin yaradılması, informasiyaların paylaşılmasını Mətbuat və informasiya şöbəsi icra etmişdir. Adı çəkilən şöbə daha çox məlumatların icitmaiyyətə çatdırılması kimi məsələlərə fokuslanmış, marketinq xidməti həyata keçirməmişdir. Daha sonra Tələbələrlə iş və İctimaiyyətlə əlaqələr şöbəsinin ATM-in ictimaiyyətlə əlaqəli məsələlərini icra etmişdir. Yeni fəaliyyət göstərməsinə baxmayaraq, rəsmi saytın keyfiyyətcə yaxşı təşkil olunması təqdirəlayiq haldır. Bu da bilavasitə İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin fəaliyyətini təkmilləşdirmək üçün çalışan dinamik, gənc kadrların olması ilə əlaqədardır.

#### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

ATM-in rəsmi saytında mövcud olan məlumatlar mütəmadi yenilənir. Universitetin ictimai həyatında baş vermiş xəbərlər gündəlik olaraq rəsmi saytda öz əksini tapır. Buna baxmayaraq, həmin məlumat və xəbərlərin ingilis dilində yayımlanması gecikir. ATM-ə səfər çərçivəsində aparılan müsahibə əsasında məlum olmuşdur ki, ingilis dilli kadr çatışmazlığı bu problemin yaranmasına səbəb olur. Əcnəbilərin ATM-ə cəlb olunması, xarici vətəndaşların mobilliyi və ATM-in beynəlmiləlləşmə siyasəti baxımından bu məlumatların ingilis dilində yerləşdirilməsi məqsədəuyğun olardı.

#### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

ATM-in "Gənc müəllim" qəzeti ADPU-nun fəaliyyətinin ictimaiyyətə çatdırılmasında mühüm rol oynayan kütləvi informasiya vasitəsidir. 65 il nəşr olunan qəzet bugün həm çap, həm

də onlayn formatda dərc olunur. Ənənəvi media ilə yanaşı, ATM-də ictimaiyyəti məlumatlandırılması məqsədi ilə müxtəlif onlayn platformalardan istifadə olunur. Belə ki, Universitetin sosial media şəbəkələri (telegram https://t.me/adpu_edu, facebook https://www.facebook.com/adpu.eduaz, instagram https://www.instagram.com/adpu.eduaz/), Youtube *https://www.youtube.com/adputv*) fəaliyyət göstərir. "ADPUbot" ((https://t.me/aspubot) süni intellekt botu və "Chat Box" vasitəsi ilə APDU haqqında məlumatları operativ şəkildə əldə etmək mümkündür.

ATM eyni zamanda ölkədə fəaliyyət göstərən media qurumları ilə əməkdaşlıq edir, məlumatlar mütəmadi olaraq KİV-ə ötürülür. ATM Azərtac, Trend, APA, məktəbliguşəsi və digər KİV-lə əməkdaşlıq edir.

ADPU-nun 100-illiyi ilə bağlı "Gənc müəllim" qəzetinin xüsusi buraxılışı, "Pedaqoji Universitet 100 il Fakt", Foto arxiv, Pedaqoji Universitetin qəhrəmanları adlı xüsusi Toplular dərc etmişdir. Yubiley nəşrləri "Internet Archive" (https://archive.org/details/@taleh_m_rzayev) platformasında, Prezident Kitabxanası (https://www.ebooks.az/?q=Pedaqoji+Universitet) və Azərbaycan Milli Kitabxanasının elektron bazalarında yerləşdirilmişdir.

Bundan başqa 100 illik münasibəti ilə Youtube platforması üzərində ADPU kanalı yaradılmışdır. 100 illik yubileyə bağlı görülən tədbirlər təqdirəlayiq haldır və bu istiqamətdə aparılan işlərin gələcəkdə də davam etdirilməsi müsbət addım olardı. Məsələn, Youtube kanalında yerləşdirilən məlumatlar müntəzəm yenilənmir. Struktur rəhbəri ilə müsahibə əsasında videoların könüllü tələblər tərəfindən çəkildiyi və bu sosial vasitənin onlar tərəfindən idarə olunduğu məlum oldu. Könüllü tələbələrin bu işə motivasiyasını təşkil etmək, maraq göstərməklərini təmin etmək məqsədi ilə xüsusi mexanizmin təşkil edilməsi məqsədəuyğun olardı. Bundan başqa, ADPU-nun vikipediya açıq ensiklopediyasında mövcud məlumatların hamısı haqqında ətraflı məlumatlar yerləşdirilməyib. Məsələn, Tələbə təşkilatları, biblioqrafiya hissəsində ümumiyyətlə məlumat yoxdur. Bu bölmənin yenidən yazılmasına ehtiyac vardır və məlumatların yerləşdirilməsi tövsiyə olunur.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti

ATM-in strukturunun təsdiqlənmiş Əsasnaməsi və ona uyğun fəaliyyət planı mövcuddur. Struktur Əsasnaməsi 29 dekabr 2022-ci ildə təsdiqlənmişdir. Həmçinin İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin 2022-2023-cü tədris ili üçün nəzərdə tutulan imzalanmış fəaliyyət planı da mövcuddur. Fəaliyyət planında görüləcək işlər, icra müddəti və icraçılar əks olunmuşdur. Fəaliyyət planı strukturun Əsasnaməsi ilə uyğunluq təşkil edir. Fəaliyyət planında nəzərdə tutulan bəzifəaliyyətlərin – ADPU-nun mobil tətbiqinin yaradılması, vikipediada ADPU ilə bağlı məlumatların mövcudluğu tədris ilinin sonuna qədər yekunlaşdırılması tövsiyə olunur.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək istiqamətində bir konkret sənəd və mexanizm yoxdur. Sadəcə tələbələr tərəfindən rəsmi sayt və sosial media səhifələri vasitəsilə Universitetin fəaliyyəti, tədris prosesi

ilə bağlı daxil olan məlumat və müraciətlər müvafiq stukturlara ötürülür. ATM-in fəaliyyəti ilə bağlı maraqlı tərəflərlə görüşlərin keçirilməsi, onların fəaliyyətini qiymətləndirmək üçün mexanizm işlənib hazırlanması tövsiyə olunur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi tərəfindən ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqi Universitetin sosial media platformaları və digər media qurumlarında yayımlanan məlumatların daimi monitorinqi aparılır. Əldə edilmiş nəticələrə əsasən, müəyyən təkmilləşdirilmə işləri görülmüşdür. Bu əsasən ADPU-nun sosial platforma hesablarının işinin təkmilləşdirilməsi ilə bağlıdır.

İctimaiyyətlə əlaqələr və marketinq şöbəsində tərəfindən 1 dəfə Telegram sosial platformasında "Universitetimizin sosial şəbəkələrdəki fəaliyyətini necə qiymətləndirirsiniz?" adlı sorğu keçirilmişdir. Bundan əlavə, Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin keçirdiyi sorğuda "ADPU haqqında ilk məlumatı hardan əldə etmisiniz?" adlı sual yer almışdır. Bundan başqa hər hansı bir sorğu aparılmamışdır.

İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinə bu fəaliyyətini nizamlamaq və daha sistematik etmək məqsədi ilə  xüsusi fəaliyyət planı, mexanizm işləməsi və onların fəaliyyətlərini ətraflı qiymətləndirməyə imkan verəcək sorğunun tərtib edilməsi tövsiyə olunur. Daha dolğun sorğunun hazırlanması və keçirilməsi Şöbənin fəaliyyətinin təkmilləşdirilməsini effektiv şəkildə artıracaqdır.

# 6 İNFRASTRUKTUR

## *6.1 Tədris infrastrukturu*

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

ATM-in tədris binalarının ümumi sahəsi 43783,4 kv.m., faydalı sahəsi isə 27068,83 kv.m. təşkil edir. Tədris binalarının texniki pasportları və invertarizasiya aktları mövcuddur. 87 mühazirə, 131 seminar dərslərinin təlim və tədrisi üçün nəzərdə tutulan otaq fondunun ümumi sahəsi 13647,9 kv.m.-i əhatə edir ki, bu da, təlim və tədris prosesinin təşkili üçün kifayət edir. ATM-ə səfər çərçivəsində tədris binalarına baxış keçirən zaman proyektor və interaktiv lövhələrlə təchiz olunmuş auditoriyalar müşahidə olunmuşdur. Akademik heyət üçün nəzərdə tutulan otaq fondu 1733,45 kv.m. sahəni əhatə etməklə 48 ədəd, İnzibati heyət üçün nəzərdə tutulan otaq fondu isə 5580,12 kv.m. sahəni əhatə etməklə 148 ədəd təşkil etmişdir. ATM-in 3 idman zalı ümumi sahəsi 1645,37 kv.m. sahəni, 4 yeməkxanası ümumi 1009,74 kv.m. sahəni akt zalı isə 1030,5 kv.m. sahəni əhatə edir. Hər təhsilalana düşən ümumi sahə 1,77 kv.m.-dir.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

ATM-də Kitabxana və informasiya mərkəzi nəzdində olan Komplektləşdirmə və kitabişləmə şöbəsi, Biblioqrafiya informasiya xidməti şöbəsi, Elektron resurslar və elektron kataloqun təşkili şöbəsi və Oxuculara xidmət şöbəsi ilə birgə fəaliyyət göstərir. Bütün tədris binaları üzrə kitabxana 2967,5 kv.m. sahəni əhatə edir. Kitabxana otaqlarının ümumi sayı 30, oxu zalında olan yerlərin ümumi sayı isə 315-dir. Kitabxanada kitabların çiplənməsi, müasir tələblərə cavab verən yeni elektron sistem sayəsində kitabxanaçıya ehtiyac olmadan istifadəçilər tərəfindən istənilən kitabların götürülməsi və yaxud qaytarılması, oğurluq əleyhinə sistemin qurulması prosesi üzrə işlər davam etdirilir. Bundan əlavə Kitabxananın oxu zalı, açıq və qapalı fondlarının bir hissəsi tam təmir olunaraq istifadəyə verilmiş, qapalı fondların bir hissəsində isə təmir işləri davam etdirilməkdədir. Kitabxananın ümumi kitab fondu (elektron və çap şəklində) 2022-ci ilin göstəricilərinə istinadən 673270 ədəd təşkil edir. Kitabxananın internet səhifəsi də istifadəçilərin ixtiyarına verilmişdir. https://e-library.adpu.edu.az/

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun 50 laboratoriya elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuşdur. Avadanlıqların böyük əksəriyyətinin istehsal ili köhnə olsa da, istifadəyə yararlı vəziyyətdədir və müvafiq ixtisasa yiyələnmək istəyən tələbələr yarımqrup şəklində laborator tapşırıqları yerinə yetirirlər. Baxış zamanı avadanlıqların bir hissəsinin yeniləndiyi də müşahidə edilmişdir. Mövcud laboratoriyaların 10 ədədi kompüter laboratoriyasıdır və 120 kompüterlə təchiz olunmuşdur.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də mövcud ixtisaslar üzrə təlim prosesinin həyata keçirilməsinə xidmət edən ümumilikdə 50 laboratoriya mövcuddur və tədris edilən fənlərin spesifikliyinə uyğun olaraq tələbələr laboratoriyalara cəlb olunaraq müəyyən tapşırıqları yerinə yetirərək qiymətləndirilirlər. Bu laboratoriyaların böyük əksəriyyəti kimya və fizika fakültələrinin nəzdindədir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ADPU-nun istehsalat təcrübə bazası Şamaxı rayonunun Çuxuryurd kəndində yerləşir. Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi maliyyə çatışmamazlığı səbəbindən təmir işləri tam yekunlaşmayıb. ATM-də yalnız sosial iş ixtisası üzrə təhsil alan tələbələr istehsalat təcrübəsinə göndərilir. Təcrübə yerləri: Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekpertiza və Reabilitasiya Agentliyi, DOST İnkluziv İnkişaf və Yaradıcılıq Mərkəzi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Gənclər evi".

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

ATM-də distant təhsil formasından ancaq pandemiya dövründə istifadə olunub. "Microsoft Teams" və "Moodle" platformaları paralel olaraq tətbiq edilmişdir. Auditoriyalarda interaktiv lövhələr, proyektorlar quraşdırılsada da distant təhsil formasındansa ənənəvi təhsil formasına daha çox üstünlük verilir.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATM-nin balansında 12 ədəd minik avtomobili mövcud olsa da bunlardan 7 ədədi istismara yararlı vəziyyətdədir, rektor və prorektorlara təhkim olunmuşdur.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATM-in bütün tədris binalarında mövcud tədris infrastrukturu təhsilalanlar, akademik və inzibati heyət üçün əlçatandır.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

ATM-ə sahə səfəri zamanı sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu müşahidə olunmamışdır

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

ATM-də 4 tədris binasında 1009,74 kv.m sahəni əhatə edən yeməkxana mövcuddur və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Bakı Regional Bölməsinin 10.03.2023 tarixli 07-23 nömrəli qərarına əsasən fəaliyyət göstərməsinə icazə verilmiş, əməkdaşların və təhsilalanların istifadəsi üçün hazır vəziyyətə gətirilmişdir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

ATM-in nəzdində olan 5 yataqxana binasından cəmi bir bina tələbə yataqxanası kimi istifadədədir, digər dörd binada qaçqınlar və məcburi köçkünlər məskunlaşmışdırlar. Yataqxananın ümumi 7120 kv.m sahəni əhatə edir və ancaq xanımlar üçün istifadəyə verilmişdir. Yataqxanada xaricdən və regionlardan gələn qonaqlar üçün də otaqlar nəzərdə tutulmuşdur. Tələbə yataqxanasında ümumi yer sayı 244, 2022/2023-cü tədris ilində istifadəçi sayı 124 nəfərdir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

ATM-in "Bakı Baş Səhiyyə Mərkəzi " ilə tibbi xidmət müqaviləsi mövcuddur. ATM-də 29 saylı tələbə poliklinikası fəaliyyət göstərir və digər tədris binalarında da tibb otaqları mövcuddur 162,29 kv.m sahəni əhatə edir. Tələbələr tibbi xidmət üçün  zəruri dərman və tibbi ləvazimatlarla

həm TƏBİB, həm də ATM tərəfindən mütəmadi olaraq təmin olunur. Ehtiyac yarandıqda tələbələrə sağlamlıq haqqında göndəriş və arayışlar verilir, stasionar ilkin tibbi yardım göstərilir.

#### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

ATM-in bütün tədris binalarında İnformasiya və kommunikasiya texnologiyaları mərkəzinin nəzarətində olan kompüterlər, proyektorlar və kompüter laboratoriyaları mövcuddur. ATM-də yüksək sürətli internet (300 mbps), korporativ email xidməti təhsilalanlar, akademik və inzibati heyət üçün təmin olunub. Ümumi infrastruktur üzrə təchizat tam təmin olunmasa da, bu istiqamətdə işlərin görülməsi və inkişaf dinamikası müşahidə olunmuşdur.

#### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastruktunun istifadəsinin və istifadəyə yararlığının monitorinqi müəyyən olunmuş mərkəz və şöbələr tərəfindən aparılır. Monitorinq ancaq istismar müddəti bitmiş və ya istifadəyə yararsız avadanlıqların qeydiyyata alınması və təhvil verilməsi ilə yekunlaşır. Auditoriya, laboratoriya, kafedra otaqları, kitabxana, sanitar qovşaqları və digər xidməti otaqların gündəlik təmizliyi və monitorinqinin aparıldığı müşahidə edilmişdir.

### *6.2 Elmi-tədqiqat infrastrukturu*

#### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

ATM-də Elmi Tədqiqat Mərkəzi 2020-ci ildə Elmi Şuranın qərarına əsasən yaradılmışdır. Əsasnamələrinə uyğun olaraq fəaliyyətləri təşkil olunuşdur. Mərkəzin qabaqcıl tədqiqatçıları Hacəttəpə və Qazi Universitetlərində təcrübə topladıqdan sonra Universitetdə dəyirmi masalar təşkil olunmuş və təşviqat işləri aparılmışdır.

#### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Universitetin müəyyən kafedralarının laboratoriyaları qismən müasir avadanlıqlarla təchiz olunsa da, elmi tədqiqat mərkəzinin nəzdində hər hansı bir laboratoriyanın fəaliyyəti müşahidə olunmamışdır.

## 7 BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1 Beynəlmiləlləşmə siyasəti*

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ATM-in beynəlmiləlləşməyə strateji yanaşması müəssisənin ölçüsünü, eləcə də ölkədə və onun hüdudlarından kənarda oynadığı rolu əks etdirir. Bu strateji yanaşmanın əsas məqamları bir sıra strategiya yönümlü sənədlərdə öz əksini tapıb və bu, ATM-in fəaliyyətinin digər seqmentləri ilə aydın şəkildə əlaqələndirilib. Beynəlmiləlləşmə proseslərini idarə edən şöbə rəhbərləri ilə (Beynəlxalq Əlaqələr Departamentinin və Beynəlxalq Layihələr və Qrantlar Departamentinin) aparılan müzakirələr göstərdi ki, sistem mərkəzləşdirilmiş formada fəaliyyət göstərir və daha effektiv səviyyəyə çatmaq üçün Universitet miqyasında strateji səylər göstərilir.

ADPU-nun Beynəlmiləlləşmə Siyasəti 29 dekabr 2022-ci il tarixində təsdiq edilmişdir. Sənəd 5 əsas hissədən ibarətdir. (Universitetin beynəlxalq imicinin təşviqi, Tədris proqramlarının beynəlmiləlləşməsi, Beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrası, Əcnəbi tələbələrin cəlbi, Tədqiqatların beynəlmiləlləşməsi) və Strateji İnkişaf Planına uyğun hazırlanıb, lakin müddət qoyulmayıb. SİP-in yenilənmə tarixi 2023-cü il olduğunu nəzərə alaraq, yeni SİP hazırlananda Beynəlmiləlləşmə Siyasəti sənədinin də ona uyğun yenilənəcəyi qeyd olunub. Yeni Beynəlmiləlləşmə Siyasəti sənədinin daha konkret olması və ən əsası yenilənmə tarixinin da əks olunması məqsədəuyğundur.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

ATM-in Beynəlmiləlləşmə siyasəti sənədində mübadilə proqramları strateji hədəf kimi qeyd edilib (Beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrası). Universitet Aİ-nin bir sıra Universitetləri, eləcə də Türkiyədən daha çox sayda təhsil müəssisəsi ilə ikitərəfli əməkdaşlıqda işləmək imkanlarına malikdir. Mübadilə proqramları 2016-cı ildən etibarən mövcuddur, hal-hazırda Universitetdə aktiv olan 6 Erasmus+ KA1 layihəsi vardır:

| | |
|---|---|
| Vytautas Magnus Universiteti | Litva |
| University College | Danimarka |
| Galati Universiteti | Rumıniya |
| Bartın Universiteti | Türkiyə |
| Gazi Universiteti | Türkiyə |
| Rzeszow Universiteti | Polşa |

Ümumilikdə ATM-in 16 mübadilə proqramı çərçivəsində aktiv olan əməkdaşlıq proqramları mövcuddur:

- 6 Erasmus+ KA1
- 10 Mövlanə Mübadilə Proqramı Protokolu

Bundan əlavə, ATM-in 29 aktiv ikitərəfli müqaviləsi mövcuddur və bunlar birgə konfranslar, birgə nəşrlər və s. məqsədlərlə imzalanmış müqavilələrdir. Mübadilə proqramlarında iştirak üçün müraciətlər Beynəlxalq Şöbə tərəfindən toplanılır, müsahibələr təşkil olunur, seçimlər aparılır. Bütün digər məsələlər tələbələr tərəfindən idarə olunur (viza, qalmaq yeri və s.) Tədris müqavilələri (Learning Agreement) Tədris departamenti ile birgə hazırlanır. Lakin mübadilə proqramlarının iştirakçılarını (təhsilalanları) seçmək üçün təsdiqlənmiş meyarlar mövcud deyil, yalnız şifahi qeyd olunan müəyyən meyarlar üzərindən seçimlər aparılır (ingilis dili biliyi, mübadilə proqramında iştirak barədə ciddilik və s.). Sözügedən meyarların daxili olaraq dəqiqləşdirilməsi və rəsmiləşdirilməsi məqsədəuyğun olardı. Bundan başqa, mübadilə proqramı ilə gələn tələbə (incoming exchange) hal-hazırda yoxdur, indiyə qədər də olmadığı görüşlər zamanı qeyd olundu. Buna səbəb indiyə kimi tədrisin Azərbaycan dilində aparıldığı qeyd olundu. Yeni yaradılmış ingilis dilində tədris olunan proqramlara əsasən gələcəkdə mübadilə proqramı ilə gələn tələbələrin olması gözlənilir. Bu baxımdan təşviq proseslərini aktivləşdirmək məqsədəuyğun olardı. Bununla yanaşı, son bir ildə Universitetin veb-portalının genişləndirilməsi danılmazdır, lakin hələ də yeni tərəfdaşlıq və mübadilələrin, o cümlədən mübadilə proqramları iştirakçıların cəlb edilməsi kontekstində daha da inkişaf etdirilməsinə ehtiyac var. Beynəlmiləlləşmə prosesləri, mübadilə proqramları, yeni tərəfdaşlıqlar və tədqiqatların beynəlmiləlləşdirilməsi üzərində işləyən struktur bölmələrinin əlaqə məlumatlarını veb-saytda yalnız müəyyən axtarış etdikdən sonra tapmaq mümkündür. (Potensial tərəfdaş yuxarıda qeyd olunan əlaqə məlumatları tapmaq üçün əvvəlcə "İdarəetmə" hissəsini araşdırmalıdır). Bu baxımdan sözügedən məlumatların veb-saytda daha əlçatan olmağı məqsədəuyğun olardı.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti

ATM-in Beynəlmiləlləşmə siyasəti sənədində əcnəbi tələbələrin cəlbinə dair xüsusi məqamlar əks olunub. Bura əcnəbi tələbələrin sayının artırılması, əcnəbi tələbə kontingenti üçün təlim keyfiyyətinin yüksəldilməsi, qəbulun diversifikasiyası, Universitetin çoxmədəniyyətli və çoxdilli mühitinin formalaşdırılması daxildir. Universitetin əcnəbi tələbələrlə iş şöbəsi beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma, qəbul prosesi və idarəetmə məsələlərini özündə ehtiva edib birləşdirir. Universitetin hal-hazırda 90 əcnəbi tələbəsi təhsil alır (2022-2023 akademik il üzrə). Əcnəbi təhsilalanların əsas kütləsi türk tələbələridir. Bu səbəbdən 2005-ci ildən bu günə kimi Türk Tələbələrinin İdarəetmə Konseyi aktiv fəaliyyət göstərir (tədbirlər, səfərlər təşkil edir). Əcnəbi tələbələrin cəlbi əsasən sosial şəbəkələrdə, Elm və Təhsil Nazirliyinin “Study in Azerbaijan” portalında və Universitetin veb-saytında yerləşdirilən elanlar üzərindən aparılır. Ayrıca, Türkiyədəki məzunlarla və Türkiyədəki müxtəlif liseylərlə mütəmadi əlaqə saxlanılır və yeni tələbələrin cəlbinin təşviqi prosesinə onların da cəlb olunduğu bildirilir. Bununla yanaşı qeyd etmək zəruridir ki, Universitetin ayrıca olaraq 29 dekabr 2022-ci il tarixində təsdiqlənmiş (2018-ci ildən mövcud olan və 2022-ci ildə yenilənən) Əcnəbi tələbələrlə iş şöbəsinin əsasnaməsi mövcuddur. Bu Əsasnamə Əcnəbi tələbələrlə iş şöbəsinin vəzifələri, funksiyaları, hüquqları və fəaliyyətinin təşkili kimi vacib məsələləri özündə əks etdirir. Lakin qeyd etmək zəruridir ki, əcnəbi tələbələrin cəlbi məqsədilə Universitet və sözügedən şöbə heç bir beynəlxalq təhsil sərgilərində iştirak etmir. Bu baxımdan sözügedən ölkədaxili və

ölkəxarici beynəlxalq təhsil sərgilərində iştirak məqsədəuyğun olardı. Bundan əlavə, ATM-in əcnəbi tələbələrin cəlbi üzrə qarşısına qoyduğu siyasətə dair daha spesifik məqsədlərini və nail olmağa doğru yönəldiyi müəyyən sayını və ya faiz dərəcəsini (məsələn, illər üzrə) də təyin etməsi məqsədəuyğun olardı. Bununla yanaşı, ATM rəhbərliyinə tələbələrin bazarını genişləndirmək üçün potensial tələbələrin cəlbi yönümdə fəaliyyət göstərən nüfuzlu beynəlxalq platformalarla (məsələn, Global Study Partners, UniBuddy, Keystone və digərləri) əlaqə saxlamağı və əməkdaşlıq etməyi nəzərdən keçirmək tövsiyə olunur.

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-in Beynəlmiləlləşmə siyasəti sənədində tədris prosesinin beynəlmiləlləşməsi, beynəlxalq akademik mobilliyin inkişafı və potensialın gücləndirilməsi istiqamətində layihələrin icrası, o cümlədən tədqiqatların beynəlmiləlləşməsinə dair mühim məqamlar öz əksini tapıb. Belə ki, peşəkar xarici mütəxəssislərin tədris prosesinə cəlbi, əcnəbi professor-müəllim heyətinin kurikulumların yenilənməsi işinə cəlb edilməsi, beynəlxalq proqramlar çərçivəsində mobillikdə iştirak edən akademik heyətin və akademik mobilliyin sayının artırılması, əcnəbi professor-müəllim heyətinin, istedadlı tələbələrin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan elmi-tədqiqat strukturlarının yaradılması və elmi araşdırma proqramlarının hazırlanması kimi vacib məsələlər qeyd olunub. Bu istiqamətlərdə işləri inkişaf elətdirmək faydalı olardı.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-in təhsil və tədqiqat sahələrinin beynəlxalq komponentlərini artırmağa çalışdığı aydın şəkildə izlənilə bilir. ATM öz təhsil proqramlarını üç dildə (Azərbaycan, rus və ingilis) təklif etdiyi üçün bunu daha da aydın şəkildə izləmək mümkündür. Bununla belə, görünən odur ki, son 5-6 il ərzində xarici müəllim və tədqiqatçıların Universitet miqyasında fəaliyyətlərə cəlb edilməsi prosesi daha effektiv aparıla bilərdi. Qeydlər göstərir ki, Universitetin ingilis dilində olan proqramları tədqiqatların çox kiçik bir seqmentini əhatə edir. Bu xüsusda qeyd etmək zəruridir ki, Universitetin təklif etdiyi ingilis dilinə əsaslanan təhsil proqramları/modulları nə qədər çox olarsa, təhsilin və tədqiqatın beynəlmiləlləşmə dərəcəsi də bir o qədər yüksək olacaq. Bu xüsusda ingilis dilində təşkil olunan proqramlar həm beynəlxalq alimləri, həm də tələbələri cəlb edir və prosesi hər tərəfdən zənginləşdirir. Şübhəsiz ki, Fulbright proqramı çərçivəsində ADPU-ya gələn təqdiqatçılar ADPU-nun Beynəlmiləlləşmə siyasətinə öz qatqısını verib. Lakin beynəlxalq alimləri layihə əsaslı ekspertlər/mühazirəçilər/tədqiqatçılar kimi deyil, tam ştat işçilər kimi ATM-ə cəlb etmək üçün Universitet tərəfindən görüləcək işlər mövcuddur və bu istiqamətdə işləri və prosesləri inkişaf elətdirmək məqsədəuyğun olardı.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM mötəbər beynəlxalq şəbəkələrə qoşulmaq və çoxregionlu beynəlxalq təşkilatlarda iştirak etmək imkanları baxımından digər qurumlarla yanaşı həmişə ən yüksək yerlərdən birini tutub. Universitetə səfər zamanı müəyyən edilmişdir ki, ATM bir çox peşəkar assosiasiyalara qoşulmaq və iştirak etmək imkanı əldə edərək, akademiyadakı tanınmış mövqeyindən uğurla

istifadə edir. Bununla belə, Universitetin gələcəkdə əsasən pedaqogika yönümlü bir qurum kimi fəaliyyət göstərəcəyi və ya daha geniş tədqiqat komponenti, beynəlxalq səviyyəli tələbə və müəllim heyəti olan hərtərəfli Universitetə çevriləcəyi ilə bağlı əsas suallara hələ cavab verməyib. Bu vacib sualı cavablandırmaq Universitetin daha çox beynəlxalq səviyyədə tanınan təşkilat şəbəkələrinə qoşulmasına kömək edəcəkdir.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Məlumdur ki, ATM bir neçə il əvvəl Azərbaycanda gündəmə gələn Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramında birbaşa iştirak edir. Bu iki illik birgə təşəbbüsün uğurunu, təşkilatın ölçüsünü, eləcə də iştirakçıların sayını nəzərə alaraq, gələcəkdə daha çox oxşar proqramlara ev sahibliyi etmək üçün Universitetin böyük potensiala malik olduğunu qeyd etmək zəruridir. Bu xüsusda, gələcəkdə Universitet asanlıqla daha çox sayda ikili diplom proqramını təsis edə bilər. Bu yöndə işlərin davam etdirilməsi faydalı olardı.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Qeyd olunduğu kimi, ATM-in beynəlmiləlləşmə siyasəti ilə əlaqəli olan və bu xüsusda siyasəti, prosesləri, strukturu və performansı əks etdirən bir neçə əsas sənədi mövcuddur (Beynəlmiləlləşmə Siyasəti sənədi, 2018-2021(2023)-ci illər üzrə Strateji İnkişaf Planı, ondan öncə qəbul edilmiş 2015-2020-ci illər üzrə Strateji İnkişaf Planı). Bu sənədlərin əsasında ATM post-pandemiya mühitində proseslərin strategiyalaşdırılmasına dair mövcud baxış və müəyyən yanaşma yaradıb. Bundan başqa, ayrı-ayrı bölmələr səviyyəsində də illik fəaliyyət planlarının hazırlanması praktikası da mövcuddur. Lakin xüsusi olaraq Beynəlmiləlləşmə siyasəti sənədinin də öncədən müəyyən edilmiş və təsdiq edilmiş yenilənmə dövrünə dair məlumatı əks etdirməsi zəruridir və məqsədəuyğundur.

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti

ATM-in beynəlmiləlləşmə prosesləri Beynəlxalq əlaqələr üzrə prorektorluğun tabeliyində olan 3 əsas şöbə (Beynəlxalq əlaqələr şöbəsi, Beynəlxalq layihələr və qrantlar şöbəsi, Əcnəbi tələbələrlə iş şöbəsi) tərəfindən idarə və koordinasiya olunur. Bundan əlavə, Təlim-tədris Mərkəzi də bu prorektorluğa tabedir. Buna əsaslanaraq qeyd etmək olar ki, Universitetin bilavasitə təhsilin və tədqiqatların beynəlmiləlləşdirilməsi prosesində iştirak edən tərkib hissəsi mövcuddur. Rektorun ümumi rəhbərliyini əsas tutaraq beynəlmiləlləşmə sahəsi ilə bağlı fəaliyyət və işlərə Beynəlxalq əlaqələr üzrə prorektor rəhbərlik edir və bu sistemin səmərəli fəaliyyət göstərdiyini həm ATM-ə səfər zamanı əyani olaraq, həm də verifikasiya üçün təqdim olunan sənədlərdən də müşahidə etmək olar. Universitetin təşkilati diaqramında ATM-in müxtəlif bölmələri, o cümlədən ali rəhbərlik, beynəlmiləlləşmə prosesi ilə məşğul olan bölmələr və dekanlıqlar arasında qarşılıqlı əlaqə aydın şəkildə izlənilir. Burada əsas məqam həm də

ondan ibarətdir ki, Universitetdə təhsilin və tədqiqatların beynəlmiləlləşməsi kontekstində sürətli təkmilləşməyə nail olmaq üçün lazımi sayda insan resursları mövcuddur.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Qeyd etmək zəruridir ki, ATM struktur olaraq beynəlmiləlləşmə proseslərini spesifik olaraq və tamamilə aydın şəkildə ayırır və bu sahələr (beynəlxalq tələbələrin idarə edilməsi və onların qəbulu, beynəlxalq layihələr və qrant almaq perspektivləri, mübadilə proqramları) müxtəlif inzibati vahidlər (sözügedən şöbələr) tərəfindən idarə olunur və bu, təşkilatın ölçüsünü nəzərə alaraq tamamilə əsaslandırılımış formadadır. Eyni zamanda, yuxarıda qeyd olunan üç bölmə üzrə şöbə rəhbərləri də daxil olmaqla ümumilikdə 16 əməkdaş bu sahə üzrə fəaliyyət göstərir.

Beynəlxalq əlaqələr şöbəsinin fəaliyyəti tərəfdaşlarla müqavilə bağlamaq, tələbələrin və işçi heyət üzvlərinin müraciət etmələri üçün mobillik çağırışlarını elan etmək, ərizələrin qəbulu və onların işlənib hazırlanması prosesini təmin etmək və mübadilə proqramlarının iştirakçılarını seçməkdən ibarətdir. Lakin eyni zamanda qeyd etmək lazımdır ki, tələbə mübadilə proqramı müsabiqəsinin qalib(lər)inin seçilməsi prosesi hal-hazırda olduğundan daha rəsmi formada təşkil olunması məqsədəuyğun olardı. Bu proses ingilis dili səviyyəsini yoxlamaq üçün akademik proqram nümayəndəsinin, keyfiyyətin təminatı üzrə əməkdaşın və/və ya digər müvafiq şöbələrdən peşəkarların iştirak etdiyi bir panel tərəfindən aparılarsa, ümumi seçimlərə və nəticələrə daha çox effektivlik və ədalətlilik əlavə edilər. Çox güman ki, bu proses əksər hallarda sözügedən formada həyata keçirilir, lakin daha rəsmiləşdirilmiş sistem daha çox vaxta qənaət etməyə və vəzifələri daha effektiv şəkildə ayırmağa imkan verərdi.

Beynəlmiləlləşmə prosesləri ilə məşğul olan digər şöbə-Beynəlxalq layihələr və qrantlar şöbəsi nisbətən yaxın zamanda Beynəlxalq əlaqələr üzrə prorektorun rəhbərliyi altında yaradılıb və hazırda şöbənin rəhbəri də daxil olmaqla 5 əməkdaşdan ibarətdir. Qeyd etmək zəruridir ki, ATM bu bölmə vasitəsilə  əvvəllər o qədər də aktiv olmadığı sahədə daha fəal və effektiv fəaliyyət göstərməyə çalışır. Lakin bu şöbə, eləcə də Beynəlxalq əlaqələr şöbəsi üçün xüsusi veb-alt-portal mövcud deyil və bu iki sahənin Universitetin öz portalında daha əhatəli və detallı görünməsi çox faydalı olardı.

Əcnəbi tələbələrlə iş şöbəsi də həmçinin rəhbər daxil olmaqla 5 nəfər əməkdaşdan ibarətdir. Bu işçilərin hər biri əcnəbi təhsilalanlarla iş üzrə müəyyən edilmiş sahələr üzrə fəaliyyət göstərirlər (qəbul, təşviq prosesləri, viza və s.). Universitetin əcnəbi tələbələrlə məşğul olan ayrı bir struktur vahidinin olması təqdirəlayiq bir hal kimi dəyərləndirilə bilər.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Mobillik və ya digər mübadilə proqramlarında olarkən Universitet tələbələrinin qazandıqları kreditlərin tanınması prosesini tələbənin akademik tələbləri, eləcə də xüsusi tədris müqaviləsi (Learning Agreement) əsasında təşkil edir. Tədris Müqavilələri tələbə mübadilə proqramına getməzdən öncə imzalanır. Müqavilə 3 maraqlı tərəf tərəfindən imzalanır- tələbə, göndərən tərəf (ADPU), qəbul edən tərəf (tərəfdaş universitet). Öncədən hansı dərslərin

transfer olunacağı razılaşdırılır və bu proses sistemli şəkildə tətbiq olunur. Dərslərin 60-70 % belə olsa uyğunluğu olarsa kreditərin tanınması uğurla həyata keçirilir. Bununla yanaşı, qeyd etmək zəruridir ki, xüsusilə bu məqsəd üçün hazırlanmış və təsdiqlənmiş Kreditlərin tanınması sənədi mövcuddur (ADPU-da tədrisin təşkili, kreditlərin tanınması ve tələbələrin attestasiyasına dair Qaydalar, 29 dekabr 2022-ci il tarixində təsdiq olunub). Tələbələrdən mübadilə qaydalarına riayət etmələri gözlənilir və seçimi uğurla keçdikdən sonra (bunun üçün lazımi prosedur mövcuddur) tərəfdaş Universitetə mübadilə hərəkətliliyin nəticəsi kimi götürülməsi planlaşdırılan dərs və gözlənilən kredit transferi barədə məlumat verilir (ümumi məqsəd tələbənin qayıtdıqdan sonra yenidən kurs və imtahan vermək məcburiyyətində qalmaq ehtimalını azaltmaqdır). Əlavə olaraq, görüşlər zamanı Keyfiyyətin Təminatı bölməsinin də kreditlərin tanınması prosesində iştirak etdiyi qeyd edilmişdir.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

ATM daxilində bir sıra əcnəbi müəllim heyətini təhsil prosesinə cəlb etmək üçün nəzərəçarpacaq dərəcədə operativ proseslər mövcuddur və özünütəhlil hesabatında da təqdim olunan məlumatlar iştirakın cari səviyyəsini göstərir. Bu xüsusda, Fulbright proqramı vasitəsilə və Erasmus+ proqramı vasitəsilə Universitetə gələn müəllimlər olub, daha dəqiq qeyd etsək 2016-cı ildən bugünə kimi Fulbright proqramı ilə gələn müəllimlər sayı 10 nəfər, Erasmus+ proqramı vasitəsi ilə isə gələn müəllimlərin sayı 9 nəfərdən ibarətdir. Beynəlxalq Şöbə sözügedən əcnəbi professor-müəllim heyətini qəbul edir, onların spesifik olaraq hansı fəaliyyətlə məşğul olacağı haqqında qərarı isə fakültələr verir. Bununla belə, Universitetin ölçüsünü və miqyasını nəzərə alaraq, təhsilin və tədqiqatların beynəlmiləlləşdirilməsi prosesinin indiki səviyyədə qalmasının kifayət olmadığını qeyd etmək zəruridir və bu yöndə daha da inkişaf edib fəaliyyət istiqamətlərini aktivləşdirmək məqsədəuyğun olardı.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Universitetin sözügedən sahə ilə əlaqəli normativ sənədləri, eləcə də əməliyyat prosedurları prosesin müxtəlif elementlərinin və strategiyalarının gedişatını və keyfiyyətini izləmək üçün bəzi tədbirlərin tətbiqi və saxlanması yolu ilə beynəlmiləlləşmə təşəbbüslərinin monitorinqinin və qiymətləndirilməsinin vacibliyini vurğulayır. Müəyyən edilmişdir ki, prosesi həm keyfiyyət, həm də kəmiyyət baxımından daha ətraflı araşdırmaq üçün fəaliyyət planlarına əsaslanan prosedurlar operativ istifadədədir. Bununla belə, ATM-də beynəlmiləlləşmə ilə bağlı monitorinq tədbirləri konsepsiyası hələ tətbiq edilməmişdir.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

ATM-ə səfər zamanı baş tutan görüşlər çərçivəsində təsdiq edilmişdir ki, ATM-də AKTS sistemi ilə mübadilə proqramlarının icrası arasında qarşılıqlı əlaqə konseptual səviyyədə mövcuddur. Bundan başqa, bu qarşılıqlı əlaqə “Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı”

(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 451 nömrəli Qərarı ilə təsdiq edilmiş, 20.11.2019) ilə kontekstləşdirilərək normativ aspektə malikdir.

Bu xüsusda, ADPU və Corc Vaşinqton Universiteti arasında imzalanan və 2019-2023-cü illər üçün nəzərdə tutulan ikili diplom proqramını xüsusilə qeyd etmək zəruridir. Dövlət tərəfindən maliyyələşdirilən proqramda nəzərdə tutulmuş 10 fənn CVU tərəfindən tədris olunur, 10 fənn isə ADPU-nin özünün təqdim etdiyi fənnlərdir. Proqram ümumilikdə magistr tələbi olan 120 krediti tam təmin edir- 60 kredit CVU, 60 kredit ADPU tərəfindən. CVU tərəfindən daha çox Təhsil Siyasəti (Education Policy) yönümlü fənnlər, ADPU tərəfindən isə daha çox İdarəetmə (Management) yönümlü fənnlər tədris olunur. Təhsilin proqramının son pilləsi olaraq tələbələr tərəfindən Capstone layihəsi hazırlanır (Capstone üzrə əlavə kreditlər verilmir). Kredit sistemi AKTS (ECTS) sistemi üzərində qurulub. Lakin Corc Vaşinqton Universiteti tərəfindən verilən 30 kredit ADPU-da 60 kreditə bərabər olur (ABŞ təhsil sistemində təqdim olunan 1 kredit 2 AKTS kreditinə bərabər olduğuna görə). Yuxarıda sadalananları nəzərə alaraq qeyd etmək zəruridir ki, proqram üzrə təlim və tədris prosesinin AKTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq hazırlanıb uğurla həyata keçirilir.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

ATM-in mübadilə proqramları ilə əlaqəli fəaliyyəti müəyyən həm xarici, həm də daxili amillərlə izah oluna bilən bir növ qeyri-sabitlik yaşayır. Pandemiya bu prosesdə bir qədər mənfi bir fərq yaratdı, lakin Universitet buna baxmayaraq sürətlə irəliləmək qabiliyyətinə malikdir. Qeyd etmək zəruridir ki, Universitetin 2016-2023-cü illərdə 27 nəfər akademik heyəti beynəlmiləlləşmə proqramlarında iştirak edib. Bununla yanaşı, 9 nəfər əcnəbi akademik heyət nümayəndəsi də ADPU-ya beynəlmiləlləşmə proqramları nəticəsində səfər edib (Erasmus+ layihələri). Bu da, Universitetin beynəlmiləlləşmə siyasətinin nəzərdə tutduğu fəaliyyətləri praktiki şəkildə əks etdirir (beynəlxalq akademik mobilliyin inkişafı, akademik heyətin artırılması). Bununla belə, bu tipli mübadilə və beynəlmiləlləşmə proqramlarının gələcəkdə sayının artırılması məqsədəuyğun olardı.

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

ATM-in tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsinin həyata keçirilməsi prosesi şəffaf, peşəkar, inklüziv və gənc tədqiqatçılara dəstəyi ilə xarakterizə edilə bilər. Rəhbərliklə aparılan müsahibələr nəticəsində ATM-in şəffaflığın çoxsaylı üstünlüklərini, o cümlədən etimadın yaradılması, gündəlik həyata yeni ideyaların daxil edilməsi və gənclərin səlahiyyətlərinin artırılmasını açıq şəkildə qəbul etdiyi təsdiqləndi. Bu təcrübənin uğurla və daha effektiv və dayanıqlı davam etdirilməsi üçün akademik və inzibati heyətin mübadiləsi prosesinin daha sistemli şəkildə keçirilməsi məqsədəuyğun olardı. Bu xüsusda, akademik və inzibati heyətin mübadilə və beynəlmiləlləşmə proqramlarında iştirakını təmin etmək üçün öncədən müəyyən edilmiş və fakültələrlə razılaşdırılmış universal meyarların olmağı zəruri və məqsədəuyğun olardı.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

ATM-ə səfər zamanı müşahidə olundu ki, Universitetin mübadilə proqramları anlayışı çoxölçülüdür. Həm Erasmus+, həm də Mövlana mübadilə proqramları daxil olmaqla, 16 (6 Erasmus+ KA1, 10 Türkiyə universiteti) təhsil müəssisəsi ilə bu mövzuda faktiki iş birliyi həyata keçirilir. Müəyyən bir sistemin mövcud olmasına baxmayaraq, bu sahədə əsas məsələ Universitetin ölçüsünü nəzərə alaraq mübadilə proqramlarında nisbətən daha az fəal iştirak dərəcəsidir və COVID-19 pandemiyasından sonrakı dövrdən daha sürətli bərpa gözlənilməkdədir. Qeyd etmək zəruridir ki, 2016-2023 illərdə 21 nəfər ADPU tələbəsi mübadilə proqramlarında iştirak edib. Bu tələbələrin mübadilə proqramlarında iştirak zamanı qazandığı kreditlərin ADPU-ya transfer prosesi AKTS-in qaydalarına və tələbərinə uyğun olaraq Universitet tərəfindən tənzimlənir. 7.1.2 indikatorunda da qeyd olunduğu kimi, tələbələrin Tədris müqavilələri (Learning Agreement) Tədris departamenti ilə birgə hazırlanır və kreditlərin tanınması prosesi ADPU-da tədrisin təşkili, kreditlərin tanınması və tələbələrin attestasiyasına dair Qaydalar sənədi əsasında həyata keçirilir.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ATM-in Beynəlmiləlləşmə siyasəti sənədi Universitetin beynəlxalq imicinin təşviqi (beynəlxalq səviyyəli təşkilatlarda üzvlük, beynəlxalq reytinqlərdə iştirak) kimi mühüm məsələləri özündə əks etdirir. Universitet hal-hazırda bir neçə beynəlxalq reytinqdə təmsil olunub- uniRank, EduRank, Webometrics, Academic Influence. Beynəlxalq Şöbənin əməkdaşları bu reytinqlərdə iştirakı idarə və təmin edir. Özünütəhlil hesabatında qeyd olunan reytinq cədvəli ilə hazırda mövcud olan reytinq arasında kiçik uyğunsuzluq olsa da (Hesabatda UniRank reytinqi 10196 qeyd olunsa da, UniRank saytında ADPU hal-hazırda irəliləyib və 9710 olaraq qeyd olunub, və Webometrics reytinqi hesabatda 6611 olaraq qeyd olunsa da, Webometrics saytında ADPU hal-hazırda 6614 olaraq qeyd olunub), bu uyğunsuzluğun səbəbi Hesabatın hazırlandığı zaman rəqəmlərin fərqli olmasıdır və Beynəlxalq Şöbənin əməkdaşları da bu faktdan xəbərdar olduqlarını təsdiqlədilər. Bundan əlavə, görüşlər zamanı Strateji İnkişaf Mərkəzi tərəfindən Universitetin QS World Universities Ranking kimi nüfuzlu platformada da 2022-ci ildə qeydiyyatdan keçdiyi qeyd edildi və 2023-cü ildən etibarən daha aktiv iştirak nəzərdə tutulduğu qeyd olundu. QS Ranking-də iştirakın təmini və idarə edilməsi Strateji İnkişaf Mərkəzi tərəfindən aparılır. Hal-hazırda QS-də (Quacquarelli Symonds) Universitetin profili yaradılıb, həmçinin QS HUB portalından qeydiyyatdan keçirilib və Universitetdən zəruri sənədlərin toplanılmasına başlanılıb (məlumat ATM-lərin 2022-ci il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planlarının icrasına dair hesabat formasından götürülüb, Strateji işlər üzrə prorektor tərəfindən təqdim edilib). Bu istiqamətdə işlərin davam etdirilməsi zəruri və məqsədəuyğundur.

## *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Universitetin beynəlmiləlləşmə siyasətinin icrasına dair maliyyə resurslar əsasən Universitetin büdcəsindən, Elm və Təhsil Nazirliyindən və Avropa Birliyinin qrant layihələrindən formalaşır.

Avropa Birliyindən alınan qrantlar KA1 və KA2 layihələri üzərindən həyata keçirilir. Bu xüsusda, həm Özünütəhlil Hesabatında qeyd olunan, həm də ATM-ə səfər zamanı təqdim olunan sənədlərə əsaslanaraq 5 əsas layihəni və onlara ayrılan büdcəni qeyd etmək zəruridir:

| | |
|---|---|
| "Azərbaycan Universitetlərində Təlim və Tədrisin təkmilləşdirilməsi" (PETRA) Erasmus+ KA2 layihəsi (2017-2020) | 66.093 Avro |
| "Azərbaycan Universitetlərində Keyfiyyətə Nəzarət Mərkəzinin Yaradılması və İnkişaf Etdirilməsi" (EQAC) Erasmus+ KA2 layihəsi (2017-2021) | 43.672 Avro |
| "Azərbaycan və Rusiya ali təhsil müəssisələrində tədris, öyrənmə və qiymətləndirmədə təhsilin daxili keyfiyyət təminatının artırılması (IQIinAR) Erasmus+ KA2 layihəsi (15.01.2021-14.01.2024) | 68.875 Avro |
| "Azərbaycanda Rektorlar Konfransının Yaradılması" (ECAR) Erasmus+ KA2 layihəsi (2021-2023) | 39.328 Avro |
| "Müsəlman Dünyası ilə Ali Təhsil Dialoqu" layihəsi (DAAD) (2021-2023) | 30.097 Avro |

Bu layihələrin maliyyələşməsini təsdiq edən sənədlər mövcuddur və Universitetə səfər zamanı təqdim edilmişdir. Bundan əlavə, beynəlmiləlləşmə siyasətini təmin edən 3 əsas şöbənin öz büdcələri olmasa da, ATM-in ümumi büdcəsindən ehtiyac yarandığı təqdirdə maliyyə vəsaitləri ayrılır və bütün ehtiyaclar qarşılanır. (məs. səfərlərin, təlimlərin maliyyələşdirirməsi üçün). Bununla yanaşı, beynəlxalq konfransların və ictimai əhəmiyyət kəsb edən tədbirlərin təşkili, sahə ilə bağlı işçilərin maaşları, beynəlxalq reytinqlə bağlı xərclərin maliyyələşdirilməsi, yataqxana ilə bağlı xərclər və s. kimi beynəlmiləlləşmə prosesinə öz əvəzsiz qatqısını verən vacib sahələr də Universitetin büdcəsi tərəfindən məliyyələşir. Gələcəkdə bu xüsusda effektivliyi artırmaq məqsədilə beynəlmiləlləşmə proseslərinə bilavasitə aid olan və töhfə verən şöbələrin xüsusi olaraq beynəlmiləlləşmə fəaliyyətlərinə dair öncədən müəyyən edilmiş büdcə planlarının hazırlanması və müvafiq vəsaitlərin ayrılması da faydalı olardı.

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

ATM-ə səfər və keçirilmiş müvafiq görüşlər nəticəsi olaraq qeyd etmək zəruridir ki, müvafiq prorektorluğun fakültələrlə, eləcə də Keyfiyyətin təminatı şöbəsi ilə sistemli şəkildə davam edən əlaqələri mövcuddur və bunun müsbət hal kimi dəyərləndirilməsi vacibdir. Beynəlmiləlləşmə siyasətini təmin edən 3 əsas şöbəyə gəldikdə isə (Beynəlxalq əlaqələr şöbəsi, Beynəlxalq layihələr və qrantlar şöbəsi və Əcnəbi tələbələrlə iş şöbəsi), onların işinə və ümumilikdə beynəlmiləlləşmə siyasətinin icrasına dair insan resursların ayrılması vəziyyəti 7.2.2 indikatorunda hərtərəfli təsvir edilmişdir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Universitetin hal-hazırda mövcud olan infrastrukturu tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsinin həyata keçirilməsi prosesini təmin edir və bu xüsusda binaların olmaması və ya infrastruktur uyğunsuzluğu kimi faktorlarla qarşılaşmır və məhdudlaşdırılmır. ATM-ə səfər nəticəsi olaraq zəruri olan infrastrukturun mövcud olmasını təsdiq etmək mümkündür. Eyni zamanda qeyd etmək lazımdır ki, Universitetin yataqxanasında hal-hazırkı vəziyyətə əsasən yalnız qızların qalmağı mümkündür və hal-hazırda 5 əcnəbi qız tələbə Universitetin yataqxanasında yaşayır. Bununla əlaqədar gələcəkdə yataqxana strukturunu təkmilləşdirib orada oğlanların da qalmağının mümkünlüyünü təmin etmək məqsədəuyğun olardı.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

ATM-də müvafiq səviyyədə hesabatlılıq mədəniyyətini müşahidə etmək mümkündür. Həmçinin ATM-in beynəlmiləlləşmə prosesləri üçün mühüm olan bir sıra mövzular gecikmə olmadan birbaşa Universitetin yuxarı səviyyəli rəhbərliyinə ünvanlandırıldığını da qeyd etmək zəruridir. Bundan başqa qeyd etmək lazımdır ki, xüsusi strukturlaşdırılmış monitorinq mexanizminin mövcud olmadığına baxmayaraq, ildə iki dəfə olmaq şərtilə Beynəlxalq şöbə rəhbərliyə görülən işlər haqqında hesabatlar təqdim edir. Həmin hesabatlarla Universitetə səfər zamanı tanış olmaq mümkün oldu. Gələcəkdə belə bir mexanizmin rəsmi olaraq formalaşdırılması və hesabatların hər iki formada- yarımillik və illik olaraq hazırlanması daha faydalı olardı.

## *7.4 Beynəlmiləlləşmə performansı*

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

ATM-in beynəlmiləlləşmə prosesləri ilə əlaqəli olan şöbələr ayrı-ayrılıqda müəyyən qaydalarda öz fəaliyyətlərin nəticələrini əks etdirən hesabatlar hazırlayıb Universitetin rəhbərliyinə təqdim edirlər. Bu hesabatlar həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini

müəyyən mənada əks etdirib əhatə edir. Bununla yanaşı, Universitetin beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına vahid və strukturlaşmış bir mexanizminin də gələcəkdə formalaşdırılması məqsədəuyğun olardı.

### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

ATM-in Beynəlxalq əlaqələr üzrə prorektorluğu tabeliyində Təlim-tədris mərkəzi fəaliyyət göstərir. Bu mərkəz müxtəlif növ ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin və təlimlərinin təşkilində və həyata keçirilməsində əvəzolunmaz rol oynayır. Bununla yanaşı, Universitetin Layihələr və Qrantlar Şöbəsi Təlim-Tədris Mərkəzi ilə birlikdə bir sıra vacib təlimlər təşkil edilib. ATM-ə sahə səfəri zaman əldə olunan sənədlərə əsasən, bu təlimlər bir neçə istiqamətdə təşkil olunub: Layihələrin idarəedilməsi (24.01.22-04.02.22, 40 nəfər iştirakçı), Effektiv layihə təkliflərinin verilməsi və yazılması (19-20.07.22, 32 nəfər iştirakçı), Layihələrin maliyyələşmə imkanı (19.05.22 və 26.10.22, 70 nəfər iştirakçı). Təlimlərdə iştirak üçün elanlar Təlim-Tədris Mərkəzi tərəfindən verilir, həmçinin təlimlərin texniki tərəfləri də bu mərkəz tərəfindən idarə olunur. Təlim-Tədris mərkəzi fakültələrə elanlar göndərərək, maraqlı şəxsləri seçib müsahibə edir. Qeyd etmək lazımdır ki, təlimlərə regionlardan da qoşulan iştirakçıların olması təqdirəlayiq bir haldır. Bugünə kimi baş tutan və adları qeyd olunan təlimlərin bir hissəsi onlayn, bir hissəsi canlı şəkildə həyata keçirilib. Bundan əlavə, Layihələr və Qrantlar şöbəsinin təşkilatı dəstəyi ilə Jean Monnet tədbirləri və Ali təhsildə potensialın gücləndirilməsi adlı seminar (16.03.23), həmçinin Erasmus+ Məlumat sessiyası (27.12.22) da keçirilmişdir. Bu tipli təlimlərin və ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin davam etdirilməsi və sayının artırılması tövsiyyə olunur.

**Komissiyanın istiqamətlər üzrə təhlili**

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | • SİP-in mövcudluğu<br>• SİP-in icrasına dair hesabatın mövcudluğu<br>• SİP-in ATM-in GZİT (SWOT) təhlilinə uyğun aparılması<br>• Strateji məsələlər üzrə ayrıca struktur vahidinin mövcudluğu |
| **Zəif tərəflər** | • SİP-in iş planı formasında təsviri<br>• Gözlənilən nəticələrin SİP-də əvvəlcədən qeyd edilməməsi<br>• Bütün maraqlı tərəflərin SİP-in hazırlanma və icrasına cəlb edilməməsi<br>• ATM-in fəaliyyət məqsədinin SİP-də göstərilməməsi<br>• Növbəti SİP üçün fəaliyyət planının olmaması<br>• Strukturlar üzrə SİP-ə dair ayrı hesabatlılığın olmaması<br>• SİP-in icrasının vaxtaşırı monitorinqi mexanizminin olmaması |
| **İmkanlar** | • Strateji məsələlər üzrə ayrılıqda mərkəzin mövcudluğu<br>• GZİT (SWOT) təhlilinin aparılması |
| **Təhdidlər** | • 2018/2021-ci illər üzrə SİP-in müddəti bitdikdən sonra, vaxtı 29 dekabr 2022-ci il tarixindən 2023-cü ilin sonunadək uzadılıb. Bu zaman müddətində SİP barədə məlumatsızlıq var. Bu halın gələcəkdə davam etməsi SİP-in icrası vəziyyətini izləməyə imkan verməyə bilər.<br>• SİP-də əksini tapan məsələlərin bir qismi strateji məsələdən daha çox gündəlik məsələ mahiyyətini daşıyır (ingilis dilində bukletlərin çapı, tələbələrlə görüş, infrastrukturun qeydiyyatının aparılması, məşhur məzunların adlarının auditoriyalara verilməsi). Bu hal |

| | |
|---|---|
| | daha strateji məsələlərin diqqətdən yayınmasına, eləcə də ATM-in strateji inkişafına mane ola bilər<br>• SİP-in hazırlanması, işçi qrupun iş bölgüsü, büdcə planlaşdırılması, icrası, hesabatlılığı və ona nəzarətlə bağlı vahid sistem formalaşmayıb. Vahid sistemin olmaması SİP-in pərakəndə təşkilinə, onun icrasının və nəticələrinin izlənilməməsinə gətirib çıxara bilər. |
| **Komissiyanın tövsiyələri** | • Hər hansı dövr üçün SİP-in icra müddətinin uzadılmasına ehtiyac varsa, bunun SİP-in müddəti bitdikdən dərhal sonra edilməsi;<br>• SİP-də nəzərdə tutulan məsələlərin daha strateji istiqamətlərə yönəlməsi;<br>• SİP-in strukturunun ATM-in iş planı formasında təsvir edilməməsi;<br>• SİP hazırlandıqdan sonra cari SİP formasında iş planının hazırlanması;<br>• SİP-in bütün mərhələlərinin vahid sistemlə idarə edilməsi;<br>• SİP-in işçi qrupu arasında iş bölgüsünün hazırlanması, onların mütəmadi hesabatlılığı, ümumilikdə müəssisə üzrə vahid Komissiya tərəfindən SİP-in monitorinqinin aparılması;<br>• SİP-in monitorinqindən sonra ehtiyac olarsa, yeni tədbirlər planının hazırlanması, icrası və nəzarət mexanizminin formalaşdırılması (PDCA modelinin işləkliyi);<br>• Hər yeni SİP-də ATM-in zəif tərəflərinin və əvvəlki SİP-də icrası mümkün olmayan məsələlərin nəzərə alınması;<br>• SİP-in hazırlanmasında, hətta işçi qrupun tərkibində maraqlı tərəflərin, xüsusən sənaye nümayəndələrinin iştirakı. Bunu ən sadə halda müəssisənin birbaşa əməkdaşlığı olan orta təhsil müəssisələri (məs. baza məktəbi olan 7 №-li məktəb) ilə birlikdə həyata keçirə bilərlər. |

| 2. Keyfiyyət təminatı | |
|---|---|
| **Güclü tərəflər** | • Keyfiyyət təminatı şöbəsinin mövcudluğu;<br>• Keyfiyyət siyasəti sənədinin mövcudluğu;<br>• Keyfiyyət mədəniyyətinin tədricən formalaşması;<br>• Keyfiyyət təminatı sisteminin sxem təsviri;<br>• Sorğu və qiymətləndirilmə işlərinin aparılması;<br>• Keyfiyyət təminatı şöbəsi nəzdində işlək işçi qrupun olması;<br>• Özünütəhlil Hesabatının aparılması;<br>• Rəhbərliyin bilavasitə proses haqqında məlumatlılığı. |
| **Zəif tərəflər** | • Keyfiyyət təminatı ilə bağlı faktiki və işlək Komissiyanın olmaması;<br>• Bütün maraqlı tərəflərin prosesə cəlb edilməməsi;<br>• Görülən işlərin nəticəsinin tam izlənilməməsi (PDCA modelinin işlək olmaması) ;<br>• Görülən işlərə dair təlimat və ya prosedurların olmaması (məs., sorğularla bağlı) ;<br>• Keyfiyyət təminatına dair məlumat bələdçisinin olmaması;<br>• Özünütəhlil Hesabatının sadəcə bir il üzrə (12.05.2021) aparılması;<br>• Müəssisənin daxili monitorinq və ya audit mexanizminin olmaması. |
| **İmkanlar** | • EQAC layihəsi çərçivəsində tərəfdaşlığın olması;<br>• Keyfiyyət təminatı üzrə ayrılıqda struktur vahidinin (şöbənin) mövcudluğu;<br>• Reytinq qiymətləndirilmə sisteminin mövcudluğu. |
| **Təhdidlər** | • Keyfiyyət təminatı siyasəti sənədi mövcud olsa da, məzmun və işləklik baxımından çatışmazlıqlar vardır. Bu keyfiyyət təminatı siyasətinin maraqlı tərəflər tərəfindən düzgün mənimsənilməməsinə səbəb ola bilər |

| | |
|---|---|
| | • Keyfiyyət təminatı üzrə ayrılıqda Komissiyanın olmaması, onun sistemli idarəedilməsini ləngidə bilər<br>• Keyfiyyət təminatı üzrə bələlədçinin olmaması keyfiyyət təminatı üzrə məlumatsızlığa, dolayısı ilə sistemin effektivliyinə mənfi təsir edə bilər.<br>• Monitorinq mexanizminin formalaşdırılmaması müəssisəsinin özünüqiymətləndirmə işinin sistemliliyini və mütəmadiliyini ləngidə bilər<br>• Vahid məlumat toplama sisteminin olmaması (məs., sorğuların vahid mərkəzdən/strukturdan idarə edilməməsi) maraqlı tərəflərin rəyinin öyrənilməsi, dolayısı ilə çatışmazlıqların aradan qaldırılması işini ləngidə bilər. |
| **Komissiyanın tövsiyələri** | • Mövcud sənədlərin (siyasət, reytinq qiymətləndirmə təlimatı və s.kimi) kargüzarlığa dair normativlərə uyğunlaşdırılması, onların məzmun və struktur cəhətdən təkmilləşdirilməsi;<br>• Keyfiyyət təminatı üzrə müstəqil komissiyanın, eləcə də, onun Əsasnaməsinin, fəaliyyət planın formalaşdırılması;<br>• Keyfiyyət təminatı üzrə qaydalar toplusunun (bələdçi) formalaşdırılması;<br>• Məlumat toplamanın vahid mərkəzdən idarə edilməsi (məs., sorğuların təşkilinə dair prosedurun yaradılması)<br>• Şöbənin strukturu ilə yanaşı, bütün strukturlardan keyfiyyət üzrə məsul şəxsin daxil olduğu işçi qrupun fəaliyyətinin təkmilləşdirilməsi və tərkibinə bütün maraqlı tərəflərin cəlb edilməsi;<br>• Daxili audit və ya monitorinq mexanizminin formalaşdırılması ilə vaxtaşırı daxili auditlərin keçirilməsi, onların nəticələrinə uyğun tədbirlərin görülməsi<br>• Keçirilən auditin nəticəsinə, eləcə də iş planına müvafiq olaraq nəinki keyfiyyət təminatı sistemi, eləcə də müəssisə üzrə illik özünüqiymətləndirmə hesabatının hazırlanması<br>• Müəssisədaxili keçirilən sorğuların məzmun və həcm etibarilə təkmilləşdirilməsi (sualların nəticə yönümlü olması, sayının real qiymətləndirməyə imkan verəcək hədddə olması, 60 suallıq meqasorğu bir qədər çoxdur), |

| | |
|---|---|
| | • Şöbənin, ümumilikdə strukturların fəaliyyətlərinə dair prosedurların hazırlanması (bu, həmçinin, yeni işə başlayanlar üçün də təlimat xarakteri daşımaqla görülən işin mərhələli təsvirini aydınlaşdırmağa imkan verər)<br>• Keyfiyyət təminatı sistemi üzrə həyata keçirilən işlərin icrası, izlənilməsi mexanizminin formalaşdırılması |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | • Özünü inkişaf etdirən novator, savadlı, peşəkar akademik heyətin mövcudluğu;<br>• Tələbə qəbulu prosesində müsbət dinamikanın olması;<br>• Akademik heyətin pedoqoji və texnoloji səriştələrinin yüksəldilməsinin stimullaşdırılması prosesinin aparılması tendensiyası;<br>• Beynəlxalq proqramların inteqrasiyası;<br>• Tədris planlarında balansın qorunması;<br>• İxtisas istiqaməti üzrə təcrübənin təşkili;<br>• Dərslərin müasir təlim-tədris üsulları ilə təşkil edilməsi. |
| **Zəif tərəflər** | • Strukturlar arası koordinasiyanın zəifliyi;<br>• Sənədləşmənin mərkəzləşmiş qaydada aparılmaması;<br>• Bəzi hallarda tədris sənədləşməsinin əmrləşdirilmə, protokollaşdırılma və rəsmiləşdirilməsinin aparılmaması;<br>• Müxtəlif istiqamətlərdə sorğuların keçirilməməsi;<br>• Seçmə fənn seçiminin sərbəstliyinin və ya bu istiqamətdə mexanizmin olmaması;<br>• Elektron idarəetmə sisteminin olmaması;<br>• Elektron jurnalın olmaması;<br>• Elektron kitabxanalara çıxışın olmaması;<br>• “Moodle TİS” platformasından istifadə miqyasının kifayət qədər geniş olmaması; |

| | |
|---|---|
| | • Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının olmaması;<br>• Təhsil proqramlarının monitorinqi strategiyası və iş planının olmaması. |
| **İmkanlar** | • Peşəkar akademik heyət<br>• Yeni yaradılmış strukturların fəaliyyət perspektivi<br>• Məzunların ixtisas istiqaməti üzrə karyera inkişafı |
| **Təhdidlər** | • İxtisas istiqamətlərinin məhdudluğu (yalnız pedoqoji)<br>• Strukturlararası koordinasiyanın zəifliyi<br>• Müxtəlif istiqamətlərdə monitorinq və nəzarət mexanizminin olmaması |
| **Komissiyanın tövsiyələri** | • Elektron Universitet sisteminin təkmilləşdirilməsi;<br>• Müxtəlif mexanizmlərin tətbiqi ilə tədrisin keyfiyyətinin yüksəldilməsi (monitorinq, diaqnostika və müzakirə platformaları);<br>• ATM-in böyüklüyünü nəzərə alaraq strukturlararası informasiya mübadiləsi sisteminin formalaşdırılması;<br>• Seçmə fənn seçiminin sərbəstliyinin təmin edilməsi və bu istiqamətdə mexanizmin yaradılması;<br>• Öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin yaradılması;<br>• Elektron jurnalın tətbiq olunması;<br>• Elektron kitabxanalara çıxışı təmin edilməsi;<br>• Sağlamlıq imkanları məhdud şəxslərin tədris prosesində nəzərə alınması ilə bağlı konkret mexanizmlərin müəyyənləşdirilməsi;<br>• Təhsilverənlərin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən seçim sərbəsrtliyinin Bolonya prinsipinə uyğun olaraq təmin olunması;<br>• Təhsil proqramlarının monitorinqi strategiyası və iş planı hazırlanması; |

| | |
|---|---|
| | • Tələbə və məzunlara göstərilən karyera xidmətlərinin daha genişləndirmək - CV yazılması, yumşaq bacarıqların formalaşdırılması, idarəetmə bacarıqları, sosial vərdiş və bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı təlimlər və bu istiqamətdə işlərin aparılması;<br>• Əmək bazarının tələb və təkliflərini dəyərləndirərək, bu istiqamətdə sistematik işin aparılması, xarici universitetlərin təcrübəsindən istifadə edilməsi;<br>• Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi ilə bağlı əhatəli və sistemli işlərin aparılması. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | • Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması;<br>• Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması (Gənc Alimlər və Tədqiqatçılar Şurası) ;<br>• Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcud olması;<br>• Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmələrin olması;<br>• Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. keçirilməsi və bu tədbirlərə digər müəssisə və ölkələrin tədqiqatçılarının cəlb olunması;<br>• Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin olması;<br>• Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu; |

| | |
|---|---|
| **Zəif tərəflər** | • ATM-in elmi-tədqiqat strategiya sənədinin olmaması;<br>• Elmi-tədqiqat siyasəti, onun məqsədlərini və prioritet tədqiqat sahələrini və istiqamətlərini, təşviq mexazimlərini və tədqiqat fəaliyyətinin idarə olunmasını özündə əks etdirən sənədin olmaması;<br>• Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olmaması;<br>• Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirin olmaması;<br>• Birgə tədqiqat proqramlarının olmaması;<br>• Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak etməməsi;<br>• Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksində artım dinamikasının olmaması;<br>• Magistratura səviyyəsində bəzi ixtisasların tədris planlarında (Riyaziyyatın tədrisi metodikası və metodologiyası, Texnologiya fənninin tədrisi metodikası və metodologiyası, İnformatika fənninin tədrisi metodikası və metodologiyası, Korreksiyaedici təlimin metodika və metodologiyası, Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili), Təhsildə sosial- psixoloji) tədqiqat yönümlü fənlərin nəzərə alınmaması. |
| **İmkanlar** | • Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmələrin və onların illik fəaliyyət planının mövcudluğu bu istiqamətdə kompleks işlər görməyə şərait yaradır;<br>• Müxtəlif elmi müəssisə və təşkilatlarla bağlanılmış müqavilələrdə tədqiqat sahəsində əməkdaşlıq nəzərdə tutulur;<br>• Universitetdə tədqiqat materiallarını dərc etdirilməsi üçün dövri-elmi nəşrlərinin olması elmi-tədqiqat işlərini müəyyən qədər stimullaşdırır;<br>• Reytinq qiymətləndirilməsi haqqında müvəqqəti qaydalara əsasən elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsinin aparılması bu sahədə hesabatlılığı təmin edir; |

| | |
|---|---|
| | • Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi bu istiqamət üzrə potensialın artırılmasına kömək edir;<br>• Doktorantura proqramlarının təşviq edilməsi ilə bağlı xüsusi bir mexanizm olmasa da, doktorant və dissertantların daimi ştatda pedaqoji və elmi tədqiqat fəaliyyətinə cəlb olunur;<br>• ATM-də köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu və antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etməsi akademik dürüstlük mədəniyyətinin formalaşmasına öz töhfəsini verir. |
| **Təhdidlər** | • Elmi-tədqiqat siyasəti, onun məqsədlərini və prioritet tədqiqat sahələrini və istiqamətlərini, təşviq mexanizmlərini və tədqiqat fəaliyyətinin idarə olunmasını özündə əks etdirən elmi-tədqiqat üzrə sənədin olmaması ATM-in elmi istiqamət üzrə səmərəli və nəticəyönümlü fəaliyyətinə mane olur;<br>• Elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər olsa da, mexanizmin əhatəli və hamı üçün əlçatan olmaması bu sahədə görülə biləcək işlərin reallaşmasına əngəl yaradır;<br>• Elmi-tədqiqat fəaliyyəti üzrə patentlər əldə edilsə də, kommersiyalaşdırma mexanizmi olmaması bu istiqanətdə işlərin daha da intensivləşməsinə maneələr yaradır;<br>• Müxtəlif elmi müəssisə və təşkilatlarla bağlanılmış müqavilələrdə tədqiqat sahəsində əməkdaşlıq nəzərdə tutulsa da, birgə tədqiqat layihələrinin həyata keçirilməsinə dair müvafiq statistika və sübutların olmaması bu əməkdaşlıqların reallaşdırılmadığına dair fikir formalaşdırır;<br>• Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak etməməsi onların müxtəlif elm və tədqiqat sahələri üzrə dünya elm ictimaiyyətini birləşdirən cəmiyyətlər, institutlardan kənar qalmasına səbəb olur və mümkün əməkdaşlıqlara, |

| | |
|---|---|
| | birgə tədqiqat layihələrinə, tədqiqatçıların beynəlxalq təcrübədən yararlanmasına və s. mane olur;<br>• Magistratura səviyyəsində bəzi ixtisasların tədris planlarında (Riyaziyyatın tədrisi metodikası və metodologiyası, Texnologiya fənninin tədrisi metodikası və metodologiyası, İnformatika fənninin tədrisi metodikası və metodologiyası, Korreksiyaedici təlimin metodika və metodologiyası, Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili), Təhsildə sosial- psixoloji) tədqiqat yönümlü fənlərin nəzərə alınmaması, bu ixtisasın məzunlarının hazırlayacağı magistr dissertasiya işlərinin keyfiyyətli olmasına şübhələr yaradır. |
| **Komissiyanın tövsiyələri** | • Elmi-tədqiqat siyasəti, onun məqsədlərini və prioritet tədqiqat sahələrini və istiqamətlərini, təşviq mexazimlərini və tədqiqat fəaliyyətinin idarə olunmasını özündə əks etdirən elmi-tədqiqat üzrə strategiya sənədinin hazırlanması;<br>• Elmi-tədqiqat strategiyasının hazırlanarkən maraqlı tərəflərin iştirakının təmin edilməsi;<br>• Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasını daha da səmərəli həyata keçirilməsi üçün tələbələrin müxtəlif beynəlxalq layihələr çərçivəsində tədqiqat yönümlü start-up layihələrinə cəlb edilməsi, magistrant və doktorantların universitetdə aparılan elmi tədqiqat işləri və qrant layihələrinə cəlb edilməsi, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına cəlb edilməsi;<br>• Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər olsa da mexanizmin əhatəlilik və hamı üçün əlçatanlıq baxımından daha da təkmilləşdirilməsi;<br>• Elm və təhsil sahəsində müəyən beynəlxalq qrant layihələrində iştirak etsə də, bu sahədə fəaliyyəti daha daha intensivləşdirmək;<br>• Elmi-tədqiqat fəaliyyəti üzrə patentlər əldə edilməsi üçün kommersiyalaşdırma mexanizminin yaradılması; |

| | |
|---|---|
| | • İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin yaradılması;<br>• Reytinq qiymətləndirilməsi haqqında müvəqqəti qaydalara əsasən elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi aparılsa da, qiymətləndirmə nəticələrinin daha çox əməkdaşı əhatə edə bilməsi üçün qiymətləndirmə mexanizminin təkmilləşdirilməsi;<br>• Nüfuzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması üçün həmin jurnalın impakt-faktoru səviyyəsindən asılı olaraq, universitet tərəfindən birdədəfəlik maddi mükafatın verilməsi;<br>• Müxtəlif elmi müəssisə və təşkilatlarla birgə tədqiqat layihələrinin həyata keçirilməsi;<br>• Beynəlxalq elmi bazalara girişin təmin edilməsi üçün memarandumların imzalaması və müxtəlif nəşriyyatlarla üzvlük ilə bağlı razılıqlar əldə edilməsi;<br>• Magistartura səviyyəsindəki bütün ixtisaslarda tədqiqat yönümlü fənlərin tədris olunması;<br>• Tədqiqat işlərinin nəticələrindən mühazirə və seminarlarda istifadə olunması, mövzu ilə əlaqəli məqalələr, tədqiqat işlərinin və s. əlavə tədris materialı kimi tələbələrə yönləndirilməsi;<br>• Doktorantura proqramlarının təşviq edilməsi ilə bağlı xüsusi bir mexanizm yaradılması. |

| 5. İdarəetmə sistemi | |
|---|---|
| **Güclü tərəflər** | • ATM-in Nizamnaməsinə uyğun idarəetmə sturkturların mövcudluğu;<br>• İdarəetmə strukturlarının Əsasnamə, illik iş planları, protokol, illik hesabatlarının mövcduluğu:<br>• İdarəetmə strukturlarının səlahiyyət və vəzifə bölğüsünün müəyyən edilməsi;<br>• İR şöbəsinin Əsasnamə, illik iş planının (2022-2023) mövcudluğu;<br>• Maliyyə resurslarının ATM Nizamnaməsinə uyğun planlanması;<br>• Differensial əmək haqqı<br>• Rəqabət qabiliyyətli əməkhaqqı və müxtəlif stimullaşdırıcı paketlər sisteminin yaradılması;<br>• İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin Əsasnamə və illik iş planının mövcud olması;<br>• İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin gənc, dinamik işçi heyətinin olması;<br>• ATM-nin saytı və digər sosial media səhifələrində məlumatların yenilənməsi, çat-larda verilən suallara dərhal cavabların verilməsi;<br>• Youtube kanalının olması. |
| **Zəif tərəflər** | • İdarəetmə orqanlarının öz fəaliyyətlərini qiymətləndirmək məqsədi ilə özünütəhlilil aparılmaması;<br>• İnsan Resursları Şöbəsinin daha çox kargüzarlıq istiqaməti üzrə fəaliyyəti;<br>• İnsan Resursları Şöbəsinin strategiyasının olmaması;<br>• şçilərin attestasiyası (qiymətləndirilməsi), işçilərin karyerasının planlaşdırılması, İşçilərin Əməkhaqqı (Əməkhaqqın differensiallaşdırılması ilə bağlı qərar mövcud olsa da bu təlimat yoxdur (5.2.3)) və Mükafatlandırma sistemi ilə bağlı təlimatların mövcud olmaması;<br>• Strukturlar arasında komunikasiyanın zəif olması<br>• Daxili audit mexanizminin olmaması |

| | |
|---|---|
| | • Kənar auditin və nəzarət mexanizminin olmaması<br>• İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin infrastrukturunun və avandalığın zəif olması<br>• İngilis dilində kadr çatışmazlığı və səhifələrdə olan məlumatların ingilis dilində az olması<br>• Akademik heyətin nisbətən yaşlı kadrlardan ibarət olması elektronlaşma prosesinə keçidi çətinləşdirir. |
| **İmkanlar** | • İdarəetmə orqanlarının struktur vahidləri olaraq mövcudluğu<br>• İdarəetmə orqanlarında aparılan struktur dəyişikliyi ilə idarəetmənin optimallaşdırılması<br>• İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin struktur vahidi olaraq mövcudluğu<br>• İdarəetmə orqanlarında mövcud olan ixtisaslı kadr imkan;<br>• Yeni strukturların və komissiyaların fəaliyyəti<br>• Respublikada ixtisaslaşmış ATM olması;<br>• İkili diplom proqramlarının və əməkdaşlıqların genişləndirilməsi imkanları. |
| **Təhdidlər** | • Digər ali təhsil müəssisələrində elektronlaşma prosesinin müasir tələblərə uyğunlaşdırılmasının tələbələrin seçiminə təsiri.<br>• Maliyyə resurslarının monitorinqi mexanizminin olmamasının planlamaya mənfi təsiri<br>• Əlavə maliyyə resurslarının azlığı |
| **Komissiyanın tövsiyələri** | • Növbəti EŞ təsdiq olunarkən maraqlı tərəflərin - işəgötürən və ictimaiyyət nümayəndələrinin iştirakının nəzər alınması;<br>• İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsini təmin etmək;<br>• İnsan resursları şöbəsinin ATM daxilindəki missiyasını artırmaq istiqamətində işləri genişləndirmək; |

| | |
|---|---|
| | • İnsan Resursları şöbəsinin strategiyasının hazırlanması;<br>• İşçilərin motivasiyası və mükafatlandırılması ilə bağlı təlimatın hazırlanması;<br>• "Kadr idarəçilik" fəaliyyətindən kənara çıxarılması, İR şöbəsinin ATM əməkdaşları arasında özünüqiymətləndirmə sorğularının təşkil edilməsi, nəticələrinin qiymətləndirilməsi və ona uyğun iş aparılmasının təmin edilməsi;<br>• İşçilərin fəaliyyət səmərəliliyinin qiymətləndirilməsinə dair metodoloji yanaşmalar, attestasiya sistemini nizamalayacaq sənədin hazırlanması;<br>• Əmək müqavilələrinin hazırlanması zamanı əmək haqqı hissəsində əməkdaşların əmək haqqı xalis və ya vergi daxil yazılmaqla qeyd olunması tövsiyə olunur.<br>• Daxili və kənar audit mexanizminin formalaşması<br>• Maliyyə resurslarının monitorinqinin aparılması, nəticələrin təhlil olunması və planlamada nəzərə alınması<br>• Tədrisin tam elekton və funksional idarəetmə sistemini tətbiqinin strateji hədəflərdə öz əksini tapması |

| **6. İnsfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | • ATM-nin auditoriya fondunun kifayət qədər geniş və tədrisin təşkili üçün uyğun olması;<br>• Spesifik xüsusiyyətlərə uyğun təlim və tədris laboratoriyalarının kifayət qədər çox olması;<br>• Kitabxana informasiya mərkəzinin proqramlaşdırılması və müasir avadanlıqlarla təchiz olunması;<br>• Tədris binasında böyük idman zallarının mövcud olması; |

| | |
|---|---|
| | • Tədris binalarında normativ tələblərə cavab verən yeməkxanaların mövcud olması;<br>• Yataqxananın mövcudluğu və qiymətlərin əlçatan olması;<br>• Tələbə polinklinikasının mövcudluğu və 4 tədris binasında tibbi xidmətin təşkil olunması;<br>• Tədris binalarının simli və simsiz yüksək sürətli internetlə təmin olunması. |
| **Zəif tərəflər** | • Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun olmaması;<br>• İstehsalat-təcrüə bazasının olmaması;<br>• Distant təhsil infrastrukturunun qurulmaması;<br>• Nəqliyyat vasitələrinin ancaq Rektor və prorektorlara xidmət göstərməsi;<br>• Tədris binalarında liftləri istismar müddətinin bitməsi və istifadəyə yararsız olması;<br>• Auditoriyaların maddi texniki təchizatının yenilənməməsi;<br>• Yataqxananın ancaq xanım tələbələr üçün nəzərdə tutulması;<br>• Elmi tədqiqatların aparılması üçün müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların olmaması;<br>• Tədrisin elektron idarəetmə sisteminin olmaması. |
| **İmkanlar** | • İşğaldan azad olunmuş ərazilərdə kadr təminatının həyata keçirilməsi üçün regional filialın yaradılması;<br>• Yataqxanaları istismara yararlı vəziyyətə gətirərək əlavə gəlir mənbələrinin yaradılması;<br>• Distant təhsil formasından istifadə edərək maddi təchizatın yaxşılaşdırılması üçün infrastrukturun mövcud olması;<br>• Müxtəlif layihələrin və fondların ATM-nə maliyyə dəstəyinin olması;<br>• Kitabxana resurslarının geniş çeşidinin olması. |
| **Təhdidlər** | • Maddi texniki təchizatın istismar müddətinin çox olması; |

| | |
|---|---|
| | • Büdcənin böyük həcminin təhsilalanların təhsil haqqlarının hesabına formalaşdırılması;<br>• ATM-də rəqəmsallaşma prosesinin həyata keçirilməsinin ləngiməsi;<br>• ATM-nin maddi texniki bazasının yenilənməsi üçün maddi resurslarının məhdud olması;<br>• Digər ATM-də də eyni ixtisasların mövcud olması; |
| **Komissiyanın tövsiyələri** | • Maddi texniki təchizatın yenilənməsi prosesini sürətləndirilməsi və SİP-da qısa, orta və uzunmüddətli hədəflərin qoyulması;<br>• Təlim və tədris laboratoriyalarının müasir avadanlıqla təchiz edilməsinin təmin edilməsi;<br>• Elmi tədqiqatların aparılması üçün müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların yaradılmasının təmin edilməsi;<br>• Distant təhsil forması üçün infrastrukturun təkmilləşdirilməsi;<br>• Öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin tətbiq olunması;<br>• Sağlamlıq imkanları məhdud şəxslər üçün infrastrukturun yaradılması;<br>• İstehsalat təcrübə bazasının yaradılması istiqamətində işlərin sürətləndirilməsi;<br>• Yeməkxanaların fəaliyyət göstərməsinə icazə verən sertifikatların və Qida Agentliyinin verdiyi sənədin divara vurulması;<br>• Tətbiq olunan interaktiv lövhələrin və proyektorların auditoriya fonduna uyğun olaraq artırılması;<br>• Auditoriya fondundan istifadə edərək müxtəlif kurslar təşkil edərək əlavə gəlir mənbələrinin yaradılması. |

| 7. Beynəlmiləlləşmə | |
|---|---|
| **Güclü tərəflər** | • Beynəlmiləlləşmə Siyasəti sənədinin mövcudluğu;<br>• Kreditlərin mübadilə proqramından sonra tanınması qaydaları və müvafiq sənədin mövcudluğu;<br>• ADPU və CVU arasında imzalanan ikili diplom proqramı;<br>• Beynəlmiləlləşmə siyasətini və proseslərini təşkil və idarəetmə üçün kifayət qədər insan resursların ayrılması;<br>• Qrantlar və Layihələr Şöbəsinin ADPU əməkdaşları üçün mütəmadi olaraq keçirdiyi təlimlər. |
| **Zəif tərəflər** | • Beynəlmiləlləşmə Sənədinin əhatə etdiyi illərin qeyd olunmaması;<br>• Mübadilə proqramına müraciət tələbələr üçün seçim prosesinin zəifliyi (öncədən müəyyən edilmiş dəqiq kriteriyalar mövcud deyil);<br>• Mübadilə proqramına müraciət edən müəllim və inzibati heyət üçün seçim prosesinin zəifliyi (öncədən müəyyən edilmiş dəqiq kriteriyalar mövcud deyil);<br>• Beynəlxalq Əlaqələr Şöbəsinin özünün ayrı büdcə planının və büdcəsinin olmaması (yalnız qrantlardan gələn maliyyə vəsaitləri və ATM tərəfindən ayrılan ad-hoc maliyyə;<br>• Yataqxana təminatı (hazırki yataqxanada yalnız qız tələbələr qala bilir);<br>• Monitorinq və əldə olunan nəticələrə nəzarət mexanizminin olmaması (yalnız ildə iki dəfə rəhbərliyə hesabatlar verilir). |
| **İmkanlar** | • ATM-in ölkə miqyasındakı əhəmiyyətini, irsini, funksional və peşəkar potensialını tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi baxımından daha çox gözəçarpan vəziyyətə gətirmək;<br>• Regional, transkontinental və qlobal təşəbbüslərə cavab verə bilmək üçün öz əməliyyat idarəçiliyini qurmaq bacarığı və həvəsi; |

| | |
|---|---|
| | • ATM-in müxtəlif filiallarını vahid sistemdə əlaqələndirmək və bu xüsusda beynəlxalq mövcudluğunu artırmaq üçün mövcud olan imkan;<br>• Azərbaycan və rus dillərində olan proqramlarını tez bir zamanda və əlavə olaraq ingiliscə modul və proqramlara çevirmək imkanı;<br>• Əsrlik tarixə, eləcə də ölkə miqyasında ali təhsil sahəsindəki roluna əsaslanaraq gənc və istedadlı xarici müəllimləri və tədqiqatçıları universitetə tam ştat olaraq cəlb edib çalışmaları üçün unikal bir mərkəzə çevirmək imkanı. |
| **Təhdidlər** | • Qeyri-ənənəvi bazarlardan əcnəbi tələbələrin cəlb edilməsi prosesində beynəlxalq marketinq platformalarından və tətbiqlərdən kənarda qalmağa davam etməsi;<br>• ATM-in əməliyyat idarəçiliyində mövcud olan böyük peşəkar potensialın zəruri olan dərəcədə istifadə olunmaması. |
| **Komissiyanın tövsiyələri** | • ATM rəhbərliyinə tələbələrin bazarını genişləndirmək üçün və potensial tələbələrin cəlbi yönümdə fəaliyyət göstərən nüfuzlu beynəlxalq platformalarla (məsələn, Global Study Partners, UniBuddy, Keystone və digərləri) əlaqə saxlamağı və əməkdaşlıq etməyi nəzərdən keçirmək tövsiyə oluna bilər. Çox güman ki, belə bir əlaqə həm də bir sıra nüfuzlu tərəfdaşlar qarşısında universitetin beynəlxalq görünmə dərəcəsini effektiv şəkildə artıracaq.<br>• Mövcud ölçüyə, reputasiya səviyyəsinə və təşkilati sistemə malik bir ATM üçün daha çox əcnəbi alim və tədqiqatçının tam ştatla işləməsi kifayət qədər əlçatan görünür. Rəqəmsal əsrdə sürətli inkişaf üçün yeni və inkişaf etməkdə olan texnologiyalarla tanış olan, fənlərarası əlaqəni artırmağa və yeni tədqiqata əsaslanan ideyalar yaratmağa hazır olan gənc tədqiqatçılara diqqət yetirmək məqsədəuyğun olardı.<br>• Akkreditasiyadan sonrakı dövrdə akkreditasiya prosesinin yaratdığı əsas fəaliyyət istiqamətləri və meyarlarını istifadə etməklə, bütün əsas strateji sənədlərin vahid strategiyada yenidən nəzərdən keçirilməsi üzrə işlərə başlamaq tövsiyə olunur. |

| | |
|---|---|
| | • İnkişaf etməkdə olan bir sistemə və yüksək peşəkarlığa malik böyük komandaya sahib olmağına baxmayaraq, ATM beynəlxalq veb-platformalarda lazımi dərəcədə təmsil olunmadığından tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi baxımından görünmə dərəcəsi də müvafiq səviyyədə deyildir. Əlavə olaraq, təşkilatın öz veb-saytında birbaşa prosesə (beynəlmiləlləşmə) və bu prosesdə iştirak edən peşəkar komandalara həsr olunmuş daha çox səhifənin olması məqsədəuyğundur . Portalın ingilis dilində olan seqmenti məlumatın çatdırılmasının daha fərqli üsullarını sınaqdan keçirməsi, həmçinin seqmentdə yer alan mətni də qrammatik və orfoqrafik yoxlamasını təmin etməsi də faydalı olardı. Beynəlmiləlləşmə prosesində iştirak edən bütün struktur bölmələr və komanda üzvlərinin şəkilləri, həmçinin onların haqqında qısa məlumat və onlarla birbaşa əlaqə qurma vasitələri haqqında məlumatı daha geniş təqdimatda veb-saytda yerləşdimrək tövsiyə olunur.<br>• ATM-in beynəlmiləlləşmə təşəbbüslərinin monitorinqi və qiymətləndirilməsi üzrə daha aydın çərçivəyə malik olması (veb-saytda şəffaf şəkildə dərc edilməsi) tövsiyə oluna bilər – bunun üçün bu prosesi hazırlayıb pilot sınaqlardan keçirmək, hərtərəfli təhlil etmək və təkmilləşdirmək məqsədəuyğundur. ATM-in tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi kontekstində öz prioritetlərinə, ölçüsünə və hazırkı inkişaf mərhələsinə uyğun və faydalı olan bir sıra monitorinq və nəzarət tədbirləri hazırlamaq barəsində düşünməsi məqsədəuyğun olardı.<br>• Akademik mübadilələrin müxtəlif növlərinin həyata keçirilməsi üzrə daxili prosedurlara əsaslanan şəffaflıq səviyyəsini vurğulamaq və inkişaf elətdirmək üçün prosesi əvvəlindən axıra qədər təsvir edən xəritələri və ya sxemləri yaratmaq və vebsaytda dərc etmək tövsiyə olunur. Bununla yanaşı olaraq, sözügedən prosesin hər bir hissəsi üçün kimin məsul olduğunu göstərmək da faydalıdır.<br>• ATM-in beynəlxalq reytinqlərdəki yeri kontekstində müəssisənin siyahıdakı yerini təmsil edən rəqəmlərə diqqət yetirməklə yanaşı, müəyyən bir reytinq daxilində öz təsnifatını başa düşməsi də çox vacibdir. Bu baxımdan, ATM-in artıq qeydiyyatdan keçdiyi QS Ranking kimi nüfuzlu platforma aşağıdakı kateqoriyaları təqdim etməklə oxşar xüsusiyyətlərə malik qurumların daha tez müəyyən edilməsini və müqayisəli |

| | |
|---|---|
| | təhlilini təmin edir: yaş qrupu, ölçü, status (dövlət, özəl, qeyri-kommersiya), tədqiqat intensivliyi, mövzu sahələri və s. Bu cür təsnifatı universitetin öz reklam mətnlərində və materiallarında, həmçinin veb-saytında da istifadə etməsi faydalıdır.<br>• ATM üçün onun bütün planlaşdırmasını, resursların bölüşdürülməsini və monitorinqini bir mərkəzləşdirilmiş sistemdə/platformada idarə etmək üçün proqram yaratmaq tövsiyə olunur. Bu, universitetin resurslarından daha səmərəli istifadə etməyə və gözlənilməz dəyişikliklərə daha tez uyğunlaşmağa şərait yaradıb, universitet rəhbərliyinin və komandasının tədrisin və tədqiqatların beynəlmiləlləşdirilməsi sahəsində uğur qazanması prosesinə kömək edəcəkdir.<br>• Beynəlmiləlləşmə prosesləri ilə məşğul olan 3 əsas şöbənin komandalarından bir neçə əməkdaşı fakültələrlə daim əlaqədə olacaq əlaqələndirici şəxslər qismində (point of contact, məs. hər biri üçün 2 fakültə) təyin etmək faydalı ola bilər. Bunun üçün ATM-in kifayət qədər insan resursları mövcuddur. Onlar bütün struktur və əməliyyat məsələləri, eləcə də qarşılıqlı şikayətləri dinləmək və müzakirə etmək üçün fakültələrlə aylıq görüşlər keçirə bilərlər.<br>• ATM üçün ehtiyacəsaslı təkmilləşdirmə tədbirlərinin, digərləri ilə yanaşı, aşağıdakı elementlərə əsaslanması tövsiyə olunur: tələbələrin prosesə daxil edilməsinin gücləndirilməsi, məlumatlara əsaslanan fəal idarəetmə, tələbələr və gənc tədqiqatçıların karyera planlaması və eksperimental öyrənmə fəaliyyətlərinə açıq olması və s. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 9; Keyfiyyət təminatı istiqaməti üzrə 10; Təlim və tədris istiqaməti üzrə 113; Elmi tədqiqat istiqaməti üzrə 14; İdarəetmə istiqaməti üzrə 11; İnfrastruktur istiqaməti üzrə 10; Beynəlmiləlləşmə istiqaməti üzrə 10 tövsiyə olmaqla, ümumilikdə 77 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin ADPU tərəfindən həyata keçirilməsini məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);

- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, ADPU-nun müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “əsasən uyğundur” hesab edilməsi;

- ADPU-nun 2023/2024-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.